NƏZAKƏT EMİNQIZI

# GECİKMİŞ ÇİÇƏKLƏR



**Nəzakət Eminqızı**

# GECİKMİŞ ÇİÇƏKLƏR
## (hekayə və məqalələr)

MƏCBURİ NÜSXƏ
№

## (YAZARLAR DƏRNƏYİ)
## XXX KİTAB

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV № 132997

**Bakı - 2022**

**Nəzakət Eminqızı (Əhmədova-Kərimova Nəzakət Emin qızı)**
**Gecikmiş çiçəklər (hekayə və məqalələr)**

Azərbaycan dilində. Bakı - “USTAC.AZ” nəşrləri - 2022, 124 səh.

**Redaktor:** Hacıxanım Aida.
**Ön söz:** Zaur Ustac.
**Naşir:** Tuncay Şəhrili.

***Bu kitabda Nəzakət Eminqızının yazıları toplanıb.***

MÜSTƏQİL YAZARLAR KONFEDERASİYASI
“Yazarlar” jurnalının xüsusi buraxılışı (QN : 2319).
XXX buraxılış. Yazarlar XB N:030 (053) 21.12.2022.
Kod: 050-07-ENE-15-20-22

©Yazarlar.az, 2022.
©Ustac.az, 2022.
©N.Eminqızı, 2022.

# ÖN SÖZ

## ÇİÇƏK ELƏ ÇİÇƏKDİR...

Bəli çiçək elə çiçəkdir. Gecikmişi, filanı olmur. Nəzakət Eminqızı (Kərimova-Əhmədova) imzası ilə hələ ötən əsrin sonlarından tanışam. Onun istər ənənəvi mətbu orqanlarda, istərsə də tele-radio proqramları vasitəsilə uşaq və yeniyetmələr üçün tərbiyəvi əhəmiyyətli fəaliyyəti həmişə seçilib, diqqət mərkəzində olub. Əyalətdə yaşamasına baxmayaraq respublika səviyyəsində tanınmağı bacarıb. Onun bu fədəkarlığı (bu fəaliyyəti məhz belə adlandırmaq ədalətli və doğru olar) dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Nəzakət xanım təcrübəli pedaqoq, peşəkar təhsil işçisi kimi "İlin müəllimi" fəxri adına layiq görülüb, "Tərəqqi" medalı ilə təltif olunub.

Yuxarıda qeyd etdiyim kimi hələ ötən əsrin sonlarından başlayaraq günümüzədək "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət" (indiki "Ədəbiyyat") qəzetlərində, "Azərbaycan məktəbi", "İbtidai məktəb və məktəbəqədər tərbiyə" , "Təhsil" jurnallarında ibtidai təhsilin müxtəlif problemləri ilə bağlı elmi məqalələri və publisistik yazıları ilə çıxış edən Nəzakət xanım pedoqoji fəaliyyətini başa vurduqdan sonra xüsusi bir şövqlə ictimai işlərlə fəal

məşğul olmağa başlayıb. Bu fəaliyyət onun yaradıcılığına yeni bir istiqamət verb. Son illərdə onu daha çox bədii-publisistik mətnlərlə çıxış edən görürük. Demək olar ki, Nəzakət Eminqızı müntəzəm olaraq "Bakı xəbər", "Yeni Təfəkkür","Abşeron", "Təzadlar","Samur" qəzetlərində və "Carçı","Xəzan", "Yazarlar" jurnallarında çap olunur. Onun ədəbi yaradıcılıq sahəsində qazandığı ardıcıl uğurları "Qızıl qələm" və "Ziyadar" mükafatları ilə qiymətləndirilib.

Uzun illər pedaqoji fəaliyyətlə yanaşı paralel olaraq ictimai əsalarla özünün yaratdığı N.Nərimanov muzeyinə rəhbərlik etmiş Nəzakət xanım bu gün də təşkilatçılıq, idarəetmə sahəsində fəaliyyətini davam etdirir. "Yazarlar" jurnalının redaksiya heyətinin üzvü, İƏÜM-i olmaqla bərabər, bir çox digər ictimai birlik və təşkilatlarda da səmərəli fəaliyyət göstərir. AJB-nin üzvü, DAMM İB – nin idarə heyətinin üzvüdür.

Hazırda "Heydər Əliyev - 100" yubiley tədbirləri çərçivəsində yeni kitab üzərində çalışır.

**Zaur Ustac**

# HEKAYƏLƏR

# GECİKMİŞ ÇİÇƏKLƏR

Yeni dərs ilinin başlamasından xeyli keçmişdi. Məktəbin direktoru Nazilə müəlliməyə sabahkı tədbirin ssenarisini hazırlamağı tapşırmışdı. O bilirdi ki, tədbirin daha maraqlı və uğurlu alınmasının yalnız Nazilə müəlliməyə etibar etmək olardı.

Gecədən xeyli keçmişdi… Bayırda külək əsirdi. Bir az keçməmiş narın yağış yağmağa başladı. Nazilə çox həyəcan keçirirdi. Görəsən, görüş necə alınacaq? Proqramı hazırlayarkən diqqətdən kənarda nəsə qalmadı ki? Bir anlıq sabahkı görüş gözünün önündə canlandı. Hər şey yerli yerində nəzərdə tutulduğu kimi gedirdi.. O, çox narahat idi. Birdən atasının ürəyi yenə ağrıyar, tədbir yarımçıq qalardı.

Bütün suallar xəyallarından gəlib keçdi… Nəhayət, qonşunun xoruzunun banlanması onu xəyallardan ayırdı. Səhər açılırdı. O işə hələ o isə hələdə yata bilməmişdi.

Məktəbin akt zalı ağzına kimi görüş iştirakçıları müharibə veteranları, müəllim və şagirdlərlə dolmuşdu. Hamı qonağı səbirsizliklə gözləyirdi. Nazilə atasını böyük vətən müharibəsinin veteranı və məktəbin sayılıb seçilən hörmətli müəllimi kimi ön cərgədə veteranların yanında oturtdu. Bu böyük izdiham qonağı qarşılamaq üçün həyəcan içində idi. Akt zalının qapısının ağzında gənclər, məktəblilər gül- çiçəklə bayraqlarla gözlərini küçə qapısına zilləmişdilər… Budur, qara maşın məktəbin həyətinə daxil oldu. Hamı gələn qonağı rayona yeni təyin olunmuş məhkəmənin sədrini alqışlarla qarşıladı. Onu akt zalına dəvət etdilər. O, asta addımlarla yuxarıda ona ayrılmış stulda əyləşdi.Hamı onu alqışladı. Nazilənin atası, gələn qonağa diqqət elədi. Onun ağa ayağını çətinliklə çəkməsinə də nəzər yetirdi, amma yenə də öz özünə fikirləşdi, yox bu ola bilməz! Ürəyində ağrı hiss etdi. Havası çatmadı. Nazilə atasının halbahal olduğundan narahat oldu. Yanına gəlib pəncərəni araladı ki,otaq da havalansın. Atası isə düşüncələrə qərq olmuşdu. Axı ,müharibədən 40 ilə yaxın bir

dövr keçib, bir də axı Oqtay ağır yaralanmışdı. Hətta döyüşçülər onun öldüyünü deyirdilər. Məktəbinin rəhbəri onu görüş iştirakçılarına təqdim etdi. Bakıdan rayonumuza yeni təyin olunmuş hakimin eyni zamanda Böyük Vətən Vüharibəsində Kerç uğrundakı döyüşlərdə yaralandığını dedi. Sözü ona verdi o ,danışdıqca Nazilənin atası təəccüb və sevinc içində gözünü ondan çəkə bilmirdi. Birdən qonağın da gözləri ona sataşdı. Danışdıqca, o həyəcanlı anları xatırladıqca ,zənnində yanılmadığını hiss etdi. Sözünü kəsərək ,pıçıltıyla direktordan ön sırada oturanın kim olduğunu soruşdu. Adil müəllimdir ,-dedi.. Məktəbimizin tarix müəllimi Adil adını eşitcək- o, mənim cəbhə yoldaşımdır, dedi- Nazilə atasının da bayaqdan narahatlığının səbəbini indi anladı. Zalda gözlənilməz həyəcan yarandı

Oqtay Adilə və Adil də Oqtaya sarıı tələsdi… Onlar qucaqlaşıb sevincdən ağladılar… Axı Adilə döyüşçülər Oqtayın öldüyünü demişdilər. Həyatda müharibə vaxtı nə qədər gözlənilməz anlar, möcüzələr olurmuş. Nazilə tədbirin sonunda atası və Oqtay əmi ilə( ona əmi deyə müraciət etdi) söhbətlərinin necə doğmayana, səmimi olduğundan sevinərək təkidlə onu evə gəlməyə dəvət etdi. Oqtay tələsdiyinə, bu rayona yeni gəldiyinə görə; işim çoxdur-deyib Adil müəllimlə sağollaşarkən; Mütləq ailəlikcə gələcəyinə söz verib rayona qayıtdı. Adil müəllim yol boyu döyüşdə yaralı dostunu al qan içində yaxınlığındakı həkim məntəqəsinə apardığını, oraya təhvil verib,artıq burada qala bilmədiklərindən döyüşçülərlə yollarına davam etdilər.

Özünün də yaralanmasını bir daha xatırladı,-bir müddət sonra Oqtayı xəbər alanda onun ölməsi xəbərini alarkən hönkür-hönkür ağladığını da yada salarkən yenə həmin hisslərə qapandı.Birdən yenə ürəyi sancdı…Nazilə atasını evə gətirdi. Ona çay çörək verib evlərinə getdi.

Oqtay da cəbhə dostunu tapdığına çox sevindi. Evə çatan kimi bu günün sevincini evdəkilərlə böldü, kiçik nəvəsi Elxan

babasından xahiş etdi ki, onu da Adil əmigilə aparsın. Baba məni kəndə aparanda oradakı bulağı göstərərsən? Əlbəttə, mənim balam, Adil əmi ilə meşəyə apararam. Oradan güllər də yığarsan- dedi.Görüşdən bir müddət keçdi. Adil rayona xəbər göndərib onları qonaq çağırdı, amma işin çoxluğundan başım açılan kimi münasib vaxt tapan kimi gələcəyik dedi.Nəvə babasının yadına saldı ki, gedəndə Adil əmiyə də gül aparacağam.

Nəhayət, Oqtay vaxt tapıb evə xəbər göndərdi ki, hazırlaşın, kəndə qonaq gedirik. Elxan sevincdən atılıb düşürdü. Səbirsizliklə babasını gözləyirdi. Qapının zəngi çalınan kimi sevinclə qaçıb açmaq istəsə də nənəsi onu qoymadı. Nənə qapını açanda tanımadığı adamın ona uzatdığı kağızı alıb, oxudu. Üzü tutuldu, sarsıldı. Nəvəsi tez nənə kəndə gedirik. Babam tez gəlsəydi, dedi- Nənə heç nə demədi. Oqtay evə gələndə hadisəni öyrənib. çox pis hala düşdü. Nəvəsi isə hələ də başa düşmürdü ki, nə baş verir- Baba, niyə ağlıyırsan, nənəm də cavab vermir, gedək də indi gedə bilmərik işim var. Ama söz verirəm ki, səni mütləq aparacağam dedi.

Həmin gündən bir müddət sonra Oqtay ailəliklə kəndə yola düşdülər. Ürəyində özünü elə hey danlayırdı ki, kaş Adil çağıranda gedəydik, nə biləydi ki, Adilin ürəyi bu tezliklə onun ömrünə son qoyacaq… Yol boyu Elxan əlindəki gül dəstəsinə sevinir, Oqtay isə ona heç nə demir, ürəyində kədərdən sarsılırdı. Kəndə çatanda qəbiristanlığın yerini yolun kənarında dayanmış gəncdən soruşdu və maşını oraya sürüb saxladı. Elxan duruxdu. Babasına baxdı. Heç nə anlamadı. Sonra Adil əmisinə gətirdiyi gülləri babasının işarə etdiyi məzara qoydu. Bəli, müharibə Adili həyatdan vaxtsız apardı, Oqtayın ayağını ömürlük şikəst etdi. Balaca Elxan bunları anlamaq iqtidarında deyildi. Babasına təkidlə edərək bulağa getməyi istəyirdi. İllər keçdi…. Balaca Elxan böyüdü. Orta məktəbi bitirib,Ali məktəbə qəbul olundu: Babası artıq dünyasını dəyişmişdi. Onu hərbi xidmətə çağırdılar. Orduda xidmət edərkən dostlarına

uşaqlıqda şahidi olduğu bu hadisəni danışarkən anladı ki, həqiqətən döyüş dostları bir birinə qardaşdan da yaxın olurlar. Suyunu, çörəyini bərabər bölürlər amma bircə şeyi hələ də unuda bilmirdi ki, vaxtında çiçəkləri Adil əmiyə verməyə imkan olmamışdı. Hərbi xidmətdən qayıdan Elxan əvvəl babasının məzarlarını ziyarət etdi, sonra isə vaxtilə sağlığında çatdıra bilmədiyi qərənfilləri Adil əmisinin məzarı üstünə qoyarkən bir də uşaqlıq xatirəsi yadına düşdü…

## QOZ MÜRƏBBƏSİ

Amilənin atası Amil müəllim uzun illər rayonda sayılıb seçilən, müxtəlif vəzifələrdə çalışmış hörmətli ziyalı idi.

O, övladlarının təlim-tərbiyəsinə xüsusi diqqət yetirirdi ki, layiqli peşə sahibləri olsunlar, vətənpərvər, ailə ənənələrinə sadiq oğul-qızlar kimi böyüsünlər.

Ailədə iki oğul və iki qız böyüyürdü. Orta məktəbi bitirər-bitirməz qızlara elçilər çıxır, ana gizlicə onları: “hələ tezdir”-deyə qaytarırdı. Şəhər mühitində böyüsələr də ev işlərində ana qayğısı görən qızlar
müxtəlif xörəklərin bişirilməsinə diqqət edirdilər. Amilənin böyük bacısı Nailə ondan fərqlənirdi belə ki, Amilənin oxumağa həvəsi olmadığı halda Nailə dərslərinə
ciddi yanaşır, müxtəlif fənn olimpiadalarının qalibi olurdu.

Nailə məktəbi əla qiymətlərlə bitirib ali məktəbə qəbul olundu. Amilə də bir il sonra məktəbi bitirdi, lakin təhsilini davam etdirmək fikri yox idi…

Bəli, elçilər nəhayət, məktəbi bitirən qızlar üçün qapını döyməyə başladılar.

Nailənin ərə getməyə fikri yox idi. O, yalnız ali təhsilini bitirərək, elmi işlə məşğul olmaq arzusunda idi.

Amilə isə ailə qurmaq üçün meylli olduğuna görə anasdı ona gələn elçilərə “fikirləşərik”-cavabını verdi.

Əlbəttə, “yaxşı, razıyıq” sözünü birdən deyə də bilməzdilər. Çünki, ailə qurmaq, getdiyi yerə uyğunlaşmaq, həmin

ailənin daxili "konstitusiyasına " əməl etmək üçün tam hazır olmaq lazım idi.

Özü də kənd həyatına alışmaq, ailədə qaynana, keçmişin zabitəli qaynatası, baldız və qayınlar olduğuna görə ana razılıq verməyə çətinlik çəkirdi, elçilər isə əl çəkmir, qızı alacaqlarını deyib dururdular.

Nəhayət, qohumlar arasında ümumi razılığa gəlindi, Amiləni nişanladılar. Olmağına oğlan da pis oğlan deyildi:- ali təhsilli mühəndis idi.

Nailə üçün də gələn elçilər fürsətdən istifadə edərək "həri"ni aldılar…

Günlərin xoş bir payız günündə gözəl bir çal-çağırla Amiləni rayona yaxın kəndlərdən birinə gəlin apardılar.

Qısa müddətdə Amilə getdiyi yerdə özünü hamıya sevdirə bildirdi. Ailədə hamı ataya hörmət edir, o, evə gələndə əl-ayağa düşürdülər. Çünki, uzun illər kolxoz sədri işlədiyindən hökmlü, zabitəli, cüssəli kişi idi. Ona yalan demək, sözünü iki eləmək, yanında yersiz hərəkətlərə yol vermək qətiyyən ağla belə gəlməzdi.

Amilə bu evə gəlin gələli ağzındakı "yaşmağ"ı hələ açmamışdı. Bunu özünə ayıb bilir, qaynata ilə danışmağa da cürət etmirdi. Hərdən qaynatasının "gəlin, çayın hazırdır?"- deməsinə də "bəli" deyirmiş kimi başını yelləyərdi. Gəlinin abır həyanı gözləməsi onu qaynatanın gözündə daha hörmətli edirdi.

İşdən yorğun gələn kişi birdən: "ay gəlin, ocağın üstündəki nədir elə qaynayır?"-deməsindən diksinən Amilə səssizcə qaynatasının yanına gəlib, yaşmağını aşağı saldı, ilk dəfə: -"su"-dedi və yenidən yaşmağını ağzına çəkib ona çay süzdü. Onun bu qəfil hərəkətinə qaynanası və baldızı xəfifcə qımışdılar.

Amilə hələ də anlamadı ki, onlar nəyə gülümsədilər. Belə söhbətlərdən biri də ertəsi gün baş verdi.

Həyat yoldaşı işdən çox yorğun qayıtdığından yeməyini yeyib, yataq otağına keçərək taxtında uzandı. Ev iki mərtəbəli olduğundan kənd evlərinə məxsus ikinci mərtəbədə də ayaqyolu və əlüzyuyan eyvanın yuxarı başında yerləşirdi. Amilə süfrəni yığışdırdı, qab-qacağı yuyub yerləşdirdi, ocağa iki odun da atdı ki, otaq gecə soyumasın. Sonra gedib əllərini yumaq üçün əlüzyuyanın yanına gəlmək istəyəndə gördü ki, ayaqyolunun qapısı aralıdır, içəridə yataq paltarında adam var. Əvvəlcə duruxdu, sonra elə bildi ki, yoldaşıdır, zarafatla ehmallıca çiyninə vurub-"elə bildim dədədir"-dedi, keçib əllərini yudu, sakitcə otağına qayıtdı, gördü əri taxtda yatıb. Əvvəlcə duruxdu, bir anlıq həyəcan keçirdi.

Sən demə bu sözləri elə qaynatasına deyibmiş… Təsəvvür edin, daha xəcalətdən qaynatanın üzünə çıxa bilərdimi?!

Günlərin bir günü Amilə baldızına dedi ki, o kiçik qozlardan gəl qoz mürəbbəsi bişirək . Bağlarında iri qoz, fındıq ağacları ilə yanaşı, bağdan keçən arxın o biri tərəfində də müxtəlif meyvə ağacları var idi. Bağda gəzməyi çox sevirdi Amilə.

Hər tərəf yaşıllıq idi. Elə mürəbbəni də
burada bişirmək qərarına gəldilər.
Baldızı evdən iri mürəbbə tiyanını gətirdi, Amilə şəkər tozunu tiyana tökdü. Ocaq hazırlandı; iki iri kərpic gətirib, üstünə tiyanı qoydular və şəkər tozuna hər kiloya bir stəkan su əlavə etdilər, hardasa 10 kiloluq mürəbbəyə
hazırlıq gördülər. Ağaclardan yığdıqları göy qozları yudular. Ocağın altına bağdan topladıqları oduncaqları səliqə ilə düzdülər.

Quru çubuqlar yandıqca tiyandakı şərbət yavaş-yavaş qaynağa düşdü, yuyulmuş gömgöy qozları tiyana tökdülər. Xeyli gözlədilər, arabir qarışdırırdılar. Hərdən evə də gedib atanın işdən gəlib-gəlməməsini də yoxlayırdılar. Axı, ona qoz mürəbbəsi bişirirdilər. Həm də bu mürəbbə gəlin-baldızın ilk bişirdikləri mürəbbə olacaqdı.

Nəhayət, bişirdiklərini dadmaq istəyəndə…Vay, bu nədir?
Acı zəhər! Bir-birinin üzünə baxdılar.
Axı, onların yedikləri qoz mürəbbəsi çox ləzzətli, şirin idi.

Amilənin nitqi qurumuşdu, bilmirdi nə etsin…Baldızı tez evə qaçıb məsələni anasına danışdı. Ana elə qızını özbaşına, məsləhətsiz belə iş gördüklərinə görə danlayırdı ki, atası gəldi və "nə olub?"-deyə soruşdu. Qız qorxudan tez, "heç nə", "anamdan söz soruşurdum"-dedi. Ana işdən gələn yorğun ərini yuxarı apardı.

Amilə həyəcanla baldızını gəlməsini gözləyirdi. Nə edəcəklərini hələ bilmirdi:-həm məsləhətsiz bu işi gördüklərinin, həm də xeyli miqdarda şəkər tozunu israf etdiklırinin, həm də bilmədikləri işə görə danlanacaqlarının

həyəcanını keçirirdi ki, baldızı qaçaraq gəldi və Amilə, gəl tiyanı otlarına arasına çevirib tökək, heç kəs bilməsin,- dedi.

Eləcə də etdilər. On kiloya yaxın "mürəbbə"ni otların arasına töküb, tiyanı arxda yudular, səssizcə gətirib həyətdəki mətbəxə qoydular.

Əminliklə yəqin etdilər ki, kişi heç nə bilməyəcək. Çünki, onun dilinə düşsələr danlanacaqlar.

Bir neçə gün keçdi. Hava xoş idi. Amma bağı yaman vızıltı səsi bürümüşdü. Amiləgilin bundan xəbəri yox idi. Qaynatası arıların vızıltısını eşidib, öz-özünə-burda arılar olmur axı, bəlkə ağacda pətəkləri var-düşüncəsi ilə "hadisə yerinə" yaxınlaşdı.

Vay… burada nə qədər arı, milçək və başqa böcəklər var. Ehtiyatla arılardan uzaqlaşıb evə gəldi. Və… bağda gördüyündən baş aça bilmədiyini söylədi.

Amilə baldızına gözucu baxdı və baxışları toqquşanda hər ikisinin üzündə kədər dolu təbəssüm göründü.

İllər keçdi…Sonralar Amilə də, baldızı da qoz mürəbbəsinin bişirilməsini biləndə və onu bişirib süfrəyə qoyanda "naşı bacarıqlarını" xatırlayır və övladlarına danışıb gülürdülər.

\

# MƏQALƏLƏR

## OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR…

Ötən əsrin xeyriyyəçiləri haqda çox deyilib,çox yazılıb.Onlardan biri haqqında maraqlı bir kitab diqqətimi çəkdi və həmin tanınmış şəxsiyyət haqqında yazı hazırlayıb redaktorla məsləhətləşmək üçün yuxarı mərtəbəyə qalxdım. Üzündə mərhəmət qarışıq nur saçılan bu ziyalımız,özünün də tez-tez işlətdiyi sadə bir müəllimin oglu,lakin elə bir müəllimin ogludur ki ,o müəllim respublikamızda və ondan da kənarda böyük nüfuz və hörməti ilə seçilən,öz ziyası ilə ətrafa nur paylamış və bu nurun işıgına yüzlərlə tanınmış məşhurlar toplaşardılar.
Bu ,hamımızın hörmətlə andıgımız Neftçalanın adlı-sanlı əsil ziyalısı,əməkdar müəllim İmamverdi Əbilov idi…

Onunla respublika elmi-praktik konfranslarında,müxtəlif tədbirlərdə görüşərdik.Fasilədə harda çox toplaşanlar vardısa bilirdik ki,orda İmamverdi müəllim var.Hamı onun maraqlı iş metodları ilə tanış olmaq istəyir,onunla şəxsən görüşmək istərdi .O,ciddi görünsə də çox sadə,alicənab, zarafatcıl,yüksək mənəvi keyfiyyətləri özündə cəmləşdirən bir insan,gözəl ailə başçısı,geniş dünya görüşünə malik bir şəxsiyyət idi.Onun ətrafında görkəmli alimlər,şairlər, yazıçılar,müxtəlif sahələrdə çalışan dövlət adamları,bəstəkarlar və digər tanınmışların olması onun nə qədər səmimi,dostcanlı,qonaqpərvər olmasının barız nümünəsidir. İmamverdi müəllim gənc nəslin təhsilə,elmə olan maragını müxtəlif vasitələrlə artırmagın yollarını özü bilməklə yanaşı gənc müəllimlərə də öyrədirdi.

Respublika mətbuatında bir- birindən oxunaqlı yazılarla çıxışları daim maraqla qarşılanırdı.Məqalələri,xatirələri əldən-ələ gəzirdi… Ata ocagının layiqli davamçısı və bu gün "Ədəbiyyat"qəzetinun baş redaktoru Azər Turanın atası haqqında xatirələrini dinlədikcə kövrək hisslərin təsirindən yaşaran gözlərinin şahidi olduq….Onunla həmsöhbət olmaq, dinləmək nə qədər xoş oldugunu həmkarları da

təsdiq edərlər…Azər müəllim nələrdən,kimlərdən söhbət açmadı..? Səməd Vurgunun,Bəxtiyar Vahabzadənin, Xudu Məmmədovun,Cabir Novruzun,Qabilin və bir çox tanıınmış ,şair, və yazarların evlərində atası ilə olan maraqlı xatirələrini elə həvəslə yada salıb danışırdı ki,…Söhbət əsnasında onu da qeyd etdi ki,evlərindəki pianonu bacısı istəyibmiş ki,aparsın.Lakin atasının vəsiyyətinə görə heç kəsə verilməyib.Bilirsiz niyə?

Çünki,o pianoda evlərində qonaq olan Qara Qarayev, Emin Sabitoglu və digər bəstəkarlar həmin pianoda çalıblarmış… Müsahibim elə maraqla,elə maraqlı insanlardan söhnət açırdi ki,vaxtın necə keçdiyini hiss etmədik..
Xstitələr məni o illərə apardı….Görün, nə qədər tanınmış simaların əhatəsində olub bu ailə və bu ailənin ləyaqətli oglu, yazıçı Azər Turan!!!
Birinci dəfə kiçik esse ilə ədəbi mühitə ilk addımlarını atan bir gənc- bu günün tanınmış ziyalısı,yazıçı-publisist ,tədqiqatçı,redaktor və ən əsası gözəl ailə başçısı,sədaqətli dost,səmimi gözəl İnsan!!

Bu yazını hazırlayarkən çox məsələləri açıqlamadım,çünki yazdıqca yazmaq olardı….

Azər müəllim ,sizə möhkəm can sagligı,ədəbi – bədii yaradıcılıgınızda,yeni-yeni ugurlar arzulayıram.
Burda atalar sözü yadıma düşdü:"Ot kökü üstə bitər"!

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. Nr 132997

## ƏDƏBİ GƏNCLİYİN PARLAQ MAYAKI

Səma Muganna – bu ad artiq çoxlarına tanışdır… Gənc yazarın həmyaşıdlarından bir çox fərqli və üstün cəhətləri çoxdur. Belə ki, özünün yüksək intellektual səviyyəsi,insanlara dəyər verib qiymətləndirməyi çox ustalıqla və məharətlə bacarması, fəlsəfi düşüncələri, natiqliq qabiliyyəti, əsərlərindəki obrazlar barədə geniş sohbətləri və i.a. müxtəlif fikirləri ilə fərqlənir.

Səma insanın daxili aləminə siraət edib, onu bütün incəliklərinə kimi təqdim etməyi özünə məxsus düşüncələrinə əsaslanaraq ətafındakılara çatdırmagı dəqiqliklə bacarır.Onun öz dünyası, öz romantikası, öz düşüncə tərzi var.

Onunla şəxsi tanışlığım zamanı fikirlərimdə yanılmadığım, öz təsdiqini tapır.

Hər hansı bir hadisəyə fərdi düşüncə tərzi ilə yanaşır, xəyalında araşdırıb,qurduğu hər hansı bir ədəbi əsərin mahiyyətini ,məzmununu, mənasını və nəhayət,mövzusunu tam şəkildə oxucusuna,dinləyicisinə aydınlıgı ilə çatdırmağı adamı heyran edir.

Hələ kiçik yaşlı məktəbli ikən yazdığı yazılar, kitablar onun zəngin daxili aləmindən xəbər verir.

Əlbəttə, bu da onun genetik xüsusiyyətindən irəli gələ bilər. Belə ki, Səma tanınmış yazıçımız Isa Mugannanın varisi–nəvəsi olduğuna görə burada genetikanın özünü göstərməsi də elmi cəhətdən bizə əsas verir.

Səmanın yazılarındakı dolğun fikirlər onun gələcəkdə ən məhsuldar yazıçı kimi şöhrət qazanacağından xəbər verir.

Bildiyimiz kimi Səma Muganna 2006- cı ildəmart ayının 2-sində Bakıda –Isa Mugannanın ocağında dünyaya göz açıb.Ona bu adı düşünərək verənlər heç də yanılmamışlar.Həqiqətən o, səmada Günəş kimii parlayan,ədəbi yaradıcılığa qədəm qoyan gənclərin yoluna işįq saçan Mayakdır!!!

Hazırda BDU-də filologiya fakultəsində müəllim kimi çalişan, filologiya üzrə fəlsəfə doktoru Sevinc Muganna ö söhbətlərində

qeyd edir ki, qızı Səma hələ uşaqlıqdan ədəbiyyata bağ́lı olmuşdur. Bu bağ́lılıqda babası Isa Mugannanın böyük rolu olmusdur. Və Səma ugurlarına görə babasını qibləgahı adlandırır.
Hələ 14 yaşında ilk defe hekayələr toplusu olan"Mələk Səmanın sevdalı dünyası", bir neçə aydan sonra isə ilk povesti "Ģöyərçinin qəribə sevgi hekayəsi" povest kitabı işıq üzü görmüşdü.
Bəli, artıq Səma öz ədəbi mühitində növbəri yazılarına imza atmagın yollarına bələd olur.Ondakı yüksək intellekt imkan verir ki, həm məktəbli olaraq dərslərində də fərqlənir, həm də fəal çalışmaqla yanası ,ədəbi fəaliyyətinə davam edir.
Onu da qeyd etmək yerinə düşərdi ki,15 yaşlı məktəbllinin "Adam və Papatyanın Tanrıyla ģörüşdüyü gün" adlı kitabının işıq üzü görməsi bir çox yazarları heyrətləndirdi …. Və 2022 ci ilin apreli onun həyatında ən yaddaqalan və unudulmaz günlərdən oldu….
Azərbaycan Yaziçılar Birliyinə üzv seçilən 16 yaşlį qız üçün bundan böyük mükafat ola bilərdimi?!
O, ugurlarına iti addımlarla irəliləyirdi….
Ədəbi yaradıcılıgındakı ugurları hamımızı çox sevindirirdi.Onun yazıları "Yazarlar"jurnalında,"Ədəbiyyat" qəzetində və digər mətbu orqanlarında mütəmadi olaraq dərc olunur.
Konya şəhərində yayımlanan "Krımın səsi" qəzetindəki yazıları da oxucuları tərəfindən marawla oxunur.
Gənc yazıçımızın yazılarını Türk dünyası heyranlıqla oxuyur və daim izləyir .
Bu yaxınlarda da Konyada yayımlanan "Krımın səsi" qəzetində "Günəşin qaranlıq Şahzadəsi" adlı povesti də ilk dəfə işıq üzü görməklə davamlı səkildə beynəlxalq səviyyədə novbəti ugurunu qazanmışdı.
Səmanın ədəbi fəaliyyətini dəyərləndirən "Yazarlar" jurnalının redaksiya heyəti onu jurnalın üzvü seçməklə "Ziyadar"

mükafatına layiq görmüşdür.Eyni zamanda "Qürur"ƏM- nin nəzdində fəaliyyət göstərən"Xarıbülbül" Ədəbi Məclisinin üzvlük vəsiqəsi təqdim edilmişdi.
Bu il oktyabrın 6-sında Bakı Şəhər Mədəniyyət Baş Idarəsinin təşkilatçılıgı ilə Səbail rayon MKS- nin Mərkəzi kitabxanasında gənc yazıçımız Səma ilə yaddaqalan növbəti bir görüş keçirildi.Görüşdə Bakı Şəhər Mədəniyyət Baş Idarəsinin Mədəniyyət siyasəti sektorunun müdiri Səbinə Məmmədova, Zəhra Kazımova, yazıçı, şair-publisist, hərbi jurnalist, AYB-nin üzvü, Nazim Əhmədli, şair, yazıçı-publisist, AYB-nin üzvü, "Qızıl Qələm" mükafatı laureatı, Prezident təqaüdçüsü Zaur Ustac, bu sətirlərin müəllifi, gənc yazarın ailə üzvləri, kitabxananın əməkdaşları və digər tanınmıs ziyalılar iştirak etməklə Səmanın yaradıcılıgını yüksək qiymətləndirmişlər.
"Yazarlar" jurnalının baş redaktoru Zaur Ustac yeni təsis olunmuş "Isa Muganna" diplomunu ilk dəfə Səma Mugannaya təqdim etmişdir.
"Xarıbülbül" ƏM- si də yaradıcıılıq ugurlarına görə eyni adlı diplomu yazara təqdim etmişdir.
Səmanın zəngìn dünyagörüşünə malik olması onun gələcəkdə bu potensialdan bacarıqla istifadə èdə bilməsinə zəmin yaradır.
Bu il Bakıdakı 189-190 nömrəli məktəbin XI sinfini bitirəcək Səma təhsilini Incəsənət Institunun kino- rejissorlugu fakultəsində davam etdirmək arzusundadır.
Niyə məhz bu fakultə – deyəndə :
—Əsərlərimin rejissoru özüm olmaq istərdim- dedi.
Arzuna , niyyətinə dogru bu sənət yolunda sənə tükənməz bacarıqlar,yeni- yeni bol ugurlar diləyilə….

**YENGİCƏLİ VÜQAR**
Qəbələnin bu kəndində 1992-ci ilin fevral ayının 20-sində anadan olmuş Vüqar da adicə kənd uşaqlarından biriydi. Lakin, 44 günlük müharibə onu minlərlə, milyonlarla insanlara şücayətinə, igidliyinə, qəhrəmanlığına görə tanıdı və hamının qəlbində, dilində fəxrlə, hörmətlə əbədi qaldı.

**Səmədli Vüqar Vaqif oğlu** 1998-ci ildə Qəbələnin Yengicə kənd məktəbinin 1-ci sinifinə qəbul olunmuş, 2007-ci ildə həmin məktəbdə təhsil alıb.
2010-cu ilin aprelində həqiqi hərbi xidmətə gedib.
Xidmətini Bakı şəhərində “N” saylı hərbi hissədə Sülhməramlı qüvvələrdə edib. 2011-ci ildə oktyabr ayında hərbi xidmətini başa vuran Vüqar ailələrindəki maddi çətinliyə görə Çeçenistanda tikintidə işləməyə getmişdi.

Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olduğunu eşidib, işini ataraq Vətənə qayıtmağı qərara alıb. Bir müddət karantində qalır, Vətənə gələndə artıq Vətən Müharibəsi başlanmışdı. O, oktyabrın birində evə gəlmədən hərbi komissarlığa gedir, könüllü yazılır.

Dörd gündən sonra, yəni oktyabrın 5-ində könüllü olaraq müharibəyə gedir. Bir neçə gün Ağcabədidə “N” saylı hərbi hissədə qalır və daha sonra mən buraya yatmağa yox, döyüşməyə gəlmişəm,- deyərək komandanlığa müraciət edir.

Kəşfiyyatçı kimi bu sıralara qatılır və Zəngilan, Qubadlı, Füzuli, Cəbrayılın düşmənlərdən azad olunmasında fəal iştirak edir. Daha sonra Şuşa uğrunda döyüşlərə qatılır.

2020-ci il noyabr ayının 2-sində Şuşanın Daşaltı kəndi uğrunda gedən ağır döyüşlərdə Şəhid olur. Noyabrın 3-ü, ertəsi gün onu doğulduğu Yengicə kəndində dəfn edirlər.

Şəhid Səmədli Vüqar Vaqif oğlu ölümündən sonra cənab Ali Baş Komandanın sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Cənnətdəki mövludun mübarək, Şəhidim!

**ELİN FƏXRİ ELCAN**

Bildiyimiz kimi **Məmmədov Elcan Zöhrab oğlu** 1989-cu Tərtərdə anadan olub. 1996-cı ildə ailəsinin Bakıya köçməsilə əlaqədar Bakıxanov qəsəbəsindəki 96 nömrəli tam orta məktəbin I sinifinə getmiş, 2007-ci ildə orta məktəbi bitirərək, həmin ildə də Texniki Universitetiə qəbul olunmuşdu. 2010-cu ildə ailə qurmuş, 2011-ci ildə universiteti bitirib, hərbi xidmətə yola düşüb. Xidmətini Cəlilabad rayonunun Göytəpə qəsəbəsində “N” saylı hərbi hissədə başa vurub və Bakıya ailəsinin və valideynlərinin yanına qayıtmışdır.

2013-cü il 2 apreldə qızı Ayan dünyaya gəlib. Ata kimi çox sevinib. Belə ki, 2015-ci ilin 5 iyulunda isə ikinci körpəsi-Ramal dünyaya göz açıb. 2018-ci ildə öz istəyi ilə xüsusi kurs keçərək leytenant rütbəsini alıb, Daşkəsən “N” saylı hərbi hissəsində işə başlayıb. İşlədiyi müddətdə əsgərlərin dərin rəğbətini qazanmışdı. Əsgərləri onun haqqında:-leytenant Məmmədov bizim komandir yox, böyük qardaşımız olub. Gözəl insan idi. Cibindəki son qəpiyini də bizim üçün, ehtiyaclarımızı ödəmək üçün xərcləyərdi.

Hər zaman xatırladırdı ki, nəyə ehtiyacınız olsa, çəkinmədən mənə deyin. Əvəzolunmaz komandir idi. Gülərüz, ürəyi təmiz, çox mehriban, hamının qeydinə qalan bir insan idi.

Paxıllıq nədi bilməzdi. O, həm də gözəl övlad, mehriban ailə başçısı, qayğıkeş ata, sevimli qardaş idi. 2020-ci ilin 8-i apreldə Goranboyun Tapqaraqoyunlu kəndinə təyinatı verildi. General Polad Həşimovun şəhid olduğu ay Elcan həmin döyüşlərdə iştirak etmiş, 2020-ci il 27 sentyabrında 44 günlük Vətən müharibəsi döyüşlərində Talış yüksəkliyi istiqamətində komandiri olduğu taborla bu istiqamətdə hücuma keçdi…

Maxenin dediklərindən:

-Bizdə ruh yüksəkliyi olsun deyə komandir həmişə çox öndə gedirdi, ardımca gəlin:-deyərdi. Döyüş zamanı ayağından yaralandı.

Maxe ona:-yoldaş komandir, Siz yaralısınız, qayıdın.

-Boş şeydir, mən yaralanıb qayıdım, sən yaralıb qayıt, bəs irəli kim getsin?

-Ardımca!-irəli işarəsini verdi. Ön cəbhəni yarıb keçdilər. İkinci cəbhəyə yaxınlaşarkən snayperlə başından vuruldu, şəhadətə qovuşdu.

Döyüş dostları:-Elcan çox gözəl igid idi, kaşkə sağ olaydı. Şəhidliyə ucaldı qəhrəmancasına.

Elcan deyirdi:-Uşaqlar bizimki buracandır, öldü var, döndü yoxdur! O, çox gözəl insan idi. Nə olur olsun, Vətənimiz sağ olsun!

Qəhrəmancasına döyüşdü və tabeçiliyində olanlara örnək oldu! Əsil qəhrəman nümunəsi kimi fəxr edin.
Hücuma keçməzdən əvvəl həyat yoldaşına: -Ömrüm, oğlumla qızıma deyərsən ki, artıq ataları ilə fəxr edə bilərlər!..

Atası Zöhrab Məmmədov 1992-ci ildə I Vətən Müharibəsinin iştirakçısı olub. Elcan həmişə atasına deyərdi:-Sən ala bilməyən torpaqları Allah qoysa mən-oğlun alacağam!!!

Anası Sahilə xanımın dedikləri;

-Mənə deyirdi ki, ana vaxt gələcək səni barmaqla göstərib deyəcəklər…Mayor Elcan Məmmədovun anasıdı! Mənimlə fəxr edəcəksən!

Anası Sahilə xanımın:

-Mən onsuzda da balamla fəxr edirdim:-Həm bir övlad kimi, həm də gözəl bir vətənpərvər insan kimi.

Həyat yoldaşı:-Elcan həmişə mənə deyərdi:-Gülüm,

Gülüm, mən sənin qəhrəmanınam. Mənimlə həmişə fəxr edəcəksən.

Mənim adım gələndə hamı ayağa qalxıb sənə yol verəcək…

Mən yoldaşımla həmişə fəxr edirdim, qürur duyuram-bir insan kimi, bir yoldaş kimi!

Ailəmizdə həmişə söz düşəndə deyirdik: -Elcan tək bizdən yox, neçə illər sonra köməyə ehtiyacı olan əsgərlərdən, insanlardan-evdən yox, eldən getdi.

Elxan ağıllı övlad, qayğıkeş ata idi. Bütün arzularını, xəyallarını Vətənə qurban verdi.

Ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunması uğrunda”, “Laçının azad olunması uğrunda” medalları ilə təltif olunmuşdu.

Bəli, şəhidlərimiz uzun illər həsrətində olduğumuz torpaqlarımızı azad edərək özlərinin yüksək arzularına çataraq Şəhid oldular.

Şəhidlər ölməz, Vətən bölünməz!

Elimizin minlərlə Şəhidindən biri olan Elcanımız barədə qısa da olsa, məlumatları oxucularıma çatdırmağı özümə mənəvi borc bildim.

**KƏMALƏ ABIYEVA**

Kəmalə xanımla "facebook"da uzun müddət yazışır, ədəbi yaradıcılıgını izləyirdim.Lakin görüşməmişdim.Təsadüfən Azərkitabda keçirilən tədbirdə əyani tanişlıgımız oldu…
Bu mülayim təbiətli,mehriban simalı,müsbət auralı,səmimi xanım Kəmalə Abiyeva ilə olan ilk görüşdən elə dogmalaşdıq ki…..
Bir müddətdən sonra hamımızın sevdiyi "Məktəb illəri" "Yagış yaǵır bu şəhərə","Özün günahkarsan","Azərbaycan","Bakı haqqında naǵıl"və b.mahnıların sözləriinin müəllifi olan Kəmalə xanımdan "Şuşa Ili"nəhəsr etdiyi "Torpaq"kitabının təqdimatına dəvət aldım…
Möhtəşəm keçən bu tədbirdə şəhid anaları, qazilər,deputatlar,taninmış ziyalılar,media nümayəndələri də iştirak edirdi.
Həqiqətən,Vətənə olan sevgisini,şəhid analarına olan isti münasibətini gördükcə ona olan sevgim daha da artdı…Və artıq müntəzəm olaraq yazışmalarımız davam etdi,müxtəlif fikir mübadilələri apararaq daha da dogmalaşdıq….
Bu günlərdə ondan yeni dəvət aldıgıma çox sevindim və mənə yaxın olan dostum "C.Novruz"Fondunun əməkdaşı,"Gün.Az az saytının redaktoru Rəsmiyyə Heybətaga qızı ilə birlikdə tədbirə qatıldıq….
Bildiyimiz kimi vaxtilə maestro Niyazinin təşəbbüsü ilə 18 sentyabrda keçirilən "Üzeyir Musiqi Günü"rəsmi olaraq Ümummilli liderimiz Heydər Əliyevin 1995 ci ildən"Üzeyir Musiqi Gününün kecirilməsi haqqında"kı fərmanına əsasən hər il sentyabrın 18 – ində ölkəmizdə "Milli Musiqi Günləri"kecirilir.
Belə ki,2022-ci il Şuşanın 270 illiyinə təsadüf etdiyindən Prezident Ilham Əliyevin sərəncamı ilə bu il" Şuşa ili"elan edilib.
18-26 sentyabrda "Üzeyir Hacıbəyli XIVBeynəlxalq Festivalına start verildi.
Festivala dünyanın müxtəlif ölkələrindən–o cümlədən ABŞ ,Norveç,Almaniya,Türkiyə,Avstriya,Qazaxıstan,Fransa,Yunanıstan,Cənubi Koreya,Tatarıstan,Yaponiya,Gürcüstan,Bolqarıstan ,Rusiya və Macarıstandan solistlər,musiqi kollektivləri dəvət olunmuşlar.Ölkə üzrə müxtəlif şəhərlərdə baş tutacaq Festivalda yerli musiqiçilər,sənət adamları da iştirak etmişlər.
Bir -birindən maraqlı musiqi nömrələri,Üzeyir Hacıbəylinin əsərləri təqdim olunan bu Festival üç böyük proqram üzrə kecirilirdi:

"Festivalın əsas proqramı",
"Üzeyir ənənəsinin sönməyən ulduzları","Üzeyir sənətinin gənclik sədaları".
Festivalın əsas özəlliyi də onun "Şuşa ili"ndə baş tutmasıdır.
Bu günlərdə Mugam Mərkəzində H.Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılıǵı ilə keçirilən tədbirdə istedadlı pianoçu, bəstəkar Pikə xanim Axundova Taliblının "Şuşa ili"nə həsr etdiyi"Qələbədir adın" monotamaşasının premyerası da yer almışdı.(rejissor ElçinMəmmədov,Mirsahib Agazadə)
Pikə xanim bu tamaşanın librettosunu keçən ilin sonundan tanıdıgı, müharibə bitər- bitməz şəhidlər haqqında silsilə yazılar yazan Kəmalə xanima etibar edib ona müraciət etməyi lazım bildi..
Elə Kəmalə xanımın da ürəyində belə bir ideya varmış..
Odur ki,Pikə xanimla olan dogma münasibətin yaranmasından bu tamaşanı səsinə heyran olduqları,çox istedadlı ifaçı,Azərbaycanda yeganə kontratenor beş oktava səsə malik Ilham Nəzərovla birgə hazırlamaq ideyası baş tutmuşdu….
Kəmalə xanımın yaradıcılįgı torpaq ətirli,Vətən ətirlidir:
"Torpaq–Ayaǵın altında qalib ,
Olmayanda məglubsan"-deyən şairəmizin seirlərinə diqqət edək:
"Məgrur səsin azadlıgın sədası,
Şəhidlərin ölməzliyin nidası,
Azərbaycan-Qalibiyyət dünyası
Iǵidliyin sarsılmayan qayası!"və ya:
Sənə də , mənə də anadır igid,
Vətən dediyimiz bu Azərbaycan
Heyf,əvəzinə ölə bilmədim,
Sən anana qurban,nēn sənə qurban"
-Hər qarış torpaqda gəzər nəfəsin
"Haqqını halal et"deməyin deyir
Həkəri çayına qarışan səsin
Haqqımı Vətənə vermişəm "deyir.
Haqqımı qoruyun,tapdalanmasın,
Qoruyun siz Vətən əmanətini
Elə qoruyun ki,canı yanmasın
Qoruyun Şəhidlik səadətimi….
"Qələbədir adın"

monotamaşası"Şuşa","Xarıbülbül","Düşmən","Darıxma","Ana" və "Qələbə" hissələrindən ibarətdir.
Librettonun sözləri ilə musiqini sözlərdə duyan Kəmalə xanım deyir ki,tamaşa üzərində işləyəndə həmin anları təkrar yaşadım.. nəhayət,keçirdiyimiz uzun və gərgin ilin bəhrəsi…..
Bu muzikl bizim səhnə üçün yenidir.Ilk tamaşadır ki,bir neçə partituranı eyni ifaçı- Ilham Nəzərli səsləndirir..Əsər bir neçə səs tembri üçün yazılıb….
Burada fərqli obrazlar-dramatik bariton,lirik bariton,soprano,mezzo soprano və s.üçün partiyalar var.
Bəstəkar bir neçə janra -akademik vokal ifaçılįgı,meyxana,mahnı və başqa janrlar,sözlərlə musiqinin uygunlugunu çox məharətlə işlədiyindən tamaşa mükəmməl alındı….Ana obrazını Yaqut Paşazadə,oǵulu Əli Əsədov,"Xarıbülbülü"Viktoriya Şahmuradova,Azərbaycanın sabahı kimi ,gələcəyin rəmzi kimi Şəhid övladı obrazının partiyasını isə Iham Nəzərovun 7 yaşlı oǵlu Səid Nəzərli səsləndirdi….
Hissələr dəyişdikcə tamaşaçılar Qarabaǵda gedən 44 günlük müharibənin acılarının bir daha canlı şahidi oldular.
Tamaşaya baxarkən ətrafımızda əyləşən qazilərin,deputat və şəhid analarının,tanınmış ziyalıların necə kövrəlib agladıqlàrının da şahidi olduq.Xüsusən ,Pikə xanımın və Ilhamın ifaları içdən gəldiyindən müharibənin bütün anları tamaşaçıları həyəcanlandırırdı…Sanki,Şuşada həmin günləri yaşayırdıq.
Sonda Kəmalə xanıma ,tamaşanın hazırlanıb təqdim olunmasında zəhməti olan hər kəsə yeni yaradıcıq ugurları arzulayaraq unudulmaz kövrək və xoş xatirələrlə onlardan ayrıldıq….
Beləliklə, Kəmalə xanım yeni bir uǵura da imza atdı.Növbəti görüşlərədək….

## ALLAH NƏZƏRDƏN QORUSUN, ADİLƏ NƏZƏR!

Çağdaş poeziyamızın tanınmış siması, filologiya üzrə fəlsəfə doktoru,"Mahmud Kaşğarlı Beynəlxalq Fondunun "San Yarlığı" mükafatçısı, "Kitab Evi" İB-nin sədri, AYB- nin üzvü şair Adilə Nəzərin "Bir ovuc gün işıgı" kitabının möhtəşəm təqdimatına və ad gününə yıgışmışdıq…
Şeirləri türk, ingilis, fars, fransız, rus, qırğız və özbək dillərində tərcümə olunmuşdur:
Od burda, hava burda
torpaq burda,su burda,
Tanrının yolu düşüb
bizdən öncə bu yurda
Qurban dedim bu canı
Ona sevgim əzəldir,
Mənim oldugu üçün
Azərbaycan gözəldir….
Adilə Nəzərin bütün şeirlərində vətən sevgisi, vətəndaşlıq qüruru, mərdlik, təvazökarlıq hissləri və qələbə ilə başa çatan II Qarabag Müharibəsi şəhidlərinə həsr olunmuş mövzuları geniş yer tutur. Şeirlərində dilimizin gözəlliklərini qoruyur, çünki dilimizi qorumaq Vətəni qorumaqdır, bu da əsl vətənpərliyin əsas meyarıdır.
Adilə xanım şəhidlərimizdən Xudayarın, Albert Aqarunovun, general Polad Həşimovun, Atiq İbrahimovun, Camal İsmayılovun, Cəbrayıl Dövlətzadənin və neçə-neçə igidlərimizin xatirəsinə həsr etdiyi şeirlərində ürək yanglsı ilə:
Gözünü yummadın soyuq səngərdə
Gecələr bizin də yuxumuz azdı
Sən ey fateh ogul,sən ey sərkərdə,
Şəninə min dastan yazılsa azdı
Xoşbəxt sabaha ümidlə yaşamagın – deməsi,
Gəlsəm bir gün yalvarsan aglasam…
Göz yaşlarımla yuyulsa illərin kiri, kədəri

Hər şey dəyişsə…
gül çiçəklə sevişsə…
torpaq bərəkətli olsa
hava günəşli,
Həyat sevgi kimi tərtəmiz, agappaq…
gəlsəm bir gün aglasam,
hər şey dəyişərmi, Qarabag?!-
düşüncələri ilə vəsf edir.
Adilə xanım qazilərimizə olan ehtiramını da şeirlərinə köçürür:
Üz-üzə dayanıb mənfur yagıyla
Keçib imtahandan can sınagıyla,
Girdiyi meydandan tək ayagıyla
Çıxan qaziləri salamlayıram.
Gedib babaların şanlı iziylə
Savaşa atılıb bıçaq-nizəylə…
Gözünü itirib,könül gözüylə,
Baxan qaziləri salamlayıram….
Qoymadı zəfərə bizi tamarzı,
O, xan qaziləri salamlayıram….
Adilə Nəzərin “Bir ovuc gün işıgı” kitabı sayca on birinci kitab olsa da, şeirlər toplusu olaraq 8-ci kitabıdır.Şeir nədir?-deyən şairə: “Mən sənin dostlarına yeni bir dost bagışlamaq istədim-bütün kitablarımda, şeir..”-deyir.
Adilə Nəzərin ədəbi – bədii yaradıcılığından saatlarla, günlərlə danışsaq da azdır. Bunu təqdimata toplaşanların da ürək sözlərindən də gördük… Mayın 26-sında AYB -nin Natəvan klubundakı görüşdə Yazıçılar birliyinin katibi, yazıçı- publisist Elçin Hüseynbəyli giriş sözü ilə iştirakçıları salamlayaraq şairənin yaradıcılıgından səmimiyyətlə söz açdı. Tədbiri aparan hörmətli şairimiz Yusif Nəgməkar Atatürk mərkəzinin direktoru-akademik Nizami Cəfərovun ürək sözlərini dinləmək istədiyimizi təklif etdi. Akademik şairənin poetik düşüncələrini incəliklə dinləyicilərə çatdıraraq ad gününü də təbrik etdi. Bəli, sairənin yaradıcılıgından danışmaqla söz bitmir. Bunu çıxış

edənlər –Əsəd Cahangir, yazıçı-tərcüməçi, şairimizin işlədiyi Təhsil İnstitunun professoru Akif Abbasov, ADA Universitetinin professoru Nəriman Qasımzadə, şair- tərcüməçi-professor Xaqani Qayıblı, yazıçı -jurnalist Zenfira Məhərrəmli, yazıçı–publusist İradə Tuncay, Əməkdar İncəsənət Xadimi Gövhər Həsənzadə, yazarlar – Səfər Alışanov, Əlabbas Baglrov, Ayaz Arabaçı, İlqar Türkoğlu, Kəmaləddin Qədim və başqaları bir daha çıxışlarında fəxrlə ürək sözlərini qeyd etdilər…
Rəssamlar-Sehran Allahverdi və Şəmsəddin Böyükdüzlü rəngli boya ilə işlədikləri portretləri Adilə xanıma bagışladılar….
Naxçıvandan, Qəbələdən, Göyçaydan, Neftçaladan və digər yerlərdən də gün işıgına toplaşanlar tədbiri daha maraqlı və ugurlu etdi…
Bəli gördük ki, Adilə Həzərin səmimiyyəti, bir qadın kimi məsumlugu, ədəbi yaradıcılıgındakı dil ustalıgı şeirlərində daim görünür…

Zalımlıgı, fagırlıgı nə imiş
Bəxtin belə sağırlığı nə imiş,
Əlli yaşın agırlıgı nə imiş,
Söz yükünü çəkə bilən adama…..

və ya:

Qarışdırma ayaqları başlara,
Çox dəyibdi başın daşdan – daşlara
Ay Adilə, sən də qoşul quşlara,
Qoşul, ürək vaxtı- könül vaxtıdır..

İstedadlı alim və gözəl şairəmiz sizə bol, tükənməyən yaradıcılıq ugurları, möhkəm can saglıgı arzulamaqla bir ovuc gün işıgında dünya boyda xoşbəxtlik arzulayıram. Dərin hörmət və ehtiramla.

**Bu, Zaur Mustafa oğlu Mustafayevdir…**
*(Zaur Ustacın yaradıcılığı və “BB” kitabı haqqında)*
Zaur Ustac imzası hələ 1988- ci ildən hamıya məlumdur. İlk dəfə ”Əməyə məhəbbət” adlı yazısı həmin dövrdə çıxan “Lenin yolu” qəzetində dərc olunmuşdur. Müxtəlif mətbu orqanlarında –”Azad qələm″, “Ədalət”, ”Təzadlar”, ”Haqqın səsi”, ”Həftə içi”, ”Kredo”, ”Bütöv Azərbaycan”, ”525-ci qəzet″, ”Olaylar″, ”Ədəbiyyat qəzeti” qəzetlərində, eləcə də ”Yazarlar”, ”Xəzan” və digər jurnallarda dərc olunmuş şeirlərinin, publisistik yazılarının oxucusu olmuşuq…
Eyni zamanda ”Yazarlar” jurnalının təsisçisi və baş redaktoru kimi son illər jurnalın müntəzəm çapına nail olmaqla geniş oxucu kütləsinin sevgisini qazanmışdır.
Zaur Ustac jurnalın nəşrini ”Tərəfsiz ədəbiyyat tarixdir” layihəsi çərçivəsində ödənişsiz əsaslarla təşkil etmişdir.
2007- ci ildən 2021 ci live ilədək fasilələrlə buraxılan jurnal 2021-ci ildən dövri olaraq çıxır.
Zaur Ustacın ədəbi-bədii, elmi yaradıcılığına nəzər salsaq görərik ki, yazılarında hansı sahəyə müraciət edirsə, o sahənin bilicisi kimi özünü təqdim etməyi bacarır. O, jurnalın təsis etdiyi müxtəlif diplomlar, fəxri fərmanlar yeni yazılmış kitabların müəlliflərinə, uğurları ilə fərqlənən ziyalılara, şəhid analarına təqdim etməklə, onların əməyinə dəyər verərək qiymətləndirməyi də zəruri hesab edir. Eyni zamanda vaxtaşırı mükafatçıların siyahısını da jurnalda dərc olunmasını vacib bilir.
Bu yazıda Ustac yaradıcılığının son məhsullarıdan olan hekayələri haqqında söhbət açmağı lazım bildik.
Yeri gəlmişkən, onun həyat səhifəsinə nəzər salsaq görərik ki, istefada olan zabit olsa da pedaqoji sahədən, məktəbəqədər və ibtidai təhsildən, maraqlı psixoloji məsələlərdən həmin sahələr üzrə əsl mütəxəssis kimi maraqlı araşdırma və təhlil yazıları təqdim edir. Əlbəttə, bu məsələlər lapdan həll olunmaz. Onun üçün həmin sahələri mükəmməl dərk etmək, öyrənmək, zəhmət çəkib hər bir

əziyyətin öhdəsindən gəlmək bacarığını üzə çıxarmağın özü də bir ustalıqdlr.
Bütün bu keyfiyyərlər onun yaradıcılıq potensialının, zəngin intellektual səviyyəsinin yüksək olmasının təzahürüdür. O, təmiz, saf qəlbli, doğru və dürüstlülüyü ilə fərqlənən fədakar tərcüməçi, yazıçı-publisist, naşir, şair, dövrünün yüksək mənəvi keyfiyyətlərinə malik olan ziyalı bir şəxsiyyətdir.
Onun “BB” kitabında toplanmış hekayələrə nəzər salsaq görərik ki, ümumiyyətlə, həyatdan götürülmüş faktlara əsasən qələmə alınıb. Belə ki, dövrünə görə Bəy Balanın savadsızlığı, əqli səviyyəsini, gördüyü işləri böyük həvəslə danışması olduğu kimi verilmişdi.
Bəy Balanın heç bir sahədə qərar tuta bilməməsi, atasının isə onu gah ”raykom katibi”, gah da ”məktəb direktoru” qoymaq fikirləri, cəhdləri ilə razılaşmaması bir tərəfdən onun üzdə lovğalansa da ”vəzifələrin” onluq olmadığını bilərəkdən bunlardan imtina edir. Atasının timsalında istənilən vəzifəni pulla almağın mümkünlüyü verilsə də, Bəy Bala ali təhsil diplomu alsa belə bacarıqsızlığını bildiyindən heç bir yerdə işin öhdəsindən gələ də bilməzdi. Onun fikri-zikri alver etmək və çox pul qazanmağın yollarını öyrənmək idi. Buna görə də müxtəlif vasitələrə əl atır…
Yazıçı Zaur Ustac bunları tam çılpaqlıgı ilə qələmə almaqla Bəy Balanın təhsilə necə münasibət bəslədiyindən yazır. Bəy Bala təhsilin dəyərini qiymətləndirə bilmir, çünki, atası onu altımış minə ADU-,nun tarix fakultəsinə qəbul etdirmiş, ”bir torba alçaya” qiymətlərini yazdıraraq ali məktəbi bitirtdirmişdi.
Lakin ali təhsillin olmasına baxmayaraq o, həyatda özünə məxsus yer axtarmağa çalışır, amma ixtisasına uyğun işləməyə marağı yoxdur.
Yazıçı bu məqamı verməklə valideynlərin uşaqlarının marağına uygun ixtisas seçiminə sərbəstlik verməməsinə işarə edir.
Bəy Balanın alverə, biznesə marağını və bu sahədə uğura nail ola bilməsi üçün hər yerə baş vurmasını, nəhayət, özünə ”layiqli” yerini

”tapmasını”da yazaraq bu sahənin cəmiyyət üçün o qədər də faydalı olmadığını, yazının adını ”Böyük Bədbəxt” qoyulmasını istəyən Bəy Balanın sözləri ilə ustalıqla oxucuya çatdırır.
Eyni zamanda belələri haqda ”tərifli” yazılar yazan “200 manatı” qəbul edənləri də bir növ tanıdır.
Zaur Ustacın ədəbi yaradıcılığı maraqlıdır, bezdirici deyil, belə ki, onun mövzu seçimi də fərqlidir. Unudulmuş nəzərdə olmayan məsələləri gündəmə gətirərək sosial məsələləri ictimai maraqla, mənəvi maraqları müəyyən etməyi çox ustalıqla qələmə alan istedadlı yazar kimi geniş ictimaiyyət tərəfindən qəbul olunan- Ustacdır:
”Susuz quyuya su tökməklə sulanmaz”,
Gic doğulan, gic böyüyər, gic ölər…
Ər oğuldan, ər törəyər, mərd olar,
Soysuz doğsa , bic yetirər, bic bələr….
Ustac, iki doqquz, edər on səkkiz,
Arif bu sinindən səhv etməz hərgiz
Qanmazsa, qovalar, teylər dörd doqquz,
Qırxda qurşaq tutar, boşa güc eylər….
Və ya. :
İstədim deyəm ki, olasan agah,
Mat qaldım bu işə özüm də Billah,
Ustacın işləri Vallahi dəsgah,
Qan-tər içrə buza batır nədəndi?!-deyir.
Zaur Ustac pula, var-dövlətə həris olanları, şöhrət üçün qaçıb dostluq edənləri tərbiyə etmək üçün belələrinin iç üzünü təhlil edir və oxucularına öz daxili aləmini təqdim edir:
Səndən istəmirəm nə şöhrət, nə şan,
Səndən istəmirəm beş günlük ad- san.
Var dövlət, saraylar deyil şakərim,
Öz əlim, ayağım olsun nökərim…
Niyyətim bəllidir, istəyim dəqiq,

Ustac heç istəməz nə altun, əqiq…
Mustafa oğlunun istəyi təkdir,
Zaurun arzusu dəqiqdir, yekdir…
Elmin qapıların üzümüzə aç,
O güllü bağçandan bir az ətir saç.
Ruhumuz məst olsun, olsa da anlıq,
Dili tərk etməsin bir an şükranlıq…

Zaur Ustacın “Qırmızı yarpaqlı ağac” hekayəsi də maraqlı, oxunaqlı ideya xətti ilə əsas fikri əlil hərbiçiyə yönəldir.

Şaxtalı qışın görüşünə hazırlaşan ağacla sükutla qarşılaşıb kədərlə ayrılmaq!…

“Generalın ölümü” povesti ilə eyniləşdirmək, zabit peşəsi haqda ”ömür boyu çalışıb nə vaxtsa güllənin görüşünə” eynən amansız qarlı qışın görüşünə hazırlaşan bu ağac kimi…

O, qeyd edib ki, uşaq ana bətnində olandan, sonra da uşaq arabasından başlayaraq əlil arabasına qədər bütün həyatı boyu bu bağda olur və hər şeyi bu bağda öyrənir. Bu bağ sanki, həyat akademiyasıdır. Burada bitən ağaclar da payızda yarpaqlarının rəngini dəyişir…

” Sarı yarpaq gör nə gözəl
Kimə güldür kimə xəzəl” misraları uca boylu qırmızı yarpaqlı agacı payızla qışın görüşünə hazırlaşan agacla dərdləşir, sükut və kədərlə ayrılır.

Bu hekayədə məqsəd bəzi qazilərə olan münasibəti qabardaraq oxucuya çatdırmaq, hərbiçilərə diqqətsiz yanaşılması, ”işçi” sözüylə polkovnik rütbəsində olan adamın eyniləşdirilməsi, qazi ilə ”əlil” sözlərinin fərqləri düzgün anlamda dərk etməyi nəzərdə tutur.

Qırmızı yarpaqlı uca boylu ağacın ətrafındakı düşüncələrini –yəni agac da qırmızı yarpaqlarla bəzənib-düzənib qışın gəlişini qarşılayır… Qazi nə qədər özünü sındırmasa da qışını gözləməsinin vacibliyini eyniləşdirir.

Digər tərəfdə insanlığın millətindən asılı olmayaraq ən yüksəkdə

oldugunu—rus əsilli qonşunun qaziyə göstərdiyi qaygının, diqqətin sayəsində real şəkildə göstərilir.
Yəni qazinin bəlkə də hər hansı bir qohumu da olsaydı belə ona qonşusu kimi himayədarlıq etməzdi, bezərdi. Amma sarışının qaygısı, dostuna etimadı, ona sadiq olduğunu əks etdirir.
Hekayəyə bu başlığın verilməsi ilə bağda qeyri adiliyi ilə seçilən ağacın olması burada cərəyan edən hadisələrin qeyri-adiliyinə bir növ bənzədilərək müəllifi içəridən narahat edən məsələləri üzə çıxarmaq kimi düşünmək olar.
Elə başlanğıcda da göründüyü kimi bu fikir əsasında hadisələrin gedişi belə göstərilir: — Uca boylu qırmızı yarpaqlı ağacdan aralanıb qazi ilə olan görüş və söhbəti eyniləşdirərək əsas ideyasını çatdırmaqla daxili düşüncələrini ortaya qoyan yazar, daha yeni bir uğurlu hekayəsini oxucusuna təqdim edir…
Eynilə "Psixoloqun qəbulunda" da qazi ilə psixoloq arasında müəyyən məsələlər təhlil edillir…
Zaur Ustacın bütün əbəbi yaradıcılığı oxunaqlı olmaqla geniş oxucu kütləsini cəlb edir, düşündürür.
Lakin, qeyd etdiyim kimi onun uşaqlar üçün yazdığı şeirlər, məqalələr, yazılar da onun bu sahədə də geniş məlumatı olduğunu aşkara çıxarır.
Ümumiyyətlə, hərtərəfli zəngin həyat təcrübəsi, savadı (bir neçə təhsil ocagının tələbəsi olması), geniş, hərtərəfli dünyagörüşü, fərdi xüsusiyyətləri onu digər yazarlardan fərqləndirir.
Yazıçı-şair, publisist, yaradıcı ziyalımıza yeni-yeni ugurlar və can saglıgı arzulayıram.

**PARLAYAN ULDUZ….**

Məşhur tarzən Qurban Primovun nəslindən olan Aqil Primovla İlhamə xanımın ailəsində 2004 cü ilin21 oktyabrında bir oglu oldu.

Adını Asim qoydular..

O Asim ki,özləri də hiss etmədən gələcəkdə nəslin layiqli davamçısı oldu.!

Elə uşaqlıq illərindən Asimdə tara maraq oyanmışdı.Bu, əlbəttə gen ilə baglı olan bir iş idi….

Valideynləri,xüsusən də gələcəkdə daim onunla birlikdə olan anası İlhamə xanım oglunun maragını nəzərə alaraq 6 yaşlı Asimi–nəslin davamçısını təhsil almaq üçün K.Səfərəliyeva adına 16 saylı musiqi məktəbinə gətirdi.Məqsədi aydın idi:ulu babaları Qurban Primovun sənətini davam etdirmək!

Asim burada 4 illik təhsilini ugurla bitirdikdən sonra Bülbül adına Orta İxtisas Musiqi məktəbinə daxil oldu…

Burada oxudugu illər ərzində bir çox ugurlara imza atdı..Məktəb konsertlərində,Dövlət tədbirlərində,radio-televiziya kanallarında maraqlı proqramlarla çıxışları oldu. Eyni zamanda artıq xarici ölkə müsabiqələrinə də qatılan Asim I yeri tutaraq qızıl medal,laureat,diplomant adına da layiq görüldü.

Bəli,ugurlar sonsuz idi!Və bu ugurlardan ruhlanan Asim daha çox çalışır,qələbələrini yeniləyirdi…

Budur,qardaş Türkiyədə keçirilən uluslararası Caspi Art müsabiqəsinə qatılan Asim I yerin qalibi olur,qızıl medalla təltif edilir,həm də laureat adına layiq görülür…

.2019 – cu ildə Moskvada yaşayan həmyerlilərimiz Xalidə xanım və İlqar bəy Səmədovların tərəfindən Moskvanın Veqas Ticarət Mərkəzində keçirilən Qarabag Atlarının Rəsm sərginə qarabaglı kimi dəvər almış,Qarabag Şirkətlərinin sədaları altında sərginin açılışında iştirak etmişdi…

Azərbaycanda keçirilən Qara Qarayev adına 3-cü Beynəlxalq müsabiqəsində maraqlı ifası ilə. İİİ yerə,italyanların Azərbaycanda keçirtdikləri Festenc Art müsabiqəsində II yerə

layiq görülmüşdür.
2020 -ci il onun üçün daha ugurlu olmuşdur…
O, Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirib,Azərbaycan Milli Konservatoriyasına müvəffəqiyyətlə imtahan verfək. ali məktəbə qəbul olundu…
Dostlarından fərqləndiyinə görə onun ugurlarının inkişafını daim izləmişik.
2020 ci ildə o, sinif yoldaşları ilə “Gənc İstedadlar Qrupu”yaratdı.
Azərbaycan Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalareyasının “Parlaq Yaradıcı” İctimai Birliyinin təşkillatçılıgı ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 8 Mart Beynəlxalq Qadınlar Günü” nə həsr olunmuş “Harmoniya”adlı Qrup sərgisində iştirak edərək Fəxri Diplomla təltif olundu..O,
Azərbaycan Dövlət Uşaq Filarmoniyasının Xalq Çalgı Alətləri Orkestrinin üzvüdür.
Eyni zamanda Bakı şəhər”Asan xidmət”Mərkəzinin nümayəndəsi olmaqla bir çox layihələrdə iştirak edir.
“Asan könüllülər” təşkilatı ilə bir çox tədbirlərdə– DTX Mədəniyyət Mərkəzi,Beynəlxalq Mugam Mərkəzi,Bakı Konqres Mərkəzi və b.kimi bir çox səhnələrdə çalışır ki,ulu babası Qurban Primovun sənətini layiqincə daşısın …
Bütün tədbirlərdə anası İlhamə xanımla iştirak etdiyinin şahidi olmuşuq…Ilhamə xanım evdar qadın olsa da,artıq tarın sirrlərinə qismən də olsa bələddir…Əsla Agdam rayonunun Gülabli kəndindən olan, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyəti ,Xəzər Dəniz Neft Donanmasında (AXDG QSC. XDMD)çalışan atası Aqil Primov da oglunun ugurlarına çox sevinir və onun ifalarından xüsusi olaraq mənəvi zövq alır…
Mugam Mərkəzində keçirilən müsabiqəyə bizi də dəvət etmişdi Asim…
Konsertə mugam sahəsində tanınmış xanəndə Yaqub

Məmmədovun qızı Hekayə xanımla qatıldıq.Həqiqətən Asimin ifası fərdi istedadı ilə yaşıdlarından fərqlənirdi…
Ali Baş Komandanlmızın və Müzəffər Ordumuzun qələbəsindən sonra onun Şuşada,Agdamda…..ifa etdiyi Bəli,bu istedad onun genindən irəli gəlir.
Asim bu yola çıxandan məqsədinə dogru irəliləyir,çünki,qarşıda onu hələ uca zirvələr,daha yüksək,yeni – yeni yaradıcılıq ugurları gözləyir.
Bu sənətin parlaq ulduzlarından birinin-**Asim Primov**un ugurlu nəticələrinin şahidi olmaq ümidilə….əsərlər dinləyiciləri çox kövrəltmişdi…

**QƏRARGAH RƏİSİ - ƏSƏD**

İkinciQarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan i gidlərimizdən biri də Əsəd oldu. O, Əsəd ki, bütün varlığı ilə vətəninə bağlı idi .

Bütün şəhidlərimiz kimi o,
da öz evinə qayıtmaqdan əvvəl cənnəti seçdi.

Həsənov Əsəd Fərhad oğlu 16 aprel 1988-ci ildə
İmişli rayonunun Şahverdili kəndində anadan olmuşdur.

1995-ci ildə Şahverdili kənd orta məktəbinin 1-
ci sinifinə qəbul olunmuş, 2003-cü ildə həmin məktəbin 8-
ci sinifini bitirib
sənədlərini C.Naxçıvanski adına hərbi liseyə
verərək oraya qəbul olunmuşdu. 2006-cı ildə
həmin liseyi bitirib Heydər Əliyev adına Ali Hərbi
Məktəbə qəbul olunmuş və 2010-cu ildə oranı bitirmişdi.

Bir il təcrübə keçərək ona zabit sertifikatı və leyte nant rütbəsi verilmişdir.

2011-ci
ildə təyinatla Naxçıvan Muxtar Respublikasının N saylı h ərbi hissəsinə göndərilmişdir. Üç il orada xidmət etmiş və baş leytenant rütbəsi almışdır.

2014-cü ildə
Bakı şəhərində N saylı hərbi hissəyə batareya komandir v əzifəsinə göndərilir.

2017-ci ildə ona kapitan rütbəsi verilir. Ard-arda müxtəlif rayonlarda müxtəlif vəzifələrdə xidmət edir.

2020-ci ilin iyun ayında Ağdam rayonundakı N saylı hərbi hissəyə qərargah rəisi vəzifəsinə göndərilir. 2020-ci ilin 27 sentyabrında başlamış 2-ci Qarabağ müharibəsində Ağdamın müdafiəsi uğrunda gedən qızğın döyüşlərdə okty abrın birində düşmən snayperinə tuş gələrək, qəhrəmancasına şəhid olmuşdur.

Vətənə Mələk və Hüseyn adlı iki övladı əmanət olaraq qalmışdır.

Şəhid qərargah rəisi kapitan Əsəd Həsənov hərbi xidmətinə görə sağlığında "Azərbaycan Respublikasının 95 illiyi", " Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə 3-cü dərəcəli medal"ı ilə təltif olunmuşdur.

Şəhadətindən sonra isə "Vətən uğrunda", "İgidliyə görə", "Ağdamın azad olunmasına görə" medalları və "Rəşadət ordeni ilə təltif olunmuşdur. Anası Mələk xanımı şeirlərində öz dərin kədərini belə bildirir.

Balama deməyin, dərdli biriyəm,

Baxmayın canlıyam, diri kimiyəm.

Mən yaşasamda ölü kimiyəm,

Basımı qoymağa məzarım yoxdu.

Gəzdiyin yerlərdə izlərin qalıb,

Baxdığın hər şeydə gözlərin qalıb.

Mən necə dözürəm, vallah bilmirəm,

Sənə deyiləcək sözlərim qalıb.

Qaranlıq gecələrin yolçusuyam mən,

Yüyürürəm tikanların üstündə.

Bir ümidin, bir həsrətin ovçusuyam mən,

Yeriyirəm tikanların üstündə.

Bala adlı yaman dərdə düşmüşəm,

Yaşadığım bu dünyadan küsmüşəm.

Aldadıram hər gün özüm, özümü,

Eşidən yox, fəryadımı, sözümü.

Mən doymadım balamın gül ətrindən,

Torpaq aldı onu mənim əlimdən.

Bir quş kimi elimdən,

Oğul sözü heç düşmür ki, dilimdən.

Gəldi yenə çərşənbə,

Balalarım gəlmədi.

Neyləyərəm bayramı ki,

Ürəyimiz gülmədi.

Hanı mənim Əsədim?

Hanı igid Səbuhim?

Hanı mənim Rəşidim?

Hanı körpə Ülvinim?

Hanı Sənanım mənim?

Heç görmürəm Sübhanı?

Hanı Azadım, Eldarım?

Hanı Vüsalım?

Orucum da gəlmədi,

Yasəfim  də gəlmədi.

Ağladı anaların,

Gözləri heç  gülmədi.

Sən  getdik qəlbimin  sevinci getdi,

Sən getdin həyatım səninlə bitdi.

Sən getdin ömrümə  gəldi qış,  boran,

Dünyanın  dəyəri gözümdə  itdi…

## AĞDAMIN QƏHRƏMAN ÖVLADLARI

*(Allahverdi Teymur oğlu Bağırov haqqında)*

Altı min şəhidi olan Ağdamın qaziləri, qəhrəmanları da təbii olaraq bu saya mütənasibdir. Azərbaycanın hələ ötən əsrin səksəninci illərin sonlarından məlum münaqişəyə cəlb olunduqdan sonra Ağdam daim baş verənlərin mərkəzində olduğuna görə daim hadisələr burada sürətlə cərəyan edir, vəziyyət tez-tez dəyişirdi. Bütün bunların fonunda isə Ağdamın qorxmaz, sözübütöv mərd oğulları sözün əsl mənasında yurdsevər qəhrəmanlar kimi tanınmağa başladılar. Hələ şiddətli döyüşlərin getdiyi doxsanıncı illərdə Şirin Mirzəyev, Allahverdi Bağırov, Asif Məhərrəmov (Fred Asif), İxtiyar Qasımov, Natiq Əhmədov, Rövşən Hüseynov kimi ölümündən sonra Milli Qəhrəman adını almış onlarla igid Azərbaycanın ilk Milli Qəhrəmanlarının sırasında idi. Bu yazımda Ağdamın belə qəhrəman övladlarından biri olan Azərbaycanın Milli Qəhrəmanı Şəhid Allahverdi Bağırov haqqında söhbət açacam.

## ALLAHVERDİ BAĞIROV HAQQINDA

Allahverdi Teymur oğlu Bağırov 1946-cı il aprel ayının 22-də Ağdamda anadan olub. Yeddi qız övladından sonra dünyaya gəlmişdi və buna görə də ailəsi Allahın payı sanıb adını Allahverdi qoymuşdular. Bu ad həmdə onun babasının (anası tərəfdən) adıdır.
O, gənc yaşlarından çox cəsarətli, qorxmaz, sözübütöv və haqsızlığa dözməyən adam idi. Ona görə də davakar kimi tanınırdı. Hətta müəllim də bir şagirdin haqqını tapdalayırdısa, ona etirazını bildirirdi.Sinif rəhbəri və dil-ədəbiyyat müəllimi Qənirə Məmmədova da onunla qürrələnirdi.Məmmədova hər yerdə fəxrlə deyirdi ki, "mən Allahverdinin oxuduğu sinfin rəhbəriyəm". Orta təhsilini Ağdam şəhər 1 saylı məktəbdə alıb. Onda həmçinin gənc yaşlarından böyük təşkilatçılıq istedadı vardı. Hamını başına yığmağı bacarırdı.
Kiçik yaşlarından idmana, xüsusəndə futbola, yüngül atletika

və voleybola böyük həvəsi olub.Məktəb illərində və sonrakı vaxtlarda idmanın müxtəlif növlərində keçirilən yarışlarda Ağdamın qələbə qazanmasında rolu olub. O, həm də, Ağdamın “Qarabağ” futbol klubunun şərəfini qorumuşdur.
1970-ci ildə Füzulidə “Qizil sünbül” kubokunda Ağdam – Cəbrayıl oynunda kapitan olmuşdur.
1976-cı ildə klubun baş məşqçisi təyin olmuş və həmin ildə keçirilmiş Ümümittifaq birinciliyində Azərbaycanın dördüncü yer tutmasında böyük səyi olub. Keçmiş futbolçu Müşfiq Hüseynov Allahverdi Bağırov haqqında bunu demişdir:
“İlk məşqçim, rəhmətlik milli qəhrəman Allahverdi Bağırov olub. Allahverdi müəllim futboldan öncə bizə dürüst olmağı öyrətmişdi. Bizə həyata müstəqil olaraq atılmağımızda rəhmətliyin böyük əməyi olub. Həqiqətən də O, futbolçulara gözəl bir örnək idi.”
1991-ci ildə “Qarabağ” və “Neftçi” veteranları arasında keçirilən oyunda iştirak etmişdir. 1:1 başa çatan qarşılaşmada Ağdam klubunun qoluna uzun Allahverdi Bağırov imza atıb. Bağırov Ağdam əhalisi tərəfindən göstərilən maddi yardım və öz şəxsi vəsaiti ilə Qarabağ kəndlərində yaradılmış kiçik özünü müdafiə dəstələrinə yaxından köməklik edib. Ağdam rayonu ərazisində gedən bütün döyüşlərdə mərdliklə vuruşub. Müharibə zamanı Ağdam Xalq Cəbhəsinin sədri seçilmişdir. Müstəqil Azərbaycanın bayrağını ilk dəfə Ağdama Allahverdi Bağırov sancmışdı.
1988-ci ildə Ağdamda ilk müdafiə dəstələrinin formalaşmasında böyük rolu olmuşdur.Həmin ildə dövlətin xəbəri olmadan Əsgəranla Ağdam arasında keşikçi postu yaradılanda ora könüllü olaraq ilk dəfə gedən onun qardaşı Eldar Bağırov oldu, sonra ermənilərlə həmsərhəd bütün kəndlərdə postlar yaradırdı.
1991-ci ilin 1 oktyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin Ağdamdakı hərbi hissələrin onun və qardaşı Eldar Bağırovun komandirliyi altında yaradıldı. Eldar Bağırovun rəhbərlik etdiyi

hərbi hissə 845 nömrəli Ağdam Ərazi Özünümüdafiə taboru idi. 760 nəfərlik olan batalyon “Vətən oğulları” adlanırdı. Həmin ildə onun qardaşı Eldar, Bakıda olan Ali Sovetin iclasından qayıdarkən, yaşadığı evin qarşısında müəmmalı şəkildə qətlə yetirilmişdir. Qardaşı Eldarın ölümündən sonra Bağırov saqqal saxlayırdı və batalyona rəhbərlik etmişdir.
1991-ci ilin avqust ayında Allahverdi Bağırov Rəhim Qazıyevın müdafiəsinə qalxaraq uşaqlıq dostu Cəfər İmaməliyevlə savaş həddinə gəldilər. Cəfərin açdığı atəş nəticəsində Bağırov ayağından yaralandı.
1992-ci ilin yanvarında Allahverdi Bağırovun komandirlik etdiyi tabor Naxçıvanlı kəndində işğalçıların bütün canlı qüvvəsi və texnikası darmadağın edilmiş, 150 döyüşçü ilə Əsgəran qalasına qədər irəliləmiş, Pircamal kəndindəki bütün yüksəkliklər tutulmuş, Kətük kəndi ilə üzbəüz mövqe qurulmuşdu. Bu əməliyyatın başa çatması və erməni bayraqlarını Azərbaycan bayraqları ilə əvəz etmək üçün Allahverdi Bağırovun döyüşçülərinə cəmi iki saat lazım olmuşdur. Bu əməliyyat görə Allahverdi Bağırov “General Məhəmməd Əsədov” adına mükafata layiq görülmüşdür. 2015-ci ildə Qarabağ qazisi Bakir Behbudovun verdiyi müsahibədən: Allahverdi Bağırov yeganə komandir idi ki, qabaqda gedirdi. O, çox ciddi, tələbkar adam idi. Bir dəfə kəndi alanda dedi ki, birdən kimsə kənddə əhalini qarət edə, doğma oğlum da olsa, güllələyəcəm. Biz oğurluğa getmirik, torpaq almağa gedirik.
1992-ci il mayın 3-də ermənilər Bağırova məlumat vermişdilər ki, ayın 8-də Şuşa işğal olunacaq. O da həmin məlumatı bizim bütün dövlət qurumlarına çatdırmışdır. Həmin ay Bağırov qərargaha beş əsgəri çağırtdırıb birlikdə plan hazırlamağa başladı.
Allahverdi Bağırovun ən böyük hərbi uğuru 1992-ci il 12 iyun Aranzəmin döyüşündə olmuşdur. Aranzəmin kəndi üzrə döyüşlərdə o 100 erməni məhv olunmuş və 10 düşmən əsir götürülmüşdür.

O, Xocalı soyqırımı zamanı həlak olanların meyidlərinin döyüş meydanından çıxarılmasında və azərbaycanlı əsirlərin erməni işğalçı əsgərlərin meyidləri və əsirləri ilə dəyişdirilərək azad edilməsində böyük xidməti olub. Həmin əməliyyatlar keçirilən zaman Ağdam rayonu 300 nəfər şəhid vermişdi. Bağırov erməni polkovnik Vitali Balasanyan vasitəsilə üç gün ərzində 1003 Xocalı əsirini ermənilərin əlindən xilas etmişdir. Bağırov erməni əsirləri avtobusla gətirib, sahiblərinə təhvil verdi. O, cəsədləri Ağdam məscidində, kəfənə tutdurub torpağa tapşırırdı, Ağdamın Qarağacı qəbiristanlığında Azərbaycan əsirləri təhvil aldı.
Səkkiz günlük erməni əsirliyində işgəncələrə məruz qalan Hüseynağa Aydın oğlu Quliyev:
“Məni əsirlikdən qurtarmaq üçün Ağdam döyüşlərində əsir düşmüş Suriyadan olan erməni ilə dəyişməli idilər. Belə də oldu. Ermənilər Milli Qəhrəman Allahverdi Bağırova pul təklif etmişdi ki, həmin Suriya ermənisini qaytarsın. Amma yeri behişt olsun, rəhmətlik Allahverdi kişilik göstərib ermənini pula deyil, mənə dəyişdi. Anamı da buraxmışdılar.”
Məhz Allahverdi Bağırovun Vitali Balasanyanla apardığı danışıqlar nəticəsində hərbi operator Seyidağa Mövsümlü və Çingiz Mustafayevin Xocalı hadisələrinin görüntülərini lentə alması mümkün olmuşdu.
Bağırov Xocalı faciəsindən həddindən artıq sarsılmışdı. Xocalı qadınlarını və qızlarını görəndən sonra özünə gələ bilmirdi. Xüsusən də 9 yaşlı qız uşaqının vəhşicəsinə ölümü ona pis təsir etmişdir.
2015-ci ildə telejurnalist Nadejda İsmayılovanın verdiyi müsahibədən:
“Onun üzündəki solmuş təbəssümü, yorğun sifətini unuda bilmirəm. Mənə elə gəlirdi ki, bu güclü, cüssəli oğlan gözlərimin qarşısında bu dəqiqə səndərləyib yıxılacaq. Heç kim bilmirdi ki, o nə zaman yatır. Ümumiyyətlə yatırmı? Mən çəkiliş qrupumuzun rejissoru Namiq Şirəlibəyov və operator

İzzət Əzizovla çəkilişləri səhər o başdan başlayırdıq, eşidirdik ki, Allahverdi artıq hardasa insanların köməyinə çatır, üzərinə düşən hansısa əməliyyatı yerinə yetirir. Gah ermənilərlə danışıqlarda olurdu, gah meyit dəyişirdi, gah da ağlayıb-sızlayan ana-bacıların ətrafında onlara ürək-dirək verir, saçlarını tumarlayırdı. Qəfildən gedib postları yoxlayırdı, Ağdamı qoruyan uşaqların ayıq-sayıq olmaları üçün tapşırıqlar verirdi. Bir də görürdün ki, əlinə bir dəfə də tüfəng götürməyən müdafiəçiləri silahla davranmağı öyrədir. Allahverdi Əsgərəna – döyüşlərin ən qızğın mərkəzinə gedib oradan ermənilərdən ya ölümüzü, ya dirimizi alıb gətirirdi. Bu erməni silahlı əsgərləri ilə qarşılaşmanın hər dəqiqəsində ölüm var idi.
Allahverdi Bağırovun məzarı.
1992-ci ilin 14 iyunda təcili iş üçün geri, Ağdama çağrılan Allahverdi Bağırovun olduğu maşın Naxçıvanlı kəndindən geri qayıdarkən minaya düşdü. Maşında olan digər üç nəgər sağ qalsa da, Allahverdi Bağırov sürücüsü və Nizami həkimlə ilə birlikdə şəhid olmuşdur. Tankist Sevil Abbasovanın sözlərinə görə onu “ancaq sənədlərindən tanıya bildik.”
Bağırov həlak olanda Bakıdakı Şəhidlər Xiyabanında ona qəbir qazılmışdı. Lakin müəyyən səbəblərə görə qardaşı Eldar Bağırovun yanında — Ağdam rayon Şəhidlər xiyabanında dəfn edilmişdir. Allahverdi Bağırov üçün qazılan qəbirdə isə ondan bir gün sonra həlak olan Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev dəfn edilmişdir.
2014-ci ildə futbolçu Elşad Xudadatovun verdiyi müsahibədən:
” Allahverdi Bağırov döyüşdə həlak olanda hamımızı ağlamaq tutmuşdu. Oyunların birinin start fitindən sonra onun ruhunu bir dəqiqəlik sükutla yad edərkən “qrad” atdılar. Mərmi stadiona düşdü. İnanın, futbolçulardan heç biri yerindən tərpənmədi…

Hamının gözlədiyi o gün yetişdi. Şanlı ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək, ərazi bütövlüyümüzü bərpa etdi. Bu gün Allahverdi Bağırovun övladları onun məzarını ziyarət edə bilirlər.

Yaxın gələcəkdə bizi daha möhtəşəm qələbələr gözləyir. Biz buna əminik!

## AĞDAM

Lap uşaqlıqdan Ağdam eşidəndə, o an xəyalımda hündür sütunlu ağ evlər canlanırdı… Bu hündür, geniş, işıqlı, dümağ bərq vuran büllur sarayların oxşarlarını real həyatda görmədiyimdən o vaxtlar yəqin ki, hind filimlərində gördüyüm səhnələrə əsasən belə qeyri-adi düşüncələrə qapıla bilir, xəyal gücümdən istifadə edirdim… Elə alınmışdı ki, mənim böyüməyim ölkəmizin inkişafı ilə üst-üstə düşmüşdü. Böyüdükcə Ağdam haqqında, onun insanları barəsində daim maraqlı əhvaltlar və hekayətlər eşidirdim. Yəqin. mənimlə razılaşarsınız ki, Ağdam, Ağdam insanı kiçmiş ittifaq və hətta onun hüdudlarından kənarda da kifayət qədər məşhur idi. Ağdamın məşhur “Çörək Muzeyi”, Xudu Məmmədov, Rafiq Əliyev kimi dünya miqyaslı alimləri, tanınmış sənət adamları, qədim abidələri, hətta şərab məhsulları və s. … İndi hərdən düşünürəm ki, kaş 1988-ci ildən sonra baş verənlər olmamış olaydı… Onda mən indiki Ağdamı heç xəyal belə edə bilməzdim… Buna xəyal gücüm yetməzdi…
Ancaq “kaş ki”lərlə heç nə olmur və bütün məlum hadisələr baş verib. Min şükür Alaha ki, indi artıq bütün bu baş verənlər barədə keçmiş zamanda danışa bilirik.

## QISACA OLARAQ AĞDAM HAQQINDA

Ağdam rayonu 1930-cu ildə yaradılıb. Sahəsi 1150 kvadrat km olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır.Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Gözəl Qarabağın ürəyi sayılan Ağdamın qədim tarixi abidələri minillik keşməkeşli illərdən keçərək bu günə qədər gəlib çatmışdır. “Ağdam” sözü qədim türk dilində “kiçik qala” deməkdir. Uzaq

keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişib. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilib. Bu mənada "Ağdam" – günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir. Ağdam rayonunda çoxlu sayda tariximizin şahidi olan memarlıq abidələri var. Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələri (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və s. memarlıq abidələri bu yurdun qədim Azərbaycan torpağı olduğunu təsdiq edir. Tariximizin sirdaşı, ev ünvanı olan bu abidələr Ağdamın keçmişinin qaranlıqlarına işıq saçaraq dünənindən bu gününə soraq verir. Rayonun ərazisində 50-ci illərdən başlayaraq aparılan arxeoloji tədqiqat işləri zamanı məlum olmuşdur ki, Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Tanınmış arxeoloq İdeal Nərmanovun Üçoğlantəpə deyilən yerdə apardığı arxeoloji tədqiqatlar zamanı aydın oldu ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, Eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar. Alim rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə apardığı arxeoloji tədqiqatlar zamanı Eneolit və orta Tunc dövrünə aid (e.ə. II minilliyin birici yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkar edib. Burdan tapılan taxıl və üzüm dənələri bir daha sübut etmişdir ki, yerli əhali oturaq həyat keçirmiş və yüksək əkinçilik mədəniyyətinə

malik olmuşdur. Arxeoloqlar Üzərriktəpədə apardıqları tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət qalıqlarına əsaslanaraq qeyd edirlər ki, bura Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Zaqafqaziyada ən zəngin abidələri olan yerlərdən biri olmuşdur. 80-cı illərin ortalarında rayonun Sarıçoban kəndi yaxınlığında son Tunc və Dəmir dövrünə aid (e.ə. XIX-XIII əsrləri əhatə edir) möhtəşəm kurqan tarixi cəhətdən çox qiymətli bir abidədir. Kurqanda aşkar edilən e.ə. XII-XIII əsrlərə aid maddi tapıntılar bu abidənin varlı bir insanın qəbri olduğundan xəbər verir. Bu isə həmin dövrdə Azərbaycanda ibtidai-icma quruluşunun dağılaraq sosial və əmək bərabərsizliyinin yaranmasına ən yaxşı əyani sübutdur. Sonralar Azərbaycanda gedən tarixi proseslər nəticəsində ilk dövlət qurumları formalaşmağa başlayıb. Belə dövlətlərdən biri də Şimali Azərbaycanda yaranmış Albaniya quldar dövləti idi. Mənbələrin verdiyi məlumata görə, qədim Albaniya ərazisində 26 tayfa var idi ki, bunlardan biri yüksək mədəniyyətə malik olan Qarqarlar Ağdam ərazisindəki Qarqar çayı boyuca məskunlaşmışlar. Bu isə Ağdamın Azərbaycan ərazisində ilk formalaşan dövlət quruculuğunda mühüm rol oynadığını bir daha əyani sübut edir.
Ötən əsrin 80-ci illərin sonlarından başlayaraq bütün ölkəni bürüyən hadisələrin mərkəzi demak olar ki, Ağdama düşmüşdü. Bunun nəticəsi olaraq Ağdam 6000 şəhid verdi.

**AĞDAMIN ŞƏHİDLƏRİ**

Ağdam tanınmış və tanınmamış şəhid övladlarının sayına görə də yaddaşlarımızda dərin, silinməz izlər buraxıb. Bu barədə Ağdamın tanınmış ziyalısı, Millət vəkili Aqil Abbasdan sitat gətirmək istəyirəm. "Ağdam nə qədər şəhid verib?" sualına Aqil Abbasın verdiyi cavabdan "Keçək məsələnin şəhid sayısı tərəfinə. Əvvəla, bilirsən ki, bütün rayonlarda Şəhidlər Xiyabanı var və bu Xiyabanda şəhidlərin adları qeyd olunub. Ağdamdakı, daha dəqiq desək Quzanlıdakı Şəhidlər Xiyabanı

isə tam fərqlidir. Bu fərqlilik də şəxsən mənim ideyamdır. Nizami Sadıqovun vaxtında bu Xiyaban salınanda məsələ qaldırdım ki, abidədə təkcə ağdamlı şəhidlərin deyil, Azərbaycanın müxtəlif bölgələrindən gəlib Ağdamda şəhid olanların da adları yazılmalıdır, onlar hamısı ağdamlıdır. Belə də etdik. Bütün rayonların İcra hakimiyyətlərinə məktubla müraciət etdik bu barədə. Təəssüf ki, müraciətimizə laqeyd yanaşdılar. Sağ olsun Ağdam Məscidinin axundu Barat kişini, O Barat kişini ki, minlərlə şəhidi yuyub kəfənləyib, köməyi ilə müəyyən qədərini özümüz tapıb üzə çıxara bildik.
Ağdam nə qədər şəhid verib?! Bəli, Ulu Öndər Heydər Əliyev mənim də iştirak elədiyim bir görüşdə bildirdi ki, Ağdam 5500-dən artıq şəhid verib. Heç kim cəsarət edib Heydər Əliyevə düzgün olmayan məlumat verə bilməzdi. Və sonralar da Ulu Öndər bir neçə dəfə bu rəqəmi səsləndirib. Və heç kim də bunu inkar etməyib. Ağdamda şəhid olanların sayı 6 minə yaxındır. Və təbii ki, bunların hamısı ağdamlı deyil, müxtəlif bölgələrdən könüllü gəlib vuruşub qəhrəmancasına şəhid olanlar da yüzlərcədir. Və onlar hamısı AĞDAMLIDIR!

Onu da vurğulayım ki, Qarabağda nə qədər şəhid verdiyimiz haqqında dəqiq məlumat yoxdur, eləcə də Ağdamda. Və heç dəqiqləşdirmə aparan da yoxdur. Yüzlərlə şəhidin nəşini götürmək də mümkün olmayıb, qalıb işğal altındakı torpaqlarda və itkin düşmüş sayılırlar.
(http://teref.az/gundem/103096-agdam-ne-qeder-sehid-verib.html)"
Bu yazını hazırlayarkən məlumatların maksimim dərəcədə dəqiqliyini təmin etmək üçün Ağdam rayon İcra Hakimiyyətinin rəsmi sayt məlumatlarından istifadə etmişəm. Ağdamın şəhidləri bölməsində Vətən Müharibəsi Şəhidi baş-leytenant Hikmət Səfərov haqqında olan məlumat diqqətimi daha çox cəlb etdi.

**ŞƏHİD BAŞ-LEYTENANT HİKMƏT SƏFƏROV HAQQINDA**
Hikmət İldırım oğlu Səfərov 1972-ci il İyulun 11-də Ağdam rayonunun Yusifcanlı kəndində anadan olmuşdur.1979-1989-cu illərdə Yusifcanlı kənd tam orta məktəbində təhsil almışdır.1989-1994-cu illərdə ali təhsil almışdır.
Hərbi xidməti
Azərbaycan Ordusunun baş leytenantı olan Hikmət Səfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Hikmət Səfərov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı ağır yaralanıb. 08.12.2020-ci il tarixində Bakı şəhərində müalicə aldığı Hərbi Hospitalda vəfat etmişdir.Bakıda II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.
Təltifləri:
(15.12.2020) — “Vətən uğrunda” medalı (ölümündən sonra)
(18.12.2020) — “Cəsur döyüşçü” medalı (ölümündən sonra)
(29.12.2020) — “Ağdamın azad olunmasına görə” medalı (ölümündən sonra).

Hikmət haqqında dəfn mərasimindən (II Fəxri xiyabanda dəfn olunub) və anım günü münasibəti ilə keçrilmiş tədbirdən məlumatlıə idim. Onun istiqanlı, böyük ailəsi məni valeh etmişdi. Atası İldırım müəllimin (indi rəhmətə gedib, Allah rəhmət eləsin) Hikmətin məzarı üstündəki görüntüləri heç vaxt gözümün önündən getməyəcək. Bu qürür, hüzün və sarsıntının birlkdə çuğlaşmış şəkildə yaratdığı ata obrazı çox təsir edici idi… Birdəfəlik yaddaşıma həkk olunub…

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ruhları şad olsun.
Və bütün bunlarla yanaşı məşhu “Qarabağ” cinsli atları qoruyub saxlayır… Ağdamın “Qarabağ” adlı futbol klubu var ki, ən çətin günlərimiz də belə daim bizi bugünkü günlərimizə ruhlandırırdı. Bu günə qədər mümkün olanın hamısını etməyi bacardıq. Daha böyük zəfərlər bizi gözləyir. Çiçəklənən Ağdamdan yazmaq ümidi ilə sizlərdən ayrılıram.

# PUBLİSİSTİKA

## MƏLƏK SİMALI ANALAR...

Bu günlərdə Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi və Sabitlik və İnkişaf Mərkəzi İb-nin İdarə heyətinin xətti ilə Bərdəli şəhid Fəxri Qəribzadənin anası Mehparə xanım Qəribovanın dəvəti ilə Bərdəyə səfərə- Mehparə ananın təşəbbüsü və rəhbərliyi ilə Bərdə Mədəniyyət Mərkəzində təşkil etdiyi "Cənnətdən cənnət mələyinə hədiyyə" adlı tədbirə yola düşdük.

Kürdəmirə çatanda təşkilatımızın direktor müavini Ruhiyyə xanımla Şəhidlər xiyabanını ziyarət etdik. Bizim buraya gəlməyimizdən xəbər tutan Simuzər ana da Xiyabana gəldi. Biz Kürdəmir şəhidlərini və Simuzər ananın şəhid oğlu Cəmil Həşimlinin də ziyarət edərək məzarına tər qərənfillər qoyduq.

Bizimlə Bərdəyə getməyi lazım bilən şəhid anası yol boyu oğlundan elə şirin xatirələr danışırdı ki, tədbir məkanına nə vaxt çatdığımızı hiss etmədik.

Mədəniyyət Mərkəzində ciddi hazırlıq gedirdi. Mehparə ana gəlişimizə sevindi. Məlum oldu ki, buraya yalnız Bərdənin deyil, Bakıdan, Kürdəmirdən digər qonşu rayonlardan yüz nəfər şəhid valideynləri, şəhid anaları dəvət olunub. Mərkəzin səhnəsində yüz şəhidin şəkilləri və onlara uyğun gül dibçəkləri, tər qızılgüllər, müxtəlif hədiyyələr düzülmüşdü.

Eyni zamanda gənc rəssam, şəhid analarına, "ana və oğul" şəkilləri ilə şəxsən hazırladığı foto-kompozisiyaların müəllifi Ayxan İsayev də xüsusi hədiyyələri ilə burada idi. Onu da qeyd etmək yerinə düşərdi ki, Ayxan demək olar respublikamızın rayonlarında və Bakıda keçirilən bir çox anım

və mövlud günlərində fəal iştirak etdiyinə görə bir çox diplom və döş nişanları ilə təltif olunmuşdu.

Tədbirə başlamazdan əvvəl Qazilərimiz
Dövlət Bayrağımızı təntənəli marsın sədaları altında zala gətirdilər. Dövlət Himnimiz bir dəqiqəlik sükutla yad edildilər.

Aparıcı Səbinə Mirzə qızı şəhid analarını və dəvət
olunan digər qonaqları salamladı. Tədbirdə rayonun İH-nin məsul şəxsləri, millət vəkili Fatma Yıldırımı, Bərdə rayon YAP-nın sədri Fəqət Şadlinskaya, Mədəniyyət
Mərkəzinin sədri İlyas Hacıyev və başqaları iştirak edirdi. Söz millət vəkili Fatma Yıldırıma verildi.

O, 44 günlük müharibədə cəsarətlə döyüşən,
vətənimizin şəhid igid oğullarının analarına can sağlığı və səbr dilədi. Digər çıxışçılar
da şəhidlərimizin sayəsində torpaqlarımızın azad olunmasını təmin etdikləri bir daha söyləndi. Sonra şəhidlərimizə həsr olunmuş videoçark və slayd nümayiş olundu.

Tədbir günü Mehparə ananın ad günü olduğu da qeyd olundu.

Gözəl təşkilatçı-şəhid anasına təşəkkür edildi ki, Fəxri kimi oğulu vətən üçün tərbiyə edib böyüdüb. Suqovuşan fatehi, Murov Qartalı Fəxri göstərdiyi şücaətə görə üç medalla təltif olunub.

Tədbirdə Bərdənin Birinci Vətən Müharibəsi
və Aprel döyüşlərinin şəhidi Ziya
Həsənovun ailə üzvləri, Bakıdan şəhid Emin

İsmayılovun anası Məlahət xanım və digər yüzə yaxın şəhid anaları da gəlmişdilər.

Rayon uşaq gənclər təşkilatının hazırladığı ədəbi-bədii kompozisiyanı dinləyicilər alqışladılar.

“Qazilər” Vətən müharibəsi iştirakçılarına və ailəsinə sosial Dəstək İctimai Birliyinin döş nişanları və vəsiqələri təqdim olundu…

Sonda bir daha şəhidlərimizə dualar oxundu…

Ötənləri xatırlayaraq yolumuza davam etdik.

# JALƏ CƏFƏROVA

30.03.2022.İstanbul-Yunanıstan,Paris-Bakı.
Milli Mədəniyyətin Təbliği ictimai birliyinin rəhbəri filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova Azərbaycan Respublikasının Qeyri Hökumət Təşkilatlarına Dövlət Agentliyinin dəstəyi ilə “Azərbaycanın və Türkiyənin ortaq dəyəri rəssam İbrahim Safinin Avropadakı həyat və yaradıcılığı “layihəsi bu gün səfər çərçivəsində apardığı tədqiqatını başa vurub. Jalə xanımdan üç ölkədə apardığı axtarışlarıyla bağlı qısaca məlumat verməsini istədik
Jalə Cəfərova “ On yeddi günlük səfər başa çatsa da aldığım təəssürat,tapıntılar bir daha deməyə əsas verir ki soydaşımız olan böyük rəssam İbrahim Safi yaradıcılığı bitib-tükənməyən bir xəzinədir. Sadəcə obyektiv səbəblər var ki zəngin həyat və yaradıcılıq yolu keçən bu böyük insan haqqında məlumat əldə etmək gözlənilən real çətinliklər yaradır. Baxın ,2021- ci ilə qədər əsərləri auksionlarda daim satışlarda olan əsərləri çox həm də bu günkü iqtisadi çətinliklərə baxmayaraq ən yüksək məbləğə satılan əsərlər siyahısındadır. Mart ayının 14 dən 18-ə qədər İstanbul görüşləri reallaşdı. Çox dəyərli yazar ,kolleksioner İbrahim Safidən ilk reportaj hazırlayan Moşe Qrosmanın açılmamış arxivi və məsləhətləri gələcək addımlarımda misilsiz bələdçilik etdi. Türkiyədə topladığım bilgilərə görə İstanbul Azərbaycan Mədəniyyət Evinin rəhbəri Hikmet Elpə,Sosial Araşdırmaçı ,qezeteçi Doğan Kasadoluya,onun asistanı Türkan Özbuğut xanıma sonsuz təşəkkürlər.
Mart ayının 18 dən 22- nə qədər Yunanıstanın paytaxtı Afinada oldum.Səfər edəcəyim zamanı bildirsəm də məktublarıma cavab almadım. Bayram günləri və bəlli qrafika ilə çalışdıqları üçün ( üç dəfə qəbula getdim) Azərbaycanın Yunanıstandakı səfirliyində təəssüf ki heç bir görüş baş tutmadı. Afinada dörd muzeydə oldum

İstanbulda doğulan , 18 yaşına qədər Türkiyədə yaşayan yunan əsilli ,illərdir İbrahim Safi yaradıcılığının heyranı kimi tanıdığım Eleni Koufalidou xanımla ünsüyyət və topladığım məlumatlar məni çox sevindirdi..

Martın 18 dən 30 –a qədər Fransanın paytaxtı Parisdə oldum. Əldə etdiyim bilgiləri ümidvaram ki tezliklə kitabça kimi görmək nəsib olacaq. Qısaca görüşdüyüm və İbrahim Safinin Fransadakı təbliğiylə bağlı gələcəkdə nəzərdə tutduğumuz ,görüləcək işlərlə bağlı Azərbaycanın Dostları Assosiyasının rəhbəri Mirvari xanım Fətəliyevadan xeyli qiymətli materiallar əldə etdim.Mirvari xanımın isti,səmimi münasibətindən cəsarətlənib “Azərbaycanda İbrahim Safi adına Mədəniyyət Mərkəzinin “ yaratmaq arzumu da dilə gətirdim .
29 mart tarixində Azərbaycanın Fransadakı Səfirliyində Mədəniyyət məsələləri üzrə məsul şəxs olan Günül xanım Zülfüqarova ilə görüşdüm. Bacardığım qədər çalışdım ki bu böyük rəssam haqqında fransız sənət aləminin insanları,Fransada yaşayan türklər ,həmçinin azəri türklərimiz də bilgilənsin. İndiki tarixi dönəmdə zənnimcə vacib və önəmli məqamdır. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Türkiyə dostluq münasibətləri daha əhəmiyyətli mərhələyə keçib. Günel xanım bir saata qədər davam edən görüşümüzün sonunda qeydlərini Azərbaycanın Fransadakı səfiri Rəhman Rəhimov cənablarına çatdıracağını söylədi.
Parisdə xeyli muzeydə ,şəxsi kolleksionerlərin qalleriyasında oldum. Əldə olunan məlumatları yaxın zamanlarda paylaşacayıq.
Fransada mənə ölçüyə sığmaz dərəcədə mənəvi dəstək olan insanlara sonsuz saygı və təşəkkürümü bildirmək istəyirəm. Uçun illər Fransada yaşayan həmvətənlərimiz ictimai fəal Zivər xanım,Xuraman xanım Rəhimova bacıları, İlqar bəy Turabi, Fransa Azərbaycanlıları Birliyinin rəhbəri Rza bəy Zeyniyə Milli

Mədəniyyətin Təbliği ictimai birliyi adından bir daha sonsuz təşəkkürlər.
İbrahim Safi yaradıcılığı davam edir.

* * *

Milli Mədəniyyətin Təbliği İctimai Birliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova “Azərbaycanın və Türkiyənin ortaq dəyəri, rəssam İbrahim Safinin Avropadakı həyat və yaradıcılığı” layihəsi çərçivəsində apardığı tədqiqatını başa vurub.
Səfər təəssüratlarını bölüşən Jalə Cəfərova bildirib ki, Avropanın 3 ölkəsində 17 gün ərzində həyata keçirdiyi tədqiqat işləri zamanı xeyli maraqlı məlumatlar əldə edib: “Səfər zamanı aldığım təəssürat, tapıntılar bir daha deməyə əsas verir ki, soydaşımız olan böyük rəssam İbrahim Safi yaradıcılığı bitib-tükənməyən xəzinədir. Onun əsəsrləri 2021-ci ilə qədər auksionlarda ən yüksək məbləğə satılıb. Mart ayının 14 dən 18-ə qədər İstanbul görüşləri reallaşdı. Çox dəyərli yazar, kolleksioner İbrahim Safidən ilk reportaj hazırlayan Moşe Qrosmanın açılmamış arxivi və məsləhətləri gələcək addımlarıma misilsiz bələdçilik etdi. Türkiyədə topladığım bilgilərə görə, İstanbul Azərbaycan Mədəniyyət Evinin rəhbəri Hikmet Elpə, Sosial Araşdırmaçı, qəzetəçi Doğan Kasadoluya, onun asistanı Türkan Özbuğut xanıma sonsuz təşəkkürlər”.
Səfərini Yunanıstanın paytaxtı Afinada davam etdirən J. Cəfərova burada yunan əsilli, illərdir İbrahim Safi yaradıcılığının heyranı kimi tanınan Eleni Koufalidou ilə görüşüb: “Ardınca Fransanın paytaxtı Parisdə davam edən səfər çərçivəsində
Azərbaycanın Dostları Asssosiyasiyasinin baş katibi, Paris Azərbaycan təşkilatının rəhbəri Mirvari xanım Fətəliyevadan xeyli qiymətli materiallar əldə etdim. Mirvari xanıma

“Azərbaycanda İbrahim Safi adına Mədəniyyət Mərkəzinin “ yaratmaq arzumu da dilə gətirdim. Həmçinin, Azərbaycanın Fransadakı Səfirliyində Mədəniyyət məsələləri üzrə məsul şəxs Günel Zülfüqarova ilə görüşdüm. Bacardığım qədər çalışdım ki, bu böyük rəssam haqqında fransız sənət aləminin insanları, Fransada yaşayan türklər, həmçinin azəri türklərimiz də məlumatlansınlar. Günel xanım görüşümüzün sonunda qeydlərini Azərbaycanın Fransadakı səfiri Rəhman Rəhimov cənablarına çatdıracağını söylədi”.

Qeyd edək ki, “Azərbaycanın və Türkiyənin ortaq dəyəri, rəssam İbrahim Safinin Avropadakı həyat və yaradıcılığı” layihəsi Azərbaycan Respublikasının Qeyri Hökumət Təşkilatlarına Dəstək Dövlət Agentliyinin dəstəyi ilə həyata keçirilir.

# MUZEYLƏR GÜNÜ

H. Əliyevin və Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. N.Nərimanov Xatirə muzeyində 18 may- Beynəlxalq Muzeylər Günü münasibətilə"Heydər Əliyev və muzeylərimiz" adlıtədbir keçirildi. Tədbirin məqsədi ümummilli lider Heydər Əliyevin xatirəsini yad etmək,respublikamızda geniş muzey şəbəkəsinin yaradılmasında,xalqımızın mənəvi dəyərlərinin qorunub saxlanılmasında bir ölkə başçısı,bir vətəndaş kimi gördüyü geniş miqyaslı işlərdən söhbət açaraq iştirakçıları , ictimaiyyəti tanış etmək idi…

Tədbiri muzeyin gənc direktoru Ləman Hüseynova açaraq sözü Əməkdar İncəsənət Xadimi,Azərbaycan Yazıçılar İttifaqının(Birliyinin)üzvü, xalq şairi Nəriman Həsənzadəyə verdi. Nəriman müəllim Heydər Əliyevlə ilk günlərdən necə tanış olmasından,onun gənc şairə olan diqqət və qaygısından ömür yolunda ona necə dayaq və dəstək olmasından böyük maraq və həyəcanla geniş söhbət açdı.Nəriman müəllim danışdıqca bütün həyat xatirələri ilə tanış olduguma görə hadisələr gözümün önünə gəldi…

Söhbət əsnasında təşəbbüsümlə bu muzeyin filialının yaradarkən necə çətinliklərlə rastlaşdıgım anlarda Nəriman müəllimlə,mərhum Teymur Əhmədovla,akademik Hüseyn Əhmədovla və başqa nərimanşünas alimlərlə olan fəaliyyətlərimizi xatırladım …Lakin muzeyin sıfırdan başlanmasında mənə yaxından kömək edən, bütün problemlərin həllində həmən anda mənə yardımçı olan, mənə mənəvi ata kimi qaygı və diqqət göstərən mərhum Vəli Məmmədov olmuşdur.Onun yaxından köməkliyi ilə həm muzeyi yaratdıq , həm də mənim arzumu nəzərə alaraq sonralar Əməkdar heykəltaraş Mirəli Mirqasımovun müəllifliyi ilə N.Nərimanovun adını daşıyan məktəbin həyətində ədibin tuncdan abidəsinin qoyulmasına da nail olduq….

H.Əliyevi ilk dəfə 1981 ci ildə Xaçmaz rayonunda tarix -diyarşünaslıq muzeyinin açılışında görmildm..Onun rayonumuza hər gəlişini həyəcan və sevinclə gözləyirdik. Ölməz liderimiz muzeylərə ,tarıxı mədəniyyət abidələrinə xüsusi qaygı göstərilməsini hamıya məsləhət görür, milli sərvətlərimizin qorunub saxlanmasının vacibliyini xüsusi qeyd edirdi….

Sonra söz Bakı şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyevə verildi.O, Nəriman müəllimin xatirələrindən təsirləndiyini bildirdi..

Azərbaycan Prezidenti yanında DİA- nın professoru, kulturoloq, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının Prezidenti Fuad Məmmədov,

Əməkdar Mədəniyyət işçısı,”Azərxalça”ASC-nin baş mühafizi Nailə Rəhimova ölməz liderlə olan görüşlərindən danışdılar .BakıdaN. Nərimanovun əzəmətli heykəlinin qoyulması H.Əliyevin şah əsəri idi..

Tədbirdə müxtəlif mizeylərin rəhbərləri,Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin”Muzey işi,tarix və mədəniyyət abidələrinin mühafizəsi” fakultəsinin müəllim və tələbələri

KİV nümayəndələri, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri maraqlı proqramla çıxış etdilər…

Muzeyin direktoru Ləman Hüseynova tədbir iştirakçılarına muzey əməkdaşları adından təşəkkür etdi.”Heydər Əliyev və mədəniyyətimiz”adlı videoçarx nümayiş etdirildi…Tədbir Dövlət Akademik Filarmoniyasının aparıcısı Səmray Əliyevanın ifasında Nəriman Həsənzadənin “ Azərbaycan”şeirinn ifası ilə yekunlaşdı. Sonda dəyirmi çay stolu ətrafında bir daha maraqlı söhbətlər bitmək bilmirdi… Çünki ölməz liderimiz haqqında o qədər unudulmaz xatirələr var idi ki…

# ZƏFƏR GÜNÜ

Zəfər Günü gənc xalçaçı-rəssam Natiq Nəcəfzadənin “Zəfər: qədim və müasir naxışlarda” adlı xalça eskizlərindən ibarət ilk fərdi sərgisi açıldı.
8 noyabr-Zəfər Günü ‘NUR Art House” qalareyası ənənəsinə sadiq qalaraq sənətsevərləri xoş günümüzün aynası, dar günümüzün dayağı olan xalça sərgisinə dəvət etdi..İçərişəhər”Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Rəssamlar İttifaqı, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi,Azərbaycan Fotoqraflar Birliyi və “NUR Art House”qalareyasının dəstəyi ilə” Azərbaycan xalçaçıları”İB-nin üzvü, istedadlı xalçacı – rəssam Natiq Nəcəfzadə” Zəfər:qədim və müasir naxışlarda” adlı xalça eskizləri sərgisi ilə tamaşaçıları qələbə diləkli milli naxışlarımıza müasir baxışını təqdim etdi.

Xovsuz və xovlu xalça eskizləri xalqlmızın milli kimliyini və Zəfərə aparan yolun keşməkeşini özünəməxsus bədii ifadəsi ilə həm rəng, həm də sözlə təsvir edərək sülh, sabitlik, firavanlıq və qəhrəmanlıq keyfiyyətlərimizin təcəssümüdür.Xalça bizim yaşam tərzimizin,Vətənə məhəbbətimizin, iqtisadi durumumuzun,adət-ənənələrimizin canlı obrazıdır.
Proqram – sərgidə sənətsevərlərə təqdim olunan əsərlərdə xalçaçı-rəssam ,rəngkar və qrafik Natiq Nəcəfzadə yaradıcılığında ənənənin və varislik xüsusiyyətinin naxışlı kompozisiyalarda poetik ifadəsi nümayiş olunur. Bu, həmin qan yaddaşıdır ki, igidlərimizi Vətən müharibəsində mənfur erməni təxribatına qarşı əks-hücum həmləsi ilə Şuşamıza qədər aparan Zəfər yolunun təkanverici qüvvəsi oldu. Bu, Vətənə məhəbbət, maddi-mənəvi dəyərlərimizə sədaqət, tariximizə hörmət, adət-ənənələrimizi yaşatmaq hissindən qaynaqlanan qəhrəmanlıq mücəssiməsidir.

On gün davam edəcək sərgi zamanı sənətsevərlər Natiq Nəcəfzadənin Ustad dərslərində iştirak edəcək, onunla xalça aləminə səyahət edib,naxışların sirrini, kompozisiya quruluşu haqqında fikirləri,xalça sənətində rəng həllinin özəlliklərini öyrənəcəklər.
Daim gənc istedadlara sənətdə ilk addımlarını atan və milli mədəni irsimizi yaşatmaq arzusunda olan gənclərə dəstək olan "NUR Art House"qalareyası bu istiqamətdə məqsədyönlü fəaliyyətini gələcəkdə də davam etdirmək niyyətindədir.
Sərgi 08 noyabr 2022- ci ildə Içərişəhər,Qəsr küçəsi 27 ünvanda yerləşən"NUR Art House"qalareyasında saat 17.00 da açılan bu sərgi tamaşacıların zövqünü oxşadı.
Belə ki, sərginin açılışına dəvət edilmiş iştirakçıların arasında şəhid ailələri, qazilər,Vətən müharibəsi iştirakçıları,müxtəlif sənətçilər, ziyalılar, media nümayəndələri vardı..
Istedadlı xalçaçı -rəssam Natiq Nəcəfzadə yaradıclıgına həsr olunmuş tədbiri qalareyanın əməkdaşı Z.Əliyev açaraq sözü Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İB-nin fəxri əməkdaşı ,AJB-nin üzvü,"Xarıbülbül"ƏM-nin sədri,Nəzakət Əhmədovaya verdi. O,Natiq Nəcəfzadənin sənətini yüksək dəyərləndirərək təskilatın təşəkkürünü bildirdi ,ona bu sahədə yeni – yeni uğurlar dilədi. Azərbaycan Mədəniyyətinin inkişafında göstərdiyi xidmətlərə görə ona DAMM İB- nin Fəxri Diplomunu təqdim etdi..
Eyni zamanda AYB -nin üzvü, Prezident təqaüdçüsü,"Yazarlar"jurnalının təsisçi redaktoru Zaur Ustaca söz verildi . O ,
göstərdiyi xidmətlərə görə jurnalın təsis etdiyi "Ziyadar"diplomunu və yenicə çapdan çıxmış Zaur Ustac "Seçilmiş əsərləri"(9 çildliyin) -nin I -ci cildini xalçaçı rəssama təqdim etdi.
Həmin kitabın II-ci cildini"(Mustafa Müseyiboglu–70″ layihəsinin rəhbəri olguna görə)və"Ziyadar" Diplomunu jurnalın əməkdaşı Nəzakət Əhmədovaya da təqdim edərək ona ədəbi-bədii,

publisistika sahəsində yaradıcılıq uğurları arzuladı.
Sərginin davamı olaraq gənc istedadların şəhidlərimizə həsr etdikləri şeirlər və sazçıların Vətənimizi tərənnüm edən mahnıları dinlənildi.
Səhid Zaur Ismayılzadənin dayısı Rafiq müəllim. ,qazilər,xalçacı sənət adamları,M.S.Ordubadi muzeyinin aparıcı əməkdaşı Rasimə xanım, hərbi qospitalın işçisi,44günlük müharibə zamanı yaralı əsgərlərimizə tibbi yardım etmiş Əsmər xanım və b.çixış edərək Namiqə ugurlar və can saglıgı arzuladılar.

**"XARIBÜLBÜLÜN"ÜN İŞIĞINDA**

10 iyun 2022 ci il tarixində keçirilən bu tədbir "Xarıbülbül" ƏM -nin üzvlərinin, iştirakçıların yaddaşında uzun müddət qalacaq…

Tədbiri Ədəbi Məclisin sədri, bu sətirlərin müəllifi, açaraq sözü müharibə veteranı, "Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İB- nin sədri, "Tərəqqi " medallı, "Xarıbülbül" Ədəbi Məclisinin təsisçisi Rada Abbasa verdi. O,tədbir iştirakçılarını salamladı. Sonra şəhidlərimiz bir dəqiqəlik sükutla yad edildi.. Rada xanım "Xarıbülbül" hekayətini danışdı, zəfərə gedən yolda canlarını fəda etmiş şəhidlərimizdən, onların göstərdikləri şücaətdən ətraflı söhbət açdı.

Azərbaycanın ilk Milli Qəhrəmanı Səfiyar Behbudovun bacısı, "Qürur" Şəhid Ailələri Xeyriyyə İB-nin sədri Naibə xanım Behbudova da Müzəffər Ordumuzun qələbəsindən, qardaşı barədə məlumat verdi.

Tədbirin iştirakçılarından Şəhid kapitan Əsəd Həsənovun anası, ədəbi məclisin fəxri üzvü Mələk xanım, Şəhid Fəxri Qəribzadənin anası, ədəbi məclisin fəxri üzvü Mehparə xanım, M.Müşfiq ocağının yadigarı, hamımızın sevimlisi, ədəbi məclisimizin fəxri üzvü, Leyla xanlm Axundzadə, "M.S.Ordubad i muzeyi"nin aparıcı əməkdaşı Rasimə xanım Əhmədova, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi, Sabitlik və İnkişaf Mərkəzi İB – nin sədri Ruhiyyə xanım Poladova, həmən təşkilatın Qəbələ rayonu üzrə təmsilçisi Təranə xanım Alməmmədova, yazıçı- şairə Əfşan xanım, "Qürur"İB-nin fəxri üzvü , yazıçı-publisist ehtiyatda olan polkovnik- leytenant Azər Hacıbəyli, bu günlərdə Türkiyədən yüksək mükafatla qayıdan həkim Aidə xanım Kazimi, dolğun şeirləri ilə mətbuatda çıxış edən Sevda xanım, Nərgiz xanım, musiqi müəllimi Türkan xanım və başqaları tədbirin maraqlı təşkilinə görə təşkilatçılara təşəkkür etdilər.

Tədbirə Xaçmaz rayonundan dəvət etdiyimiz-çəkdiyi rəsmləri ilə dəfələrlə qalib olaraq fəxri fərmanlara layiq görülmüş

onuncu sinif şagirdi Nurlana Haşımova, İqtisad Universitetinin tələbəsi gənc rəssam Ayşən Cahangirova öz əl işlərini nümayiş etdirdilər. İştirakçılar gənc mügənni İslam Qasımovun ifa etdiyi “Azərbaycan” mahnısını və sosial mediyada Qarabag mövzusunda, vətənpərvərlik şeirlərinin özünəməxsus yüksək ifa tərzi ilə dinləyicilərin böyük ürəklərinə yol açmış tanınmış kiçik qiraətçi Nurayı coşqu ilə alqışladılar.
Qəbələdəki təmsilçimiz Təranə xanımın şəhidlərimizin fotoları əsasında hazırlanmış suvenir agacın şəhid anası Mələk xanıma hədiyyə etdi. Ana, – “… artıq oğlum tək deyil, rahatam ki, öz dostlarının arasındadır…”, – deyərək, hədiyyəyə görə Təranə xanıma dərin minnətdarlığını bildirdi.
Beləcə “Xarıbülbül” ədəbi
məclisinin üzvləri unudulmaz bir gün yaşadılar..

## BİR GÜNÜN TƏƏSSÜRATLARI

İyulun son günlərində aldığımız acı xəbərin sorağıyla bir qrup şəhid anaları ilə Beyləqanın Qəhrəmanlı kəndində yola düşdük…

27 yaşlı Yaqublu Fərman Telman oğlunun – bu kəndin 17 – ci şəhidinin yas məclisinə…

Qrupumuza İNK-nın Abşeron rayonu üzrə "Şəhid anaları və Milli Qəhrəman ailələri" departamentinin sədri – şəhid qərərgah rəisi, kapitan Əsəd Fərhad Oğlu Həsənovun anası Mələk Xanım "Qadınlar Şurası"nın sədri – şəhid polkovnik – leytenant Vüqar Əhməd oğlu Ağayevin anası Nənəxanım Ağayeva da daxil idilər. Yeri gəlmişkən Fizulinin azad olunmasında şəhid olan İsmayıl Qasımovun anası Mahirə Nəzərliyə bu səfərin təşkilində anaların pulsuz nəqliyyatla təmin olunmasında və şəhid analarına dəstəyini əsirgəməyən, 1-ci Qarabağ müharibəsində 1-ci qrup əlil olmuş qazi Rövşən Cəfərovun həyat yoldaşı Könül Cəfərovaya da minnətdarlığımı bildirirəm.
Qəhrəmanlı kəndinə çatdıqdan sonra bizi dörd hərbiçi könüllü -qazilər Orxan Balakişiyev və Məhərrəm Məhərrəmov, könüllü müharibə iştirakçıları Asəf Əliyevlə Sadiq Həziyev müşayiət edirdilər…

Kənddə yolboyu 44 günlük Qarabağ müharibəsinin 17-ci şəhidinin gül-çiçəyə bürünmüş gülərüzlü plakatlarını gördükcə həm kədərlənir, həm də bu igidlərimizlə qürur duyurduq. Təkcə bu kənddən 17 şəhidin olması bizi çox təsirləndirirdi…

Kəndin küçələrində gənclərin əllərində idman çantaları ilə məşqə getmələri də nəzərimi cəlb etdi. Vətənimizin zəfərə nail olması elə belə hazırlıqlı gənclərin sayəsində olmuşdur…

Budur, Fərmanın evində daxil olduq. Başda 27 yaşlı şəhid ata ilə 27 yaşlı şəhid oğulun şəkillərindən ibarət güşə və onların xatirə əşyaları olan stol və bayrağımız…

Sura ana bizim qəfil gəlişimizdən tutuldu və ata ilə oğulun birgə şəkillərini qucaqlayıb ağladı və oğlunu oxşadı… Biz İNK -nın üzvləri ilə şəhid analarından Fizulinin, Suqovuşanın, Qubadlının, Şuşanın, Talış kəndinin, Laçın dəhlizinin və başqa rayonların azad olunmasıda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalmış İsmayıl Qasımovun, Sübhan Abdurrəhmanlının,Tural Rəhimlinin,  Rəşid Həmidovun, Əsəd Əsədlinin, Teymur Məcidzadənin, Nurlan Atakişiyevin, Miqdad Abduləlimovun anaları Mahirə ana Mehriban ana, Süsən ana, Tənzilə  ana, Səidə və Yasəmən ana, Pərvanə, Mələk və Nənəxanım ana Sura anaya mənəvi dəstək olmaq üçün onun yanına gəlib şəhid ocağını ziyarət etməyi özlərinə borc bildiklərini dedilər. Könül xanımla və Aybəniz xanım ona təskinlik verərək şəhidliyin uca zirvə olmağı haqqında söhbət etdilər.

Bütün şəhid analarının  bir istəyi var; onlara mənəvi  dəstək olmaqla diqqətdə saxlamaq. Analar mənəvi qayğıya ehtiyac duyduqlarını bir daha xatırlatdılar. Sura ana ilə xeyli söhbət etdikdən sonra analarla qonşuluqdakı  şəhid Vüsal Nadir oğlu Hüseynovun ailəsini ziyarət etdik. Bizi görən Nadir ata hönkürtü ilə ağladı, onun səsinə Aidə xanım otaqdan çıxıb bizi Vüsalın otağına apardı… Burada Vüsalın iki maketi, paltarlatı medalları və digər əşyaları səliqə ilə düzülmüşdü.  Aidə ana birdən onun boş qalan digər otağından Vüsalın son dəfə geydiyi köynəyi gətirdi… Və əlavə etdi ki, hər gecə onun iyini bu köynəkdın alıb yatıram. Onlara təskinlik verib  həyətdə xatirə şəkli çəkdirirdik ki, ana oğlunun maketini gətirdi ki, qoy Vüsalım da bizimlə olsun…

Fərmanın bacısı bizi şəhid ailəsi Yaqut müəllimməgilə də gətirdi. Onunla da görüş çox hüznlü oldu… Bütün şəhid anaları eyni fikri vurğulayırdı: “… onu saxlaya bilmədik, müharibə başlayan kimi dərhal cəbhəyə getdi…” Qəhrəmanlıqla döyüşən igidlərimiz çoxdan Ali Baş Komandanımızın əmrini gözləyirdilər. Gözləyirdilər ki, vəhşi faşist vandallarını Qarabağımızdan qovsunlar… Şəhid anaları ona da təskinlik verərək dərdinə şərik olduqlarını söylədilər. Beləcə Sura ana ilə vidalaşıb rayonun “Şəhidlər Xiyabanı”na getdik… Sanki igid oğullarımız bizi gözləyirdilər. Tər gül-çiçəklərə bürünmüş bu ziyarətgahda bilmədik haradan başlayıb harada qurtaraq….

Ətrafdakı xatirə lövhəsində yüzlərlə şəhid elə bil bizə deyirdi ki, ayaq saxlayın, bizi də yad edin… Təkcə Beyləqanda nə qədər şəhid varmış! Bizə şanlı qələbə, zəfər bəxş edən igid şəhidlərimiz… Onlara dualar oxuyub İmişliyə getdik. Burada Mələk ananın qərargah rəisi, kapitan oğlu Əsəd Həsənov və dostu Elmir Şəmsioğlu Bayramov uyuyurdu. Ziyarətgaha daxil olanda Əsədin atası Fərhadın burada olduğunu gördük, görüşdük səbr dilədik. Hər iki şəhidin məzarına tər çiçəklər qoyduq və Bakıya dönərkən yol boyu analar bir-bir yenə şəhidlərimizi xatırladılar… Kədər və qürur qarışıq bir gün keçirdik. Şəhid analarının belə görüşlərə çox ehtiyacları olduğuna şahidlik etdik. Onların hər şeydən çox həmsöhbətə ehtiyacları var… Allah cəmi şəhidlərimizə rəhmət eləsin. Qəbirləri nurla dolsun…

***31 iyul 2021 – Bakı.***

# NAXÇIVAN – CƏHRİ.

Naxçıvan. Cəhri kəndi. 20.05.2022. Mayor Rasim Əbdül oğlu Məmmədovun cənnətdəki mövludu qeyd olundu. “Kiçik dünyanın böyük insanları” kitabının təqdimatı keçirildi.
Milli Mədəniyyətin Təbliği ictimai birliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova Tabor komandiri Aprel şəhidlərimizdən olan Rasim Məmmədovun dünyaya göz açdığı Cəhri kəndində başqa illərdən fərqli anım mərasimi keçirilməsinin təşəbbüskarı olub. Üç ay öncə 29 şəhidimizin (burda həm 1 –ci Qarabağ müharibəsi həm də Vətən müharibəsi şəhidləri yer alıb) əziz xatirəsinə həsr olunmuş “Kiçik dünyanın böyük insanları” kitabının təqdimatı keçirilmişdi. Kitabda Rasim Məmmədova da ayrılmış səhifə var. Jalə Cəfərova bir çox şəhid ailələrinin kitab təqdimatında iştirak edə bilmədiklərini nəzərə alaraq özü bir çox rayonlarda təkrar təqdmatlar sərgiləşişdir.
Cəhri kəndinə toplaşan Rasimin əzizləri, Naxçıvanın müxtəlif bğlgələrində mövluda toplaşan qazilərimiz, məktəblilər təqdimata rəng qataraq xatirələrini bölüşdülər.
Jalə xanım hər kəsi salamlayaraq bu sözlərlə mövlud gecəsini davam etdirdi”İllərdir tanıdığım bu ocaq mənim üçün həm əzizdir həm də müqəddəs. Bu ocaqda vətənə olan sonsuz sevgini sözüylə əməliyə, qanıyla, canıyla sübut edən üç nəslin nümayəndəsi gəlib keçib. Calal Məmmədov 1941-45 ci il müharibəsinin iştirakçısı, oğlu Əbdül Məmmədov Birinci Qarabağ müharibəsi başlayan kimi olmazın fədakarlığını göstərərək sağlamlığını itirərək 24 il yataq xəstəsi oldu və onun böyüdüb tərbiyə verdiyi Rasim Əbdül oğlu Məmmədov.
“Anım mərasiminə toplaşan əzizlər qazilər, Rasimin və Əbdül Məmmədovun müəllimləri,Nazilə anamız söylədikləri xatirələriylə hamını kövrəltsələr də belə oğulla qürur duyduqlarını da xüsusi vurğuladılar.
Məktəb direktoru Rəşad Rüstəmli, qazilərimiz Fərdi

Məmmədov, Birinci Qarabağ müharibəsi qazisi Osman İbrahimov (Osman Məmmədov həm də kitabda müsahibə verən Nurhan İbrahimovun atasıdır) ,qazi Roman İbrahimov, Tamara müəllimə, Girşad Rüstəmlinin çıxışlarını həyacansız dinləmək mümkün deyildi. Sonra Jalə xanım kitabda adı keçən igid şəhidlərimizlə bağlı geniş məlumat verərərək "Mən bir daha təkrar edirəm, bu igidlərin həyatını vərəqlədikcə,onları böyüdüb tərbiyə edən valideynləri dinlədikcə içimdə bir səs eşitdim və bir daha əmin oldum ki BU DÜNYA BELƏ OĞULLARIN QARŞISINDA ÇOX HƏM DƏ ÇOX KİÇİK GÖRÜNÜR. Kitabın adını məhz ona görə belə adlandırdım", – dedi.

Evdəki mərasim Jalə xanımın imzasıyla təqdim etdiyi kitabların təqdim olunmasıyla davam etdi.
Rasim Məmmədovun adına açılmış süfrədən sonra ata-balanın uyuduğu dağın ən hündür yerindəki məkana məktəblilər əklil qoydular. Şəhidlərimiz anıldı, Dövlət Himnimiz səsləndi. Şəhidimizin qardaşı Etibar Məmmədov dinimizin adətlərinə uyğun müqəddəs kitabımız Qurani-Kərimdən surələr oxundu və Nazilə anamızın Etibar bəyin hər kəsə təşəkkürüylə sona çatdi.

## ŞƏHİDLƏR AND YERİMİZ

Bakının Nizami rayonu Yuri Kovalyov adına 229 nömrəli məktəbi öz yadda qalan ənənələri ilə fərqlənir. Bu günlərdə burada keçirilən izdihamlı mitinq məktəbin şəhid məzunlarına – Yuri Kovalyov, Aydın Manirov, Emil Baxşəliyev: 44 günlük II Qarabağ müharibəsinin şəhidlərindən Əsəd Əsədli, Nicat Əhmədov, Timur Əliyev və Zəbiyulla Məmmədova həsr olunmuş abidə – kompleksinin açılışına həsr olunmuşdu. İlk dərs gününün başlanması Nicat Əhmədovun cənnətdəki ilk ad gününə, Əsəd Əsədlinin anım gününə təsadüf etdiyindən rayonun əlaqədər təşkilatlarından səlahiyyətli nümayəndələr milli məclisin vəkili, İH nümayəndəsi, şəhid anaları, qazilər, bəstəkar və dini xadimlər, şəhidlərin dostları, məktəbin rəhbərliyi, müəllimlər və şagirdlər toplaşmışdılar.

Tədbiri giriş sözü ilə məktəbin yeni təyin olunmuş direktoru Vüsalə Məmmədova açaraq şəhidlik zirvəsinə ucalmış qəhrəman oğullarımız haqda ətraflı məlumat verdi. O şəhidlərə rəhmət, qazilərə can sağlığı, Şəhid analarına səbr dilədi. Abidə kompleksinin ərsəyə gəlməsində rayonun milli məclis təmsilçisi deputat Könül Nurullayevaya pedaqoji kollektivin təşəkkürünü bildirdi.

Tədbirdə deputat Könül Nurullayeva, Müdafiə Nazirliyinin nümayəndəsi Zümrüd Səmədova rayon təhsil şöbəsinin, İH nümayəndələrinin çıxışları diqqətlə dinlənildi,

BDU-nun prorektoru Ramin müəllim bu ali təhsil ocağının fəxri tələbəsi Nicat Əhmədovdan, İqtisad Universitetinin dekanı Səbuhi müəllim universitetin fəal tələbəsi Əsəd Əsədlidən maraqlı xatirələr söylədilər. YAP Nizami rayonu adından Ramil Əhmədov məktəbin şəhid məzunlarına rəhmət dilədi. Məktəbin müəllimi Şəhla Qarayevanın hər iki şəhid – Nicat və Əsəd

haqqındakı xatirələri hamını kövrəltdi. İNK sədri, DAMM İB I vitse-prezidenti, SİM İB-nin sədri Rasim Məmmədov Ali Baş Komandanın zəfər yolunda şəhid olmuş cəsur oğullarımıza, qazi və müharibə veteranlarına olan qayğısından toplanış iştirakçılarına məlumatlandıraraq şəhid analarına səbr, qazilərə şəfa dilədi.

Məktəbin adını daşıdığı Yuri Kovalyovun qardaşı Vitali Kovalyov Şəhid qardaşını yüksək dəyərləndirib adını bu məktəbdə əbədiləşdirən tolerant ölkəmizin başçısına, əlaqədar dövlət qurumlarına ailəsi adından öz dərin minnətdarlığını bildirdi.

Məktəbin dərs hissə müdiri Lalə Tağıyeva, 1 №-li Uşaq Gənclər İnkişaf Mərkəzinin əməkdaşı Fidan İsmayılova, məktəbin müəllimləri Nərgiz Məmmədova və Zülfiyyə Məhərrəmovanın təşkilatçılığı ilə hazırlanmış bədii hissədə məktəblilərin kövrək hisslərlə ifaları və həvəskar bəstəkar Ruslan Səfərlinin Nicat və Əsədə həsr etdiyi mahnılar hamını təsirləndirdi. Sonda şəhid anaları Xatirə və Səidə ana tədbirin təşkilində əməyi olanlara dərin minnətdarlığını bildirdilər.

## TÜRKİYƏ YAZARLARI AZƏRBAYCANDA MƏDƏNİ ƏLAQƏLƏR İCTİMAİ BİRLİYİNİN QONAĞI OLUB

Bu günlərdə Respublikamızın tarixi yerlərində- “Fəxri Xiyaban”da, muzeylərdə, Şəhidlər Xiyabanında olmuş bir qrup türkiyəli yazarlarla Azərbaycan Nəşriyyatında İNK-nın akt zalında görüş keçirilmişdir. Görüşü giriş sözü ilə “Azərbaycan-İraq Mədəni Əlaqələr İB”-nin sədri Dünya Sülh səfiri, BMT-nin üzvü Tahirə xanım Məmmədova açdı. O qonaqları salamlayaraq onlarla Türkiyədəki görüşləri barədə dinləyicilərə ətraflı məlumat verdi. Sonra Azərbaycanın və Türkiyənin himni səsləndirildi. Nümayəndə heyətinin rəhbəri Türkiyənin tanınmış şairi Coşkun Karabulut “Könül Yolçuları” adlanan platformanın üzvləri ilə Azərbaycana səfərindən danışdı. Sonra qonaqların çıxışlarına verildi. Şairlərdən Celal Bozkurt, Yusuf Ziya Yılmaz, Turğay Değirmancı, Hacıbayram Aslandaş, Şafak Elməddin Deniz, Zehra Selçuk Gül, Üzeyir Güleş, öz yeni şeirlərini söylədilər.

Xanım Seral Beyazgül Azərbaycanda Nazilə Gültacın yenicə çapdan çıxmış eyni adlı kitaba (“Könül Yolçuları” ) görə yazar dostuna minnətdarlığını bildirdi. Tədbirdə xeyriyyəçi Hacı İntiqam şair publisist Əyyub Şirvanlı, Rauf İlyasoğlu, Elçin Məmmədli, İradə Məlikova, Sevda İbrahimli bir neçə kitabın müəllifi Türkiyədə platformada iştirakçı olmuş, şairə Elmira Aslanxanlı Türkiyə-Azərbaycan dostluğuna Qarabağ Zəfərinə həsr olunmuş şerlərini və bu sətirlərin müəllifi Elmira Aslanxanlının “Qarabağ Azərbaycandır” və “Dost Gəlişi” şeirlərini söylədilər. Tədbirdə Lerikdən gəlmiş Qazi Üzeyir Məmmədov, şair Nizami Kolanlı və Püstə Rəvan da iştirak edirdi. Görüşün sonunda qonaqlara Fəxri Diplomlar təqdim olundu. Nümayəndə heyətinin rəhbəri Coşkun Karabulut tədbir iştirakçılarına və təşkilatçı Tahirə xanım Məmmədovaya heyəti adından təşəkkür etdi. Sonda xatirə şəkilləri çəkildi. Qonaqlar Qarabağa-Şuşaya səfər edəcəklərini bildirdilər.

## Bakı Expo Mərkəzindən xoş xatirələr

Bildiyimiz kimi oktyabrın 6-10 na kimi Bakıdakı Expo Mərkəzdə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş Beynəlxalq kitab sərgisi keçirildi. Sərgidə Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi Sabitlik və İnkişaf İctimai Birliyinin və İctimai Nəzarət Koalisiyasının sərgilənən ekspozisiyaları da nümayiş etdirildi. Belə ki, bu pavilyonda dünya şöhrətli detektiv yazıçı, nasir publisist, Yazıçılar Birliyinin katibi , 20 milyon nüsxədən çox 6 yüz kitabı olan hüquq elmləri doktoru , professor Çingiz Abdullayev, İctimai Nəzarət Koalisiyasının idarə heyətinin Sabitlik və İnkişaf Mərkəzi İctimai Birliyinin sədri ,Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi İctimai Birliyinin birinci vitse- prezidenti Rasim Məmmədov ,xalq yazıçısı Vahid Əziz, tanınmış ziyalılar, alimlər, xarici ölkə səfirliklərinin təmsilçiləri, öz kövrək mahnılarıyla geniş dinləyici kütləsinin sevimli müğənnisi Baba Dərələyəzli, Şəhid Milli Qəhrəmanların valideynləri ,ali və orta təhsil müəssisələrinin tələbələri ,yeni ailə quran gənc bəylə gəlinin çıxışlarını hamı diqqətlə dinləyir və digər pavilyonlardan da bu görüşlərə qoşulurdular. Türkiyə,Kolumbiya ,Özbəkistan və digər ölkələrin təmsilçiləri pavilyonumizda nümayiş etdirilən eksponatlar haqqında xoş ürək sözlərini bildirib ,təşkilata gələcək fəaliyyətində uğurlar arzuladılar. Şəhid Milli Qəhrəman Eldar Xəlilovun anası İNK-nın” Şəhid Milli Qəhrəman ailələri departamentinin”sədri Tərlan xanım ,Şəhid Milli Qəhrəman Şükür Həmidovun  atası-İNK -nın Ağsaqqallar Şurasının sədri Nəriman Həmidov, Şəhid kapitan qərargah rəisi Əsəd Həsənovun anası- Abşeron rayonu üzrə” Şəhid və Milli Qəhrəman ailələri” departamentinin sədri Mələk xanım və digər Şəhid anaları onlara olan qayğı və diqqətə görə DAMM-ın vitse prezidenti, İNK-nın sədri Rasim Məmmədova öz dərin minnətdarlığını bildirdilər. Rasim müəllimin təşkil etdiyi yubiley işi ilə bağlı Şəhidlərin daş üzərində həkk olunmuş şəkilli

suvenirləri və " İlham Əliyev siyasətində Ictimai Nəzarət fəlsəfəsi" kitabları sərgi pavilyonuna xüsusi olaraq alqışlarla dəvət olunan qonaqlara hədiyyə olundu. Tədbirlərdə Ali Baş komandanımızın yeni tarix yaratdığından , Zəfərimizlə doğma Qarabağımızda gedən quruculuq işlərindən, İNK-nın rayon təşkilatlarının gördükləri əməli işlərdən, Şəhid Milli Qəhrəman ailələrinə mənəvi dəstək verməlırindən, onlara olan diqqət və qayğıdan söhbət açıldı. Tanınmış müğənni Baba Dərələyəzli "Nəhəng Gəmi"," Türkiyə- Azərbaycan"," İlham- Ərdoğan" mahnılarını ifa edərək dinləyicilərdə  kövrək hisslər oyatdı. Pavilyonun sərgisi ilə tanış olanlar arasında tanınmış ziyalılardan filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyi tərkibində Cəfər Cabbarlı komissiyasının sədri, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun Elmi Şurasının və Bakı Dövlət Universitetində Dissertasiya Şurasının üzvü Asif Rüstəmli ,xalq şairi Vahid Əziz gənc hüquqşünas, Respublika Vəkillər Kollegiyasının üzvü Adəm Məmmədov və digər tanınmışlar bu  pavilyondaki  sərginin möhtəşəmliliyini hamının nəzərinə çatdırdı.Burada gənc vəkil Adəm Məmmədovun "Qətli sonu "və Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun baş elmi işçisi ,İslam Fəlsəfəsi şöbəsinin müdiri  Könül Bünyadzadənin" Könül dünyası" kitablarının təqdimatı da maraqlı oldu. Sonda xatirə şəkilləri və video kadrlar lentə alındı.

# BİR DAHA ŞƏHİDLƏR HAQQINDA

Tarixə həkk olunan 44 günlük müharibə şəhidlərimizin mövludu və sentyabrın 27-sindən sonra isə şəhid olan igidlərimizin ailələrində olmaqla şəhid Milli Qəhrəman ailələrinə, analarına mənəvi dəstək olmağı özünə borc bilən İNK-nın Abşeron rayonu üzrə sədri ilə bir qrup şəhid anası Bakının rayonlarında və respublikamızın müxtəlif rayonlarında olmuşlar. Belə ki, Sumqayıt, Beyləqan, Biləsuvar, İmişli, Qəbələ, Şirvan, Lənkəran, Şabran, Xaçmaz, Quba, Kürdəmir və digər rayonlarda Bakının Binə, Ramana, Zabrat, Suraxanı, Binəqədi, Bakıxanov, Sabunçu, Masazır, Məmmədli və başqa qəsəbə və kəndlərində şəhidlərimizdən general Polad Həşimovun, İlqar Mirzəyevin Milli Qəhrəmanlarımızdan- Eldar Xəlilovun, Samir Xasıyevin, Mübariz İbrahimovun, qərargah rəisi kapitan Əsəd Həsənovun, Bakı Dövlət Universitetinin İqtisad Universitetinin fəxri tələbələri- Əsəd Əsədli və Nicat Əhmədovun, Cavid Cabbarzadə, Murad, Cəmil, Qoşqar Üzeyirov, Fizuli Salahov, tağım komandiri leytenant Ruslan Məmmədov, Vüsal Allahverdiyev, ilk şəhid həkim Turqut Xəlilbəyli, gizir Elmar Nəsirov, Tural Rəhimli, taborun qərargah rəisi baş leytenant Həsənağa Abdullazadə, Xəqani Əsgərov, Rüfət, Ülvi, Iman və Bəhram qardaşları və digər ləyaqətli vətənpərvər şəhid balalarımızın anım və mövludu günlərində analara mənəvi dəstək olaraq onların kədərinə şərik çıxmışıq. Maraqlı və təəccüblüdür ki, bütün analardan eyni sözləri eşidirik. ”Mən dedim, sən getmə tək oğulsan” heç xəbər də tutmadıq necə qaçıb gedibsə, budur, əsl vətənpərvər vətəndaşlıq! Gənclərimiz elə bil Ali Baş Komandanın əmrinə bənd idilər. Hamı bu yolun dönüşünün olmadığını bilərəkdən vətən uğrunda döyüşə atılaraq torpaqlarımızı otuz illik “məhbus”luqdan azad edərək canlarını qurban verərək şəhidlik zirvəsinə ucaldılar.Vətənimizin hər bir ləyaqətli insanı istər Birinci Qarabağ, istər Aprel döyüşlərinin, istərsədə 44 günlük

müharibənin şəhid oğul və qızlarımızla fəxr edir, onlar və onların ailələri ilə qürur duyurlar. Müharibə onu göstərdi ki, eyni zamanda ailənin yalnız tək oğlu deyil, iki və üç oğul itirən atalar da şəhidlik zirvəsinə ucaldılar. Onlar valideynlərinin ,ailələrinin Vətən qarşısında başlarını uca etdilər.Belə ucalığa yalnız şəhidlik zirvəsində olmağı bilərəkdən dərk edənlər nail oldular. Ali Baş Komandan və birinci vitse prezidenti Mehriban xanım Əliyeva şəhid ailələrinə, qazilərə xüsusi diqqət və qayğı ilə yanaşırlar. Belə ki, qazilərin müalicəsini qardaş Türkiyədə və digər ölkələrdə davam etdirilməsinə, qazi və şəhid ailələrinə yardım məqsədilə yaradılmış ”Yaşat” fondunun təsis olunmasını təmin etmişlər. Eyni zamanda şəhid analarının təşəbbüsü və arzularına görə onların yaşadıqları yerlərdə, küçələrə, məktəblərə və digər məkanlara şəhidlərimizin adlarının verilməsi, xüsusi şəkil plakatları hazırlanıb küçə və yollarda nümayiş etdirilən xatirə bulaqlarının, abidə komplekslərinin açılışları da şəhidlərimizə olan dərin ehtiramım təcəssümüdür. Analar artıq göz yaşı tökməkdənsə şəhid balalarının xatirəsinin əbədiləşdirilməsinə nail olmağa cəhd göstərirlər. Bir çox rayonlarda bu işlər daha məqsədəmüvafiq şəkildə görülür. Bu günlərdə olduğumuz Şirvan, Qəbələ, Quba, Bərdə və başqa rayonlarda Şəhidlərin hər bir tədbirində rayon rəhbərləri iştirak edir. Şəhid ailələrinə maddi və mənəvi dəstək olurlar. Lakin ziyarət etdiyimiz bəzi məclislərdə şəhid analarının, qazilərin haqlı narazılıqları ilə də rastlaşırıq…

Unutmayaq ki, şəhidlər dağların başında ac-susuz düşmənlə əlbəyaxa olmuş, torpağın üzərində yataraq düşmənlə üz- üzə vuruşmuş, daim irəliyə getmiş, son anda şəhid olmuşlar! Torpaqlarımızı qaytaranların -qayıtmayan oğullarının ailələrinə yaxın olun, şəhid ailələrinin sizlərin mənəvi dəstəyinə böyük ehtiyyacları var!

**"ZƏFƏR GÜNÜ" TƏDBİRLƏRİ DAVAM EDİR**

Azərbaycan- İraq Mədəni Əlaqələr İB-nin sədri, Dünya Sülh səfiri, BMT-nin üzvü Tahirə xanım Məmmədovanın təşəbbüsü ilə İB-in ofisində "Zəfər günü" keçirildi. Görüşdə vaxtilə SSRİ Ali Sovetinin deputatı olmuş" Qırmızı Əmək Bayrağı" və "Oktyabr İnqilabı" ordenləri ilə təltif olunmuş əmək veteranı Zivər Əli qızı Səfərova Ümummilli Liderimiz Heydər Əliyevlə olan şəxsi görüşlərindən, ona adi bir fəhlə olaraq verdiyi dəyərdən, Ali Sovetə deputat seçildiyindən çox həyəcanla, xoş günlərindən gözəl görüş iştirakçılarına məlumat verdi. O, danışdıqca həmin anları bizə də yaşatdı. Bayram münasibətilə hamını təbrik etdi. Görüşdə Moskvadan dəvət olunmuş İlqar İsmayılovun da çıxışı maraqlı oldu. O, ölkəmizdən kənarda müxtəlif ölkə və şəhərlərin diasporlarındakı görüşlərindən, çıxışlarından böyük maraq və həyəcanla danışdı. Təşkilatdan faydalı məsləhətlər aldı. Yaşadığı Şuşa şəhərindəki uşaqlığından Füzulinin Horadiz qəsəbəsindəki xoş günlərindən söhbət açaraq oraya gedəcəyini bildirdi. Təşkilatın sədri Tahirə xanım xatirə olaraq ona özünün yazdığı "Qarabağ dünən və bu gün" kitabını və "Güllələnmiş ,Viran edilmiş Qarabağ mədəniyyəti" sənədli filminin diskini hədiyyə olaraq təqdim etdi. Görüşdə Püstə Rəvan "Həkəri" qəzetinin baş redaktoru ,Azərbaycan İraq Mədəni Əlaqələr İB-nin mətbuat xidmətinin rəhbəri Rauf İlyasov, "Elm və təhsil" jurnalının baş redaktoru tanınmış jurnalist Pərixanım Mikayıl qızı Muradova, Nəcibə Ağamalıyeva və başqa qonaqlar maraqlı çıxışları ilə yadda qaldılar. "Təzadlar" qəzetinin məsul işçisi Elçin Məmmədli Söhrab Tahirlə olan görüşündən kadrları nümayiş etdirməklə Məmməd Arazın "Ana" şeirini coşğu ilə söylədi. Pərixanım Muradovanın "Şəhid mundiri" və Firudin bəy Köçərliyə həsr etdiyi kitabların təqdimatı oldu. Onun 109 şəhidə həsr etdiyi 22 bənddən ibarət şeirindən bir parçanı sizlərlə bölüşmək istəyirəm:

"Adları düzülüb baxın yan yana,

Can qurban etdilər Azərbaycana.
Hansını söyləyim,hansını deyim,
Gör neçə igidim susuz verib can.
Hansı şəhidimdən, qazimdəm yazım?
Xudayar, Cəbrayıl, Daşqınmı deyim,
Yoxsa ki, Teymuru deyim, ağlayIm?
Hansı qəhrəmanının adını çəkim?
Azər, Muxtar, Munis, Rəşadmı deyim?
Babaxan, Asiman, Elşadmı deyim?
Səyyad, Rufizim, Cavidan balam,
Nakam iki qardaş İmanla Bəhram.
Dünyaya bir gəlib, bir də getdilər,
Analar qəlbini viran etdilər.
Ruslan, Ramil, Nicat, Abbas, Elməddin,
Elnur, Yasər, Qüdrət, Mənsur, Tacəddin.
Elməddin, Nurlan, Mirzə, Kamil, Hafiz, İntiqam ,
Dönmədi geriyə dedi qana – qan.
Bilmirəm hansının adın söyləyim,
Başıma haranın külün ələyim?
Vüsalı, Elvini, Ceyhunu deyim?
Yoxsa Kamran, Həmdəm, Şahmurad deyim?
Hər şəhid evində ana ağlayır.
Nakam qız, gəlinlər şəhidlərinə
Saçların ağardıb, qara bağlayır. "

Sonda Tahirə xanım Zivər xanıma və Pəri xanıma təşkilatın üzvlük vəsiqəsini təqdim edərək tədbir iştirakçılarına minnətdarlığını bildirdi. İNK-nın sədri, ictimai xadim Rasim Məmmədov tədbir iştirakçılarını salamlayıb onlara işlərində uğurlar dilədi.

**XIRDALANDA TƏDBİR**

Abşeron rayonunun İcra Hakimiyyətinin təşkilatçılıgı ilə Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində tanınmış oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99 illiyi təntənəli qeyd olundu. Tədbirdə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdın Fərzəliyev başda olmaqla hüquq – mühafizə orqanlarının rəhbərləri, səhiyyə, təhsil kollektivləri, şəhid ailələri, qazilər, rayon ictimaiyyəti iştirak edirdilər.
Tədbir iştirakçıları ulu öndərimizin, Zərifə xanımın və Azərbaycanın ərazi bütövlüyü ugrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükütla yad etdilər. Çıxış edən İH başçısı Abdin Fərzəliyev, YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev, həkim oftalmoloq Elnarə Hüseynova, Rayon Agsaqqallar Şurasının sədri Nadir Agayev Zərifə xanımın şərəfli ömür yolundan danışaraq tədbir iştirakçılarına ətraflı məlumat verdilər.

Belə ki, bildiyimiz kimi Zərifə xanım 1923 cü il aprelin 28 -ində həkim Əziz və Leyla Əliyevlərin ailəsində anadan olmuşdur. 1947-ci ildə N.Nərimanov adına Tibb İnstitunu,1953 cü ildə isə aspiranturanı bitirərək tibb elmləri namizədi, sonra isə tibb elmləri doktoru adını almışdır.
Zərifə xanım oftalmologiya elminin inkişafında xüsusi xidmətləri olmuşdur. 1980- cı ildə Azərbaycanın Əməkdar Elm Xadimi,1981- ci ildə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafata layiq görülmüş ilk qadındır.

Çıxış edən Abşeron Rayon İH başçısı Abdin Fərzəliyev qeyd etdi ki, bu gün Zərifə xanım Əliyevanın ruhu şaddır. Ona görə ki, siyasətimizin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyev

tərəfindən ugurla davam etdirilməsi nəticəsində 30 il işgal altında qalan dogma torpaqlarımız 44 günlük Vətən müharibəsində Zəfər çalaraq düşmən tapdagından azad edilmişdir. Və hazırda Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti sənab İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü və planlı şəkildə ulu yurdumuz Qarabagda genişmiqyaslı abadlıq və quruculuq işləri sürətlə həyata keçməkdədir.
Digər çıxış edənlər; YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev, həkim oftalmoloq Elnarə Hüseynova, Rayon Agsaqqallar Şurasının sədri Nadir Agayev Zərifə xanım Əliyevanın elmi fəaliyyətindən, gözəl ailə başçısı, nəcib, mərhəmətli bir ziyalı olmasından danışdılar….
Tədbirin bədii hissəsində hələ kiçik yaşlarından tanınmış, Prezident təqaüdçüsü Amil Həsənoglunun ifasında Zərifə xanımın qızı Sevil Əliyeva tərəfindən bəstələnmiş məşhur “Ana” mahnısı dinlənildi. Sonda xatirə şəkilləri çəkildi.

**XATİRƏ TƏDBİRİ**

Yasamal rayon Heydər Əliyev Mərkəzi və Cəfər Cabbarlı ev Muzeyi birlikdə Ulu öndər Heydər Əliyevin anadan olmasının 99- cü ildönümünə həsr olunmuş "Böyük şəxsiyyət "adlı tədbir keçirildi.

Mərkəzin Muzey böllməsi ilə tanışlıq, ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyuldu

Giriş sözün Yasamal rayon Heydər Əliyev Mərkəzinnin direktoru Naminə Ömərova açdı.

Ümummilli lider Heydər Əliyevin əziz xatirəsnin 1 dəqiqəlik sükutla yad edildi.
Azərbaycanın Dövlət himni səsləndirildi.

Çıxış üçün qonaqlara söz verildi.

Qəmər Bagırova Cəfər Cabbarlının ev Muzeyinin direktoru,
Rasimə Əhmədova M. S Ordubadi baş fond mühafizəsi,
Lamiyə Balıyeva M. S Ordubadi ev Muzeyinin bələdçisi,
Təranə Alməmmədova Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi, Sabitlik və İnkişaf Mərkəzi Qəbələ rayon numayəndliyinin rəhbəri,
Nəzakət Kərimova Yazarlar jurnalının əməkdaşı,
Zərəngiz Qayalı Şairə publisist jurnalist,
Rəsmiyyə Heybətaga qızı,
Ruqiyyə Quluyeva 2 nömrəli Tibb Kollecinin YAP sədri Aktual Tədris mərkəznin Direktoru,
Nərman Nərimanovun ev muzeyinin əməkdaşları iştirak etdi.

Ulu öndər Heydər Əliyevin Cəfər Cabbarlı abidəsi ilə bağlı xatirələrindən ibarət video -rolik izləndi.

Cəfər Cabbarlının vətənpərvərlik mövzusunda olan şeirlərinə bəstələnmiş Bülbülün ifasında Ölkəm romansı , T. Agayevanın ifasında Azərbaycan bayrağına həsr olunmuş Sevdiyim mahnılar kliplərininin nümayiş oldu.

## ŞƏHİD RAMİQ MİKAYILOV ANILIB

Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi (DAMM), Sabitlik və İnkişaf İB-nin (SİM İB) üzvüləri Gülzar ananın dəvəti ilə Biləsuvarda şəhid baş leytenant Ramiq Mikayılovun anım günündə iştirak etmişlər. Gülzar ana oğlu haqqında fəxrlə danışır və bütün şəhid analarına səbr diləyirdi. Tədbirdə Biləsuvarın icra başçısı başda olmaqla rayonun məsul işçıləri, rayonlardan və Bakıdan gəlmiş şəhid anaları da iştirak edirdi. Məktəblilər şəhidlərə həsr olunmuş şeirlər və mahnılar ifa etdilər. Sonra xatirə lövhəsi önünə tər çiçəklər qoyuldu.

**Şəhid baş leytenant Ramiq Mikayılov haqqında**

Şəhid baş leytenant Ramiq Mikayılov 1993 cü il yanvarın 25 - də Şamaxı rayonunun Ovçulu kəndində anadan olmuşdur. 1999-2007ci illərdə B.Alıyev adına Ovçulu kənd tam orta məktəbində, 2007-2010cu illərdə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Ali hərbi təhsilini 2010-2014-cü illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbdə almışdır.

2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin Agdam rayonunda yerləşən "N"saylı hərbi hissəsində zabit kimi xidmət edirdi.
Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Ramiq Mikayılov 2020-ci il sentyabrın 27 -dən Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda aparılan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı ugrunda gedən qızğın doyüşlərdə iştirak edib.

Ramiq Mikayılov sentyabrın 30-da Xocavənd döyüşləri zamanı şəhid olub.
Doguldduğu Şamaxının Ovçulu kəndində torpağa tapşırılib.
Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda

döyüş əməliyyatlarına qatılan və hərbi hissənin qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan prezidenti İlham Əliyevin 15.12.2020 ci il sərəncamına əsasən Ramiq Mikayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyinə və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il sərəncamına əsasən Ramiq Mikayılov (ölümündən sonra) "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunmuşdu.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bnərp edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Ramiq Mikayılov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 05.11.2021 tarıxli sərəncamına əsasən Ramiq Mikayılov (ölümündən sonra)" Azərbaycan Bayrağı"ordeni ilə təltif olundu.
Ramiq Mikayılov (15.07 2014-cü ildə) "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi"yubiley medalı, (26.06.2018 )" Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə də təltif edilmişdir.

Şəhidimiz Ramiq Mikayılov evli idi. Vətənə bir oğul övladı yadıgar qaldı.

**M.S.Ordubadinin 150 illiyinə həsr olunmuş tədbir keçirilib**

Yasamal MPS-nın X.B.Natəvan adına 4 saylı kitabxana filialı nəzdində fəaliyyət göstərən S.Vurğun poeziya ocağında M.S.Ordubadinin 150 illiyinə həsr olunmuş tədbir keçirildi. Tədbirdə müxtəlif muzeylərin rəhbərləri , tanınmış ziyalılar iştirak edirdilər . Tədbiri giriş sözü ilə poeziya ocağının direktoru Zərəngiz xanım açdı. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sözü ilk olaraq M.S.Ordubadi muzeyinin direktoru, Əməkdar Mədəniyyət İşçısı Lalə Abaszadəyə verdi.

Lalə xanım ədibin həyat və fəaliyyəti haqqında,onun yaradıcılıgında “Molla Nəsrəddin” jurnalının rolundan ətraflı söhbət açaraq dinləyicilərə maraqlı məlumatlar verdi. Ədibin “Dumanlı Təbriz”, Döyüşən Şəhər”, “Gizli Bakı”, “Qılınc və Qələm”, “Qanlı İllər” və s. digər əsərləri və gizli imzalarla “Molla Nəsrəddin “jurnalında “Qəflət” şeirinin dərcindən danışdı. Bu jurnalda 25 il ədəbi fəaliyyəti müddətində M Ə.Sabir, Ə.Haqverdiyev və digər şair, yazıçıların da yazılarının çap olunması, xalqın qəflət yuxusundan oyatmalrı üçün çalışmarı qeyd olundu . Ədib hələ 1905-ci il qadın azadlığından bəhs etmişdi.

Tanıinmış rus ədibi M.Qorki yazırdı: “Şəxsiyyət ilə yaradıcılığı arasında üzvi bağlılıq olmalıdır. Pis adam yaxşı əsər yaza bilməz. Yaxşı əsərləri yaxşı adamlair yazar…”

Əməkdar İncəsənət Xadimi, tarixi romanlar müəllifi, yazıçı-dramaturq, jurnalist M.S.Ordubadinin əsərləri 7 may 2019 cu ildən “Dövlət varidatı” siyahısına aid edilib. Xüsusən”Dumanlı Təbriz”, (5 hissəli) “Qılınc və Qələm” (2 hissəli) yenidən nəfis şəkildə nəşr olunaraq oxucuların ixtiyarına verilmişdir

Sonra söz kitabxananın direktoru, Şəhid Vüsal Babayevin həyat yoldaşı Aynur Babayevaya verildi. O, şəhidlərə göstərilən dövlət qayğısından danışaraq ölkə başçısına dərin minnətdarlığını bildirdi, toplaşanlara ədibin yubileyinin təntənəli şəkildə dövlət səviyyəsində qeyd olunmasını arzuladı.

Söz “Dünya Türk Ocaqları Genel Mərkəzin” başqanı Aygün İbrahimovaya və həmin Mərkəzin”Qadın Qolları” mediya başqanı Validə Vəliyevaya verildi.
Maraqlı keçən tədbirdə “Cabir Novruz” Fondunun əməkdaşı, “GünAz” saytının redaktoru Rəsmiyyə Heybətağa qızı və digər çıxış edənlər öz fikirlərini toplantı oiştirakçılarına çatdırdilar. Sonda M.S.Ordubadi” muzeyinin əməkdaşı Rasimə Əhmədova toplantı iştirakçılarına minnətdarlığını bildirdi.

## İBRAHİM ŞAFİ

Dünya şöhrətli rəssam İbrahim Safinin Avropadakı həyat və yaradıcılığının öyrənilməsi Türkiyədə davam etdirilir.
Bakı- İstanbul 14 03.2022
Azərbaycan Respublikasının Qeyri Hökumət Təşkilatlarına Dövlt Agentliyinin dəstəyi ilə Milli Mədəniyyətin Təbliği ictimai birliyi dünya şöhrətli rəssam İbrahim Safinin Avropada yaşadığı dönəmi tədqiq edir .
Təşkilatın rəhbəri filologiya üzrə fəlsəfə doktoru. Jalə Cəfərova ilk addımını Türkiyədən başladı. Niyə məhz Türkiyədən sualına. " İbrahim Safi ömrünün 65 ilini Türkiyədə yysşahıb. 39 ildir dünyasını dəyişən böyük sənətkar haqqında məlumat əldə etmək çox çətindir. Ancaq xoşbəxtlikdən onun haqqında hələ lap gənc yaşlarında mətbuatda daim məqalələr yazımış bu gün də sayğlyla xatırlayan Moşe Qrosman və 89 yaşlı ailə dostu, uzun illər İbrahim Safinin icazəsiylə imzasını
çəkən Həbib Gerazdan , rəssam Timur. Taştekindən faydalı məsləbətlər almalıydım və ala bildim.

Növbəti səfər. Yunanıstan və ardından Paris olacaq. Bütün toplanan bilgilər layihənin sonunda kitab şəklində oxuculara təqdim olunacaq.

**Qəbələdə kitab təqdimatı**

24.02.2022. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Qalib Nəbiyevin təşkilatçılığı ilə şəhidlərə həsr olunmuş “Kiçik dünyanın böyük insanları” kitabının təqdimatı keçirilib.

Kitabda 1-ci Qarabağ müharibəsində son nəfəslərinə qədər silahlarını əllərindən yerə qoymayan , hətta azyaşlı övladlarını Allaha əmanət edərək “Vətən dardadırsa mən evimdə necə rahat yaşaya bilərəm?” deyib bir daha isti ocaqlarının başına keçməyən doqquz mərd oğullardan danışılır.

Yüksək səviyyədə hazırlanmış təqdimatı idarə edən və giriş sözüylə açan Qalib Nəbiyev bütün tədbir iştirakçılarını,şəhid ailələrini ,eləcə də kitabın müəllifi Jalə Cəfərovanı, kitabın redaktoru Göyçayın sonuncu Xalq Deputatları Sovetinin rəhbəri vəzifəsində çalışmış, 1989- cu ildən Göyçay könüllülər batalyonu yaradaraq ona rəhbərlik etmiş ,döyüşərək dəfələrlə yaralanmış Qarabağ qazisi Rövşən Əhmədlini salamladı.

Qalib bəy həm 1 –ci Qarabağ həm də Vətən müharibəsində tarix yazan mərd atalarımızdan,oğullarımızdan danışdı. “Şəhidlərimizin xatirəsini təkcə yaşatmaqla deyil,keçdikləri şərəfli yolu tanıdıb təbliğ etməyi hər zaman özümüzə borc bilmişik və bundan sonra da belə olacaq. Belə oğulların hər birinin valideyni də bir qəhramandır. “ Müəllif Jalə Cəfərova “ Sizlərlə artıq elə doğmalaşmışam ki sanki ailənizin bir üzvü də mənəm. Sizləri gördüyüm ,söhbət etdiyim ,kövrək xatirələrinizi mənimlə bölüşdüyünüz ilk andan içimdəki səs “ Bu igidlərin də,onları böyüdüb başa çatdıran valideynlərin də mənəvi dünyası,vətənə olan sonsuz,təmənnasız sevgisi yaşadığımız dünyanın yanında çox həm də çox böyükdür” Elə bu hisslərə köklənərək heç düşünmədən kitabın adını “Kiçik dünyanın böyük insanları “adlandırdım. Zalda xeyli gənc görürəm bu məni çox sevindirdi. Sözüm əsas sizədir. Bu vətəni qanları bahasına sizlər üçün ,gələcək nəsillər üçün qorumalısınız. Hansı birinizə şəhidlərimizlə bağlı sual verilsə ən azı beşinin adını əzbər bilməlisiz. Mən Qəbələni həməşə sevmişəm ,burdakı füsunkar mənzərə,dünyanın hər yerində adı hörmətlə çəkilən alimiylə ,ziyalısıyla sevinmişəm. Ancaq təkcə polad qeyrətli,polad iradəli general –mayor Polad Həşimov adı kifayət edir ki qürurla “Mən Qəbələdənəm ,o Qəbələdən ki Polad Həşimovun dünyaya göz

açdığı məkandır Qəbələ".
Bu cümlələr zalda xeyli alqış sədalarına səbəb oldu. General-mayor Polad Həşimovun adı çəkilən zaman ayaqüstə alqışlar xeyli davam etdi
Sonra söz Rövşən Əhmədliyə verildi. " Mən şəhid anaların qarşısında baş əyirəm." Deyən Rövşən bəy 1997 –ci ildə düşmənə əsir düşməmək üçün özlərini qucaqlaşaraq partladan səkkiz kəşfiyyatçıların keçdiyi şərəfli döyüş yolundan danışdı. Rövşən bəy həmçinin təqdimatı düzənləyən Qalib Nuriyevə,Qəbələ Dövlət Prşə Təhsil Mərkəzi Tərbiyə işləri üzrə direktor müavini Reyhan xanım Məmmədovaya,direktor köməkçisi Bəhruz Osmanova təşəkkür etdi.
Şəhid ailələrinə söz verildi. Teymur Rəhmanov ,Xədicə xanım (Tofiq Rəhmanovun atası və bacısı),Ayşən Məmmədova(Elşən Məmmədovun bacısı) Bahar xanım(İlyas Məsimovun qızı) Akif Qəribov ,Faiq Səfərli(Nemət Qəribovun atası və müəllimi)İbrahimxəlova Sevil,(İbrahimxəlilov Qüdrətin xanımı) Nahidə ana(Elçin Orucovun anası) Osmanov. Şahvələd ( Pərviz Osmanovun atası) Bəhəryaz xanım ,Şahid ,Asəf Kərimovlar(Həyat yoldaşı,oğlu və qardaşı) çıxış edərək təşəkkürlərini bildirərək duyğularını paylaşdılar.
Səkkiz igid kəşfiyyatçılara həsr olunmuş "Fədai şəhidlər "mahnısını zalda izləyən heç kəsi biganə qoymadı,mahnı sonacan alqışlarla müşayət olundu.
Son olaraq Qalib bəy hər iki qonağa Jalə Cəfərovaya,Rövşən bəyə üstündə Xarı bülbül rəsmi olan hədiyyə təqdim etdi. Bütün iştirakçılarla xatirə şəkli çəkildi.

## BALAYAR SADİQ VƏ ÜLKƏR NİCATLI "ŞƏHİD ƏTRİ" ADLI YENİ KİTAB TƏQDİM EDİBLƏR

Bu gün AYB-nin "Natəvan" klubunda Balayar Sadiq və Ülkər Nicatın şeirlərinin yer aldığı "Şəhid ətri" adlı şeirlər kitibanın təqdimatı keçirilib. Tədbirin gedişində eyni zamnda gənc sair Ülkər Nicatın "Gülümsə, Qadın" adlı şeirlər kitabı da oxuculara təqdim olunub.Təqdimatı giriş sözü ilə AYB-nin katibi Elçin Hüseynbəyli açdı və kitabın ərsəyə gəlməsində əməyi olanlara ugurlar arzuladı.

Sonra sözü tədbirə aparıcılıq edəcək AYB və AJB- nin üzvü, Prezident mükafatçısı, Beynəlxalq Rəsul Rza mükafatı laureatı,"Yurd"jurnalının baş redaktoru Balayar Sadiqə verdi.

Tədbirdə respublikamızın müxtəlif rayonlarından gəlmiş poeziya həvəskarları , Ülkər xanımın dil ədəbiyyat müəllimi Lənkəranın Şürük kəndindən gəlmiş Gülarə müəllimə, sevimli sairimiz Baba Vəziroglu, mügənni Manaf Agayev, şairlərdən Faiq Balabəyli, Qəşəm Nəcəfzadə, Fəxrəddin Teyyub, Vasif Süleymanov, Mehman Göytəpəli, Fazil Ateş, Ədalət Əroglu, Vüsal Ağa, Şəhid bacısı Maya xanım, Sevil Gül Nur(Yardımlı), Aysel Səfərli, Əli Əlibəyli (Neftçala), Muxtar Kətimzadə, Ziyafət Əsgərov, Rəfiqə İsaq, Arzu Heydərova, Nəcibə İlkin," Yurd" jurnalının əməkdaşları və digər ziyalılarımız ürək sözlərini söyləyərək müəllifə və redaktora ugurlar diləmişlər. Rəssam Natiq Nəcəfzadə Ülkər xanımın portretini ona hədiyyə etmişdir.

Sonda "Yazarlar"jurnalı adından klassik irsimizin təbliğində fəal iştirakına görə şair Balayar Sadiqə "Nizami Gəncəvi" diplomu və Ülkər Nicata isə "Ziyadar" Mükafatı təqdim olundu.

**ZAUR İSMAYILZADƏ**

Onlardan biri – Zəfər yolunda şəhid olmuş Zaur Ismayılzadənin anım mərasiminə toplaşanlar ilk öncə " Şəhidlər Xiyabanı"nda uyuyan qəhrəman Vətən fədailəri olan şəhidlərimizi ziyarət edərək onların məzarları önünə tər qərənfillər düzdülər….
Ziyarət sönməz Məşəlin önündə davam etdi..
Tədbirin təşkilatçısı " Müharibə Veteranı Qadınlarına Sosial Yardim"IB – nin sədri-Müharibē Veteranı, qazi Radə Abbas burada iştirak edən şəhid anaları,qazilər ,QHT nümayəndələri,media əməkdaşları ,ictimaiyyētin nümayəndələri qarşısında çıxış edərək şəhidlərimizin keçdikləri şanlı döyüş yolundan danışdı…
Xırdalan şəhər 2 nömrəli məbin şagirdlərinin şəhidlərimizə həsr olunmuş çıxışları hamını kövrəltdi…..
Tədbir" Şəhid Ailələrinə Qaygı" IB – nin ofisində davam etdirildi..

Burada Zaurun döyüş yoldaşları,müharibə veteranı olan qazilər, şəhid anaları,Zaurun anası qazi Sevil xanim və qohumları, media nümayəndələri iştirak edirdi…
Tədbir şəhidlərin xatirəsini bir dəqiqəlik sükütla yad etməklə davam etdi..
"Respublika Müharibə Əlilləri"IB-nin sədri Firudin Məmmədov Vətən Müharibəsində Zaur kimi gəncləri vətənpərvər ruhda tərbiyə edib böyüdən analara öz minnətdarlıgını bildirdi….
Çıxış edənlər–"Şəhid Ailələrinə Qaygı"cəmiyyətinin sədri, "Respublika "Ana Vətən" Xeyriyyə firmasınįn prezidenti,Milli Azadlıq hərəkatının qəhrəmanı Müşfiq Əliyev, Gülpəri xanın, şəhid Elşadın anası Flora xaniim,Afaq xanim,şəhid Elcan Hüseynovun anası Mətanət Məhərrəmova AzTV-nin əməkdaşı, taninmış şair Mübariz Süleymanli,istefada olan polkovnik, yazıçı- publisist Azər Hacıbəyli,"Vətən Sag Olsun"layihəsinin

sədri R.Hüseynova və layihənin könüllüləri- Əli və Zəhra,şəhid Zaurun dayısı Rafiq müəllim çıxışlarında Zaurla baglı xatirələrini kədərlə andılar…..
Azərbaycan Respublikası"Şəhid Ailələrinə Yardım və Hüquqlarının Müdafiəsi"IB-nin əməkdaşı yazıçı — publisist Nəcibə Agamalıyeva Ictimai Birliyin Fəxri Diplomunu və 44 günlük müharibədə şəhid olmuş qəhrəman ogullarımıza həsr etdikləri (Gülpəri xanımla)"Əsrimizin Qəhrəmanları" Xatirə kitabını Zaurun anası Sevil xanıma hədiyyə etdi…
Şəhid anaları bəzi problemlərlə baglı öz iradlarını tədbirin rəhbərliyinə bildirdilər….
Zaur Ismayılzadəyə həsr olunmuş "Şəhid Taleyi"sənədli filmini ərsəyə gətirən rejissor Nadir Rzayev,şəhidin anası Sevil xanım,təşkilatın sədri Radə Abbas bir daha tədbir iştirakçılarına minnətdarlıq etdilər…
Ertəsi gün– Zaurun dəfn olunduǵu gün oktyabrın 9-u Lənkərandakı "Kirov sovxozu"adlanan(Niyə hələ də Kirov?Qəhrəmanlar vē ya Źəfər sovxozu olmazmı????)kənddə onun və eyni zamanda şəhid olmuş yoldaşlarının da məzarlarını ziyarət edib tər çiçəklərlərlə bir daha onları yad etdik…
Zaurun döyüş yoldaşları olan iki qardaşın da buraya gəlişi hamını aglatdı…..
Şəhidlərin şərəfinə açılmış "Xatirə kompleksi" bulagı bu kəndin Vətən müharibəsində şəhid olmuş 12 şəhidinin xatirəsini əbədiləşdirmək üčün təşkil olunmuşdu…..
Bəli, şəhidlər ölməzlərdir və onların ruhları daim başımızın üzərində–Uca Tanrımızın yanindadir…
Analar bilsinlər ki , bu ogullar onların bioloji ogullarıdır.Onlar həm də bizim unudulmaz Ogullarımızdır!!
Onlar Zəfər qartalları , Qələbə şahinləridir!!!
Şəhidlər ölməz,Vətən bölünməz!!!
Alllah rəhmət eləsin ,məkanınız cənnət olsun. Amin.

**Mirvarid Dilbazinin 110 illiyi**

Dünən avqustun 7-sində Xudafərin Şadliq Sarayında M.Dilbazi Poeziya Məclisi və Dirili Qurbani Məclisinin birlikdə təşkilatçılıgı ilə Azərbaycanın ilk qadın xalq şairi Mirvarid Dilbazinin 110 illiyinə həsr edilmiş yubiley tədbiri keçirildi.
Tədbiri giriş sözü ilə Dirilli Qurbani Məclisinin sədri Yusif Dirili acdı.O, D.Qurbaninin “Bənövşə”şeirini söylədi.Sonra sözü D.Qurbani Məclisinin elm bölməsinin rəhbəri Tariyel Abaslıya verdi.O, bu məclisin uzunmüddətli fəaliyyətində bir çox şairlərin həyat və yaradıcılıgının işıqlandırıldıgını və bu gün isə Azərbaycanın ilk qadın xalq şairi M.Dilbazinin110 illiyinin qeyd olundugunu elan etdi.
M.Dilbazi Poeziya Məclisinin sədri Güllü Eldar Tomarlı M.Dilbazi yaradıcılından, onun xüsusi önəmliyindən danışdı və sözü D.Qurbani Məclisinin təşkilat işləri üzrə rəhbəri Malik Əhmədogluya verdi.Ondan sonra “Nur Ocagı” Ədəbi Məclisi, şairlərdən Səadət Buta, Aqşin Agkəmərli ,Südabə Irəvanlı,Tahir Şirvanlı,Nəcibə Ilkin,Şərqiyyə Süleymanova ,Qəzənfər Məsimoǵlu,Mənzurə Qaçayqızı, Firudin Şahbuzlu ,Tahir Baǵırov adına 59 saylı məktəbin şaǵiirdləri çıxış etdiilər..
DAMM vəSIM IB – nin Fəxri üzvü, “Yazarlar”jurnalının əməkdaşı,AJB-nin üzvü,”Xarıbülbül”Ədəbi Məclisinin sədri Nəzakət Kərimova Əhmədovaya söz verildi.O,xalq şairinin yaradıcılıǵından danışdı və yaradıcı şairə Yadigar Təvəkgülün “Səni unutmarıq şair Mirvarid”şeirini söyləyərək hərbi polkovnik – şair Ramiz Duygunun “Qalibiyyət Dastanı”kitabını Güllü xanıma hədiyyə verdi.
Tədbir iştirakçıları arasında Azərbaycanın Milli Qəhrəmanı aǵdamlı Allahverdi Baǵırovun qardaşı Millli Qəhŕəman Eldar Bagırovun könüllü batalyonunda bir neçə dostu ilə birlikdə 1992-93cü illərdə “Qara Qaya” deyilən əraziyə gələrək yüzlərlə Xocalı sakininin mühasirədən çıxmazına kömək etmiş,xeyli yaralının döyüşdən çıxarılmasında fəal iştirak etmiş, əsir və girov götürülmüş Xocalı sakinlərinin azad olunmasında yaxından iştirak edərək öz qorxmazlıǵı və cəsarəti ilə fərqlənmiş Arif Vəli oglu Məhərrəmovun olması və maraqlı məlumatları iləXocalı soyqırımına dair söylədikləri hamini təsirləndirdi…..O,vaxtiilə ona verilən Milli Qəhrəman adından imtina etmişdi…..

Arif Məhərrəmov 20 yanvar , Qarabag qazisi, Xocalı döyüşləri veteranı olmaqla II qrup müharibə əlili,Çeçenistanın Milli Qəhrəmanıdïr…
Haqqında “Zəngəzurun səsi”qəzeti xüsusi buraxılışını məhz Arif Məhərrəmova həsr etmiişdir.
Arif müəllim tədbirlə baglı təəssüratlarını da bölüşərək hamıya təşəkkür etdi
Sonda xatirə şəkilləri çəkildi.

**“Içərişəhər”Dövlət Tarix-Memarlıq Qorugu”NUR Art House”**

“Içərişəhər”Dövlət Tarix-Memarlıq Qorugu”NUR Art House”qalareyasında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2022- ci il “Şuşa ili”nin elan olunması ilə əlaqədar bir – birindən maraqlı tədbìrlər həyata keçirilir Belə ki ,gənclərimizin çəkdikləri rəsm əsərlərindən ibarət –Sevil “Səmaya dönüşün təbəssümü”sərgisindəki əsərlərini anasının xatirəsinə həsr etmişdi.Üç gün davam edən həmin sərgidə gənc rəssamların bir - birindən maraqlı,gözəl əsərləri rəssamların daxili aləmini əks etdirirdi.Eyni zamanda heykəltəraşlıq və qrafik işlər də nümayiş etdirilmişdi…
“Qurama:Əsrlərin kəsişməsində nəsillərin baxış bucagında” adlı sərgi isəTarix-Memarlıq Qorugu Idarəsi,Azərbaycan xalçacıları”IB və NUR Art House”qalareyasının birgə tədbiri idi.Burada da mövzu ilə baglı rəngarəng əl işləri nümayiş etdirildi..
Sentyabrin11-də növbəti tədbirin iştirakcısı olduq..
Bu tədbir “Yanar daǵ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruǵu və “Miras”Mədəni Irsin Öyrənilməsinə Kömək Ictimai Birliyi sənətsevərləri ilə birgə “Şuşa ili “çərçivəsində təşkil olunan “Vətən baǵı”adlı dekorariv-tətbiqi sənət satış-sərgisinə həsr olunmuşdu. Xalqimizin milli ənənələrini özündə bədii şəkildə əks etdirən dekorativ- tətbiqi sənət,eyni zamanda onun milli kimliyinin, etnoqrafik yaddaşının daşıyıcısıdır. Bu xüsusiyyəti nəzərə alaraq dogma yurdumuzun min illərdən bəri gələn bir çox bədii və estetik sənət ənələrini yaşadan sərǵinin təşkili tamaşacıların zövqlərini oxşadi.. Sənətsevərləri Içərişəhərdə qarşılamaga üstünlük verən “NUR Art House” qalareyası isə bu dəfə ekspozisiyasının bəzi nümunələrini məhz açıq səma altında ,Yanardaǵda qurmaqla,tamaşaçıları paytaxtımızın gəzməli-ǵörməli yerlərini, tarixi, təbiət və mədəniyyət abidələrini tanımaǵa dəvət etdi.Məkan olaraq Yanar daǵın seçilməsi də ” Vətən baǵı”nı öz hərarəti ilə canlandıran Odlar ölkəsinin təbiətinə xas harmoniyanın sənətdə təcəssümünü təqdim etmək idi. “Vətən baǵı” adlı bu sərgi milli mədəniyyətimizin ən əsas məkanlarından olan Qarabaǵın azad edilməsinə hesr olunmuşdu.Sərginin əsas qayələrindən biri Qarabaga məxsus estetikası ilə seçilən dekorativ-tətbiqi sənət nümunələri vasitəsilə mili

ənənələrin yenidən dirçəldilməsi və təbliǵidir.
Bildiyimiz kimi,30 iiə yaxın həsrətdən sonra müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri ilə Qarabaǵ düşmən tapdaǵından azad oldu.Məhz bu qələbəni və dəyərləri əbədiləşdirmək məqsədilə Prezidentimiz 2022 ci ili “Şuşa ili” elan etdi. Azərbaycan tarixində özünəməxsus əhəmiyyətə malik olan Şuşa şəhərinin simvoluna cevrilən Xarıbülbül bir növ milli mədəniyyətimizin ən əsas hissəsinə çevrilib.Bu simvol həm ornament kimi xalq tətbiqi sənət nümunələrinin üzərində təzahür edib, həm də musiqi sənətimizə əvəzolunmaz bir ahəng qatıb.Milli mədəniyyətimizi və tariximizi özündə ehtiva edən sərginin adı da bu səbəbdən Xan qızı Agabəyim aǵanın qələmə aldıǵı məşhur “Xarıbülbül” mahnısının ilk sözlərindən götürülüb.
Düşünürük ki, xalqımızın minilliklərdən bəri ərsəyə gətirdiyi həm maddi,həm də qeyri- maddi mədəni irsimizin hər biri sanki Vətən baǵı adlanan bir çəmənlikdə bitən qönçə güldür.Vətən torpaǵından şirə çəkən.müxtəlif vasitələrdən hazırlanan nümunələrin hər biri bir xəzinə qədər böyük dəyərə malikdir. Fikrimizə aydınlıq gətirmək üçün belə bir nümunə cəkə bilərik.Bir aǵacoyma ustasının hazırladıgı əsərdə istifadə etdiyi agac məmulatı bu torpaqdan yetişib,yəni ucsuz- bucaqsız baǵının töhfəsidir.Elə ona görə də sənətkarın hazırladıǵı bu əsər dolayı yolla bu baǵın məhsuludur.
Bu sərginin yerləşdiyi məkan olan “Yanardaǵ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruǵu öz növbəsində zəngin tarixi irsi ilə vətənimizin həm yaşayış, həm də qədim mədəniyyət məkanlarına sahib oldugunun bir sübutudur.
Gunay Rzayeva,Günel Aslanova və Anar Ibrahimovun kuratoru oldugu “Vətən baǵı” adlı dekorativ-tətbiqi sənət sərgisi sentyabrın 11-ində tamaşaçıların üzünə acıldı.
Burada , həmçinin həm öyrənmək, həm də ustalarımızın bu əsərlərini almaq imkanı da oldu.
Günel xanimin və Anar Ibrahimovun çixişlarindan sonra öz ifaları ilə hamını valeh edən Abşeron Mədəniyyət evinin konsert qruppasının möhtəşəm proqramı alqışlarla qarşılandı.Tədbiri ITV kanalı işıqlandırdı..
Həmişə oldugu kimi sonda xatirə şəkilləri çəkildi.

**TÜRKİYƏ AZƏRBAYCAN BİRLİYİ.**

Ötən gün "NUR Art House"qalareyasında Izmir Iqtisayiyyat Universitetinin Incəsənət və Dizayn kafedrasının müdiri,fəlsəfə doktoru, professor Elvan Özkavruk Adanırın əsərlərindən ibarət"Tekstil sənətində seçilmiş əsərlər" adlı sərginin açılışı oldu.
Sərgini giriş sözü ilə qalareyanın əməkdaşı Gülşən xanım Hüseynova rəhbərlik adından iştirakçıları salamladı.
Vətən ugrunda gedən haqq savaşında həlak olmuş bütün şəhidlərimiz bir dəqiqəlik sükutla yad edildi.
Gülşən xanım sərginin sentyabrın 19 na kimi davam etdiriləcəyini elan etdi.Sonra söz professor Elvan Özkavruka verildi.O, bu sahədə gördüyü əməli işləri barədə ətraflı məlumat verdi.
Yeri gəlmişkən tanınmış sənətçi və tədqiqatçı Elvan Özkavruk Adanır tekstilin gündəlik həyatda böyük əhəmiyyət kəsb etdiyi Türkiyədə yaşayıb , yaradır. Qitələrin kəsişməsində, mədəni müxtəliflikdən qaynaqlanaraq heterogen elementlər toplusuna çevrilən zəngin mədəniyyətə malik qardaş ölkədən dünyaya səslənən sənətkar əsərlərini müxtəlif üsullardan istifadə etməklə tamaşaçıya çatdırır.Rəqəmsal çap, ekran çapı, tikmə, toxuculuq, keçə istehsalı və s.üsullarla özünü ifadə edir.Sənətkar yaradıcılığında multikultural ənənələr vasitəsilə bəşəriyyəti narahat edən uşaq istismarı,qadınlara və uşaqlara qarşı fiziki zorakılıq,erkən nigahlar kimi problemlərə diqqət çəkməyə çalışır.
Sənətkarın yaradıcılığının ana xəttini vətəninin multikultural mahiyyətinin nümayişi, ənənəvi tekstil texnikalarının müasir şərhinin təqdimatı təşkil edir.
Qeyd edək ki,Elvan Özkavruk Adanır Ege Universiteti Mühəndislik fakultəsini Tekstil mühəndisliyi ixtisası üzrə bitirib."Dokuz Eylül"Universitetinin Sosial Elmlər Institunda 1992-ci ildə magistr dərəcəsini,1997-ci ildə Incəsənətdə Yetərlilik dərəcəsini alib.1999-cu ildə fəlsəfə doktoru, 2002-ci ildə dosent,2008-ci ildə professor olub.Ərsəyə gətirdiyi bir çox kitabdan əlavə, kitab bölmələri və məqalələr dərc etdirib, bir sıra beynəlxalq biennale və sərgilərdə iştirak edib.2011-ci ildən Izmir Iqtisadiyyat Universitetinin Incəsənət və Dizayn Fakultəsinin Tekstil və Moda Dizaynı kafedrasının müdiri vəzifəsində çalışır.

Söz respublikamızın xalçaçı rəssamı Eldar Hacıyevə verildi .O,bu sərginin əhəmiyyətindən danışdı.
DAMM vəSIM IB -in Fəxri üzvü," Yazarlar" jurnalının əməkdaşı,"Xarıbülbül"ƏM-nin sədri ,AJB-nin üzvü,yazar-publisist Nəzakət Kərimova Ehmədli professor Elvan xanima sənət yaradıcılıgında yeni-yeni ugurlar arzulayaraq Azərbaycan-Türkiyə qardaşlıgının sarsılmaz birliyini ziyarətçilərin nəzərinə bir daha çatdırdı və sərgidən məmnun oldugunu bildirdi. O,qeyd etdi ki,növbəti sərgilərə də tamaşaçı ehtiyacının olacagi hiss olunur….
"Cabir Novruz"Mədəniyyət Fondunun idarə heyətinin üzvü," Gün Az.az saytının redaktoru, "Qızıl Qələm"media mükafatçısı Rəsmiyyə Heybətaga qızı B.Vahabzadənin Azərbaycan-Türkiýə qardaşlıgına,birliyinə həsr etdiyi "Bir ananın 2 oglu
Bir agacın 2 qolu
O da ulu, bu da ulu
Azərbaycan- Türkiyə.." şeirini səsləndirdi.Tədbir iştirakçıları onun çıxışını alqışlarla qarşıladılar…
Sonda Elvan xanım ziyarətçilərə dərìn minnətdarlıgını bildirərək xatirə şəkilləri çəkdirdi….

***19.09.2022. Baki.***

## Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi (DAMM)

Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzində(DAMM)tanınmış ziyalılar,xarıcı ölkələrdə yaşayan həmkarlarımız,yazıçı,şair,elm və incəsənət adamları ilə keçirilən hər bir görüş yaddaqalandır.Belə ki bu yaxınlarda Fransada yaşayan türk əsilli yazıçı-şairə,sülh carçıısı **Karolina Levent Turunc** və onun yaxın rəfiqəsi,İstanbulda yaşayan məşhur türk kino aktrisası **Səbahat Adalar** ilə möhtəşəm tədbirlərimiz oldu.Onlarla Mərkəzimizdə təşkil etdiyimiz görüşdə “Yazarlar” jurnalının təsisçisi və redaktoru Zaur Ustac,’Müharibə Veteranı Qadınlarına Sosial Yardım İB -nin sədri Rada Abbas,”Təzadlar”qəzetinin redaktoru Asif Mərzili,həmin qəzetin nəzdində fəaliyyət göstərən tele-studiyanın aparıcısı Yasəmən Məmmədli və digər ictimaiyyət nümayəndələri də iştirak edirdilər. Qonaqlar respublikamızda keçirilən Beynəlxalq konfransdakı çıxışlarından,paytaxtımızın gözəlliyindən,insanlarımızın qonaqpərvərliyindən agız dolusu fəxrlə danışdılar..
Fransalı yazıçı şairə Karolin Turunca ədəbi yaradıcılıgındakı ugurlarına və fəal iştirakına görə DAMM- nin Fəxri Diplomunu təqdim etdik.Yeri gəlmişkən onu da qeyd etmək yerinə düşərdi ki, Karolina xanım Uluslararası Engrellər,Yaşlılar ,Kimsəsizlər, Fedarasyonu UTEF Paris başqanıdır ..O,bir-birindən maraqlı “”Şərqlə Şimal arası”,”Çöl zanbagı”və s.kitabların müəllifi ,İstanbulda dərc olunan “Özgür İfadə”qəzetinin yazarıdır.Təsadüfən həmin gün onun ad günü olduguna görə hər bir kəs onu təbrik etməklə yanaşı hədiyyələr-“Xarıbülbül “döş nişanları ,Rada Abbasın “Zəngəzur:Sabaha hesablanmış işgal” video diski də bagışlandı.
Türkiyənin məşhur kino aktrisası Səbahat Adalara da müxtəlif hədiyyələr-onun xoşladıgı.müxtəlif kitablar,döş nişanı bagışlandı .Sonra aparıcı Yasəmən xanım onları studiyaya dəvət edərək maraqlı yaddaqalan bir veriliş təşkil etdi.
Ardınca onları AYB -nə apardıq.Burada AYB-nin katibi ,hörmətli yazıçımız Elçin Hüseynbəyli xarıcı qonaqlarımızla ədəbi yaradıcılıq sahəsində aparılan işlərdən ,əməli fəaliyyətlərindən maraqlı məlumatllar verdi. Elçin müəllim kino aktrisaya mono tamaşa üçun özünün yazdıgı kitabı hədiyyə verdi.Eyni zamanda Karolin xanıma da öz yaradıcılıgıyla baglı kitab hədiyyə etdi.Qonaq xanımların onları

maraqlandıran suallarına ətraflı cavab verən Elçin müəllim onlara fəaliyyətlərində ugurlar arzuladı.Xatirə şəkilləri çəkildi.
Şəhərimizdə qonaq olan xarici turistləri ilk növbədə tarixi abidələrimiz ,mədəniyyət mərkəzləri, Qız Qalası,İçəri şəhər ,qədim memarlıq nümunələri maraqlandırır. Bunları nəzərə alaraq həmin gün İçərişəhərdə "NUR Art House"qalareyasının dəstəyi ilə "Azərbaycan xalçaçıları"İB- nin üzvü, istedadlı xalçaçı-rəssam Natiq Nəcəfzadənin "Zəfər:qədim və müasir naxışlarda" adlı xalça eskizləri sərgisinin baglanışında iştiraklarını da təmin etdik.
Xovsuz və xovlu xalça eskizləri xalqımızın milli kimliyini və Zəfərə aparan keşməkeşini özünəməxsus bədii ifadəsi ilə həm rəng,həm də sözlə təsvir edərək sülh ,sabitlik,firavanlıq və qəhrəmanlıq keyfiyyətlərimizin təcəssümüdür.Xalça bizim yaşam tərzimizin,Vətənə məhəbbətimizin,iqtisadi durumumuzun,adət-ənənələrimizin canlı obrazıdır.Qonaqlarımız xalçaları seyr etmiş və çıxışlarında gördüklərindən məmnun olduqlarını bildirmişlər.Onu da deyim ki, Karolin x.Turunc Fransaya qayıdan kimi Bakı təəəssüratlarını həm radiodakı çıxışında ,həm də fransada çıxan qəzetdə dərc etdirmişdir.Hal hazıra kimi hər iki xanım bizimlə sıx əlaqə saxlayır,yaradıcı ədəbi ugurlarının sevinclərini bizimlə bölüşürlər.Belə ki ,Karolin xanım Çındə,Misirdə və digər ölkələrdə keçirilən konfranslarda,tədbirlərdə etdiyi hər bir çıxışı haqqında maraqlı məlumatlar verir…..

**Bu günlərdə Sankt Peterburqdan DAMM -nə dəvət**imizi qəbul edib gəlmiş Petroqrad rayonunun Sankt Peterburq üzrə deputatı ,oradakı **Azərbaycan İcmasının sədri Məsimov Sabir**lə keçirdiyimiz görüş də yaddaqalan oldu.Sabir bəy Bakıya sinif yoldaşları.ilə birlikdə.60 illik yubileylərini. birgə keçirmək məqsədilə gəlmişdir…Biz də fürsətdən istifadə edərək onu təşkilatımıza qonaq dəvət etdik.Sabir müəllim ona verilən hər bir sualın dolgun cavabını da verməklə gördüyü işlərdən danışdı…Sonra onun bu sahədə gördüyü işlərlə maraqlananları da məlumatlandırdı.
Belə ki,o,yaşadıgı şəhərdə böyük nüfuz sahibi olmaqla Rusiyanın müxtəlif təltiflərinə layiq görülmüşdür.O,Böyük Vətən Müharibəsində Leninqradın müdafiəsində qəhrəmanlıq göstərən cəsur pilotlların şərəfinə xatirə adidəsinin açılışına nail olmuşdur..Mərmər lövhə

üzərindəki ilk ad Sovet İttifaqı Qəhrəmanı Hüseynbala Əliyevin adıdır.,hansı ki,o həmin yerdə dəfn edilmişdur…
Kompleksin açılışında şəhərin meriyası,tanınmış ziyalılar məktəblilər və ictimaiyyət nümayəndələri fəal iştirak etmişlər.
22 il ard -ardınca Sankt Peterburq üzrə deputat seçılən Sabir bəy Azərbaycan İcmasına da sədrlik edir.Ətraflnda “Xanqızı Natəvan”İctimai Birliyinin sədri Könül xanım kimi bacarıqlı,işgüzar ,yeri gələndə sözünü deyə bilən cəsarətli xanım var…Xanqizi Natəvan”Birliyinin təmsilçiləri müxtəlif ölkələrdə oldugu kimi Azərbaycanda da fəaliyyət göstərir. Bakıda bu birliyin sədri Yasəmən Möhübbətqızıdır..Onu da qeyd edək ki,bu birliyə özünün seçdiyi sahədə ugurları ilə fərqlənən ,tanınmış ziyalılar üzv ola bilərlər.
Sabir bəyin xahişini nəzərə alaraq dünyaşöhrətli yazıçı,MM -in deputatı,hörmətli Çingiz Abdullayevlə görüşünü təşkil etdik.Sabir bəy çapına nail oldugu”İçərişəhər” kitabını Çingiz müəllimə hədiyyə etdi,Çingiz müəlllim də ona və bizə yenicə çapdan çıxmış kitablarını hədiyyə verdi.
Rusiyadakı əməli fəaliyyətinə, orada yaşayan azərbaycanlı soydaşlarımızla yaxın əlaqə saxlayaraq səmərəli fədakarlıgına görə DAMM- nin Fəxri Diplomunu ona Mədəniyyət Mərkəzinin I Vitse-Prezidenti Ruhiyyə xanım Poladova təqdim edərək gələcək işlərində ugurlar arzuladı.
Eyni zamanda Sabir bəylə “Təzadlar”qəzetinin nəzdində olan televiziyanın səriştəli aparıcısı Yasəmən Məmmədli onunla müsahibə apardı və həmin veriliş yutub kanalında nümayiş olunur….
Sonda xatirə şəkilləri çəkildi...

# MÜSAHİBƏLƏR

**SEVİNDİK NƏSİBOĞLU İLƏ SÖHBƏT**

Əziz oxucularım,haqqında söhbət açacağım yaradıcı gəncin poeziyasını, maraqlı çıxışlarını çoxdan izləyirdim.Onun gündən- günə inkişaf edən ədəbi ugurları məni çox sevindirirdi.Belə yaradıcı gənclərimizə olan sevgimdən onunla görüşmək istəyimi reallaşdırmaq istədim və buna nail oldum. Bu görüşdən aldıgım təəssüratlarımı sizinlə bölüşməyi lazım bildim….

**—Sevindik Nəsib oglu kimdir?**

—Mən,Əliyev Sevindik Nəsib oğlu 26 iyul 2008- ci ildə Imişli şəhərində anadan olmuşam.Əslən Agcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndindənik.Hazırda Xırdalan şəhər 9 saylı tam orta məktəbin 9-cu sinfində oxuyuram.

**–Həm də bildiyim kimi dərs əlaçısısan?**

–Bəli.Yazıb oxumaġa həvəsim hələ beş yaşımdan olub.Həm də kompüter proqramlarını öyrənmişəm.Bu ,sonralar mənim vikipediya vasitəsilə bir çox məlumatları toplamaġıma yardımçım olub.

**–-Səni ən çox hansı məlumatlar maraqlandırırdı ?**

–Azərbaycanımızın keçmişi,tanınmış şəxsiyyətlərimiz,sərkərdələrimiz,zənətkarlar,şair və yazıçılarımız……

–Və sən oxuyub öyrəndiklərini yazmaġa başladın….

—Bəli,elə həmin vaxtlardan kiçikhəcmli hekayələr, şeirlər yazmaġa başladım.Artıq 500-dən çox şeirim və 100-dən çox publisistik məqalələrim var.

**—Şeir və yazılarının əsas mövzusu hansı sahələri əhatə edir?**

–Əsasən Vətən,torpaq həsrəti təşkil edir.

**–Mətbuatda yazılàrın nə vaxtdan dərc olunur?**

–2015-ci ildən şeirlərim"Abşeron təhsili"," Respublika xəbərləri",qəzetlərində,"Söz","Kəpənək","Göy qurşagı" və s.jurnallarda dərc olunub.Milli Radiomuzun "Navalça",televiziya kanallarımızın"Pillə","Çixış yolu", "Məhəbbət nəgmələri","Qarabaġ Azərbaycandır" verilişlərində şeirlərim

səsləndirilmişdir…
**–Bildiyimiz kimi, sənin yazıların Azərbaycan Milli Kitabxanasının Elektron Kataloqunda onlayn oxumaq üçün də yer almışdır.Bu haqda nə deyərdin?**
— Dogrudur,müəllifi olduǵum 5 kitab,160 -dan çox publisistik məqalə və araşdırmalarım dediyiniz ünvanda yer alıb.
**–Sevindik,yəqin ki ,bu yaşda qazandıǵın ugurların öz qiymətini, dəyərini də almamış deyil…..**
—Mən dəfələrlə müxtəlif tədbirlərin iştirakçısı və mükafatçısı olmuşam. Bele ki, Abşeron rayon Təhsil Şöbəsinin keçirdiyi ictimai- kütləvi tədbirlərdə çıxışlar etmiş,məktəb tərəfindən çoxsaylı tərifnamə və diplomlarla təltif olunmuşam.
2017 – ci ildə "Həqiqət" Tarixi Araşdıırmalar Ictimai Birliyinin "Gənc Istedad"fəxri diplomuna,2019 -cu ildə"Asiya–fakt"Informasiya Agentliyinin" Sizi tanıyaq" layihəsində iştirakıma görə.uşaqlar arasında" Ən yaxşı yazar"diplomuna və "Azərbaycan XXI əsrə istedadlarla" layihəsi çərçivəsində "Gənc istedad"diplomuna layiq ǵörülmüşəm. Belə ki,"Zəfərin nişanəsi"adlı şeirim I yerə layiq görülərək Mədəniyyət Nazirliyinin Fəxri fərmanı ilə mükafatlandırılmışam
–""Sənə Zəfər yaraşır"müsabiqəsində də iştirak etmiş olarsan….
**–Bəli,həmin məqaləm Respublika UGIM üzvləri arasında lll yerə layiq ǵörüldü….Bu qədər saysız hesabsız təltifllər, mükafatlar səndə arxayınçılıq yaratmadı ki?**
–Əksinə, mən öz üzərimdə daha məsuliyyətlə çalışmaǵa başladım…
2018-ci ildə"Dünyamsan Azərbaycan"və "Hərdən ucmaw istəyirəm" adlı şeirlər kitablarım,2020 -ci ildə"Ulu Naxçıvanım"adlı publisistik,"Könüllərə yol gəzirəm" adli şeir kitablarım və şəhidlətimizə həsr olunmuş " Möhtəşəm Zəfərin Nişanəsi"(2021) adlı kitabım nəşr edilmişdir.
–Sən həm də"Kredo" qəzetinin redaksiya heyətinin üzvü olmaqla,ən gənc ictimai müxbirisən. Məncə,2019-cu ildən bu

qəzetin üzvü,2021 -ci ildən AJB-nin də üzvüsən…
—Sevindik ,mənə məlumdur ki,sən Vətən müharibəsi qurtarandan bu günə kimi vikipediyada565 şəhidimiz haqqında səhifə açaraq ,şəhidlərimiz qarşısında mənəvi borcunu yerinə yetirməklə onların ailələrinə dəstək olmusan.Onların təskinlik tapmalarına nail olduguna görə özünü xoşbəxt hesab etmisən….
–Əlbəttə,44 gün davam edib möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsinin ilk anlarından başladıgım və 11 aya yazdıgım kitabda işgaldan azad edilmiş,kəndlərimizə, şəhərllərimizə,yaşayış məntəqələrimizə,qəhrəman şəhidlərimizə,müzəffər Azərbaycan əsgərinə,qazi və mərd,qeyrətli döyüşçülərìmiz barədə şeirlər, məqalələr yazmaqla kütləvi tədbirlərdə bu mövzularda söylədiyim nitqləri ,şəhidlərimiz barədə vikipediyada acdıgım səhifələri müqəddəs Zəfərimizin ildönümündə – 2021-ci ildə”Möhtəşəm Zəfərin Nişanəsi”adı ilə 1 cild,708 səhifə olmaqla kitab halında çap etdirmişəm.Bu kitabı Şəhidlərimizin müqəddəs ruhuna hədiyyə olaraq respublikamuzin 60-dan çox rayonundakı şəhid ünvanlarına göndərmişəm.
Söhbət əsnasinda masanın üzərindəki yazılar diqqətimi cəlb etdi..
–Bunlar həmin kitabımın – 2ci cildinin davamıdır, -dedi …bu günkü qəhrəmanım
—Sevindik,sənin ədəbi-bədii yaradıcıllıq ugurlarını müntəzəm izlədiyimə görə səninlə görüşmək mənim üçün maraqlı idi.Və bu kitabının yüksək səviyyədə keçirilən təqdimatlarını sosial şəbəkələrdə izləmişəm…..
—Bu il Bakıda bəmin kitabımın təqdimatı F.b.Köçərli adına kitabxanada,Yasamal rayon müharibə veteranları birliyində,bölgələrin 7 rayonunun sakinlərinin iştirakı ilə Şəki şəhərində H.Əliyev mərkəzində şəhid ailələrinin və məktəbli gənclərin iştirakı ilə keçirildi.Təqdimatda respublikamızın tanınmış alimləri, şəhid valideynləri öz gözəl fikirllərini

söyləmişlər….
**—Sevindik sənin bitib tükənməyən ugurların hem bir müəllim kimi,həm bir jurnalist kimi,həm də bir sosial şəbəkələrin izləyicisi kimi məni ürəkdən sevindirir.Sən və sənin kimi bir neçə yaradıcı gənc var ki,sizinlə fəxr edir və qürur hissi keçirirəm.(Guman ki, onlar haqda da növbəti yazılarim olacaq…)Bütün ugurlarında şübhəsiz ki, valideynlərinin də rolu böyükdür. Onlar haqda məlumat verə bilərsən ?**
–Atam Əliyev Nəsib Salah oglu qeyd etdiyim kimi, Agcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur.ADU- nun hüquq fakultəsini bitirib .Uzun müddət daxili işlər orqanlarında çalişmışdır.Qarabag müharibəsi veterani istefada olan polkovnikdir.Hazırda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.
Anam-Həsənova Vüsalə Saleh qızı Xocavənd rayonunun Muganlı kəndində anadan olmuşdùr tibb işçisidir….
Bacim Tərlan da ADU- nun hüqüq fakultesini bitirib….
Imtahanlarını müvəffəqiyyətlə verib, vakant yer olmadığından hazirda isləmir
–Ot kökü üstə bitər demiş babalar..Indi qətiyyətlə demək olar ki,istedadin geni məlum!!Atanın peşəsi ,Tərlanın da atanın yolunun davamçisi olması
senin mövqeyinin istiqamətini aydınlaşdırdı…
**–Gələcəkdə şübhəsiz ki, ədəbi yaradıcılığınla yanaşi hansi sahəni seçməyi arzulayirsan?**
–Ən böyük arzum diplomat olmaqdir…
Nəhayət,gələcəyin diplomatı olacaq gənc yazarımla müsahibəmi bitirirem……
–Sənə bütün istəklərinə çatmaqda yeni-yeni ugurlar arzulamaqla diplomat kimi növbəti görüşümüzədək sagollaşıram…

# NƏZAKƏT EMİNQIZI İLƏ MÜSAHİBƏ

**1. Nəzakət Kərimova – Əhmədova, nədən həm Kərimova həm Əhmədova ?**
56 ildir ki, mətbuatda mənim imzam Kərimova olub ata imzam ailə quranda Əhmədova olub şəxsiyyət vəsiqəmi dəyişəndə dedim ki, imzam qalsın dedilər olmaz Əhmədova yazmalıyıq mən "fb" da gördüm ki, həm Kərimova həm də Əhmədova Nəzakət var dolaşıqlıq olmasın deyə belə yazıram.

**2. Mətbuat imzanız Kərimova ata imzanız Əhmədova sonradan yaradıcılığınıza bir təsiri olub Kərimova Əhmədova yazmaq necə bir hissdir?**
Kərimova mənə atamı "hmədova isə həyat yoldaşımı xatırladır Nəzakət Kərimova "hmədova: Prezidentimizin sərəncamı ilə "İlin müəllimi" müsabiqəsində qalib olarkən Kərimova, ikinci sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldükdə isə Əhmədova imzası ilə təltif olunmuşam.
Nəzakət Kərimova Əhmədova: Və bu imza ilə yazmağımla qürur duyuram.

**3. "Tərəqqi" medalına layiq görülmək„ilin müəllimi, müsabiqəsində qalib olmaq mətubatda 56 ilinizin ən gözəl dəyəridir necə bir duyğudur nəzakət xanım?**
İstər "İlin Müəllimi",istərsə də "Tərəqqi "medalını alarkən sevincimi təsəvvür edə bilməzsiniz . çox müsabiqələrin qalibi olmuşam ,pul mükafatları və diplomlar almışam. həmişə əvvəl həyəcan , sonra isə sevinc göz yaşları….bilirsiz müsabiqələrə gedəndə məni maddiyyat yox, mənəviyyat daha çox maraqlandırır..yüzlərlə pedaqoqların içində qalib olmağın sevincini təsəvvür edə bilməzsiz!!!" İlin müəllimi " müsabiqəsində nəticəni gözləməyin həyacanı ağıla gəlməzdir! O vaxt qaliblərin adını televiziyada bir bir oxuyurdular ..biz

ailəlikcə oturub baxırdıq ki görəsən müsabiqədən keçə bildimmi? növbə çatanda Kərimova Nəzakət Emin qızı adımı eşidəndə qonşuluqda yaşayan qızımın necə həyəcanla sevinc göz yaşları ilə gəlib məni qucaqlaması hələ də gözümün önünə gəldi! Çünki nəticəni bütün rayon pedaqoqları və bölgələrdəki dostlarım da gözləyirdi İndi təsəvvür edin zənglərə cavab verib qurtara bilmirdim….bu hissləri keçirənlər bilər..
“Tərəqqi “medalı ilə təltif olunmağımı da bilmirdim səhər tezdən təhsil şöbəsinin müdiri bu xoş xəbəri verəndə dərsə gedirdim …Məktəbə çatanda gördüm ki artıq televiziyadan müxbirlər həyətdə məni gözləyirlər…Əlbəttə zəhmətinə ,uzun illərin əziyyətinə dəyər verib qiymətləndirmək unudulmaz gözəl və kövrək hisslərdir…

**4. Müəllimlik ali peşədir şagirdlər necə nəzakət müəlliməsindən razıdırlarmı?**
Razı olmaya bilərlərmi?! Onları sevərək vətənpərvər, cəmiyyətə faydalı şəxsiyyət kimi təqdim etmişəmsə…

**5. Ailənizdə necə narazılıq edən olub ədəbiyyaçı olmağınıza görə narazılıq olsun istəməsinlər?**
Əksinə bütün fəaliyyətimin arxasında uğurlarımın sevincinə ilk sevinib məni ruhlandıran həyat yoldaşım oğlum qızım, sağlığında isə atam, anam bacılarım
elə bu gün də uğurlarıma yaxın bildiyim həmkarlarım ,keçmiş iş yoldaşlarım sevinclərimə şərik olur,mənə mənəvi dəstək verirlər. Bu sahədə özümü qismən xoşbəxt hesab edirəm Atam dünyasını dəyişəndə depresiyaya düşdüm uzun müddət Respublika xəstəxanasında müalicə aldım həkimlər mənim müalicəmi yalnız diqqətimi nəyəsə cəlb etməyi lazım bildilər..Və mən o zamandan elmi işlə məşgul oldum…sonra

nəvəmin vaxtsız ölümü məni çox sarsıtdı və fikirdən onkoloji xəstəliyə düşdüm..uzun müddət marağım həyata söndü…

**6. Ailə də neçə uşaq idiniz Allah rəhmət eləsin atanız necə biri idi övladlarına qarşı sərt adam idi atanızda müəllim idi?**
Allah razı olsun ailədə 8 uşaq olmuşuq. hamımız təhsil almışıq. Atam təhsilimizə qarşı çox diqqətli idi. BVM veteranı idi (jurnalda qeyd etmişəm) Sərtliyi təhsilimizlə bağlı olub.

**7. Nəvənizin neçə yaşı var idi ruhu şad olsun xəstə idi yoxsa adı nə idi nəzakət xanım nəvənizə həsr ediyiniz yazılar var?**
Nəvəm sağ qalsaydı 21 yaşı olacaqdı gözəl şeirləri, rəsmləri mətbuatda jurnalda dərc olunmuşdu..onu anadan olandan (2000 ci il 4 oktyabr)özüm saxlamışdım. 5 yaşında uziyə salanda (OMD də) bildik ki böyrəyi multikistoz imiş.. Cavadzadə dedi ki, bu ilin sonuna kimi qala bilər .((Amma mən onun müalicəsi ilə daha ciddi məşgul oldum havalanırdım ki belə zəkalı dünya görüşlü uşagı necə itirə bilərik!!
Yaxşi həkim tapmaq üçün hacı nurana müraciət etdim. Allah ona kömək olsun rayona gəlib evimizdə çəkiliş apardı və çəkilişdən sonra bir səxavətli mərhəmətli oğul nəvəmin Türkiyədə böyrəyini dəyişmək üçün yardım edəcəyini deyib uşağı gətirməyi xahiş etdi..İrandan böyrək də köçürmək üçün razılıq aldı və Gülhanədə(45 min ə) əməliyyata gedərkən həkimdən göndəriş almağa getdik. həkim dedi ki, yaşla çəki düz gəlmir narkozdan çıxa bilməz!!təsəvvür edin !!!Nə hala düşdüm. qalan illərinə görə fəaliyyətimi kənara qoyub yalnız onunla oldum …Çoox duyğusal uşaq idi..birdən nəsə demək istəyirdi ama susurdu..yalvarıb soruşurdum deyirdi Bakıya bulvara gedərdim ..həmən taksi tutub gətirir gəzdirib aparırdım…onun bütün arzularını yerinə yetirmişəm deyə özümdə rahatlıq tapıram(((…mayın 20 sində dedi ki, nənə həkimlərimin yanına apar…biz Bakıya urologija xəstəxanasına

gəldik analizləri verdik kreatinin cavabını görəndə dəli oldum 676!!!!dedim cavab səhv olar..həkim dedi olduğudur!mən hər dəfə müayinəyə gətirəndə onun kreatinini aşağı salmaq üçün müalicə alırdıq 300 lə 400ə yaxın olurdu həkimdən soruşdum ki neçə olanda insan ölə bilər demişdi 400..Birdən görürəm ki hansı həkimə gedirik hamısına üzrxahlıq edir, halallıq alır!!!((((sən demə Bakiya halallıq almaq üçün gətirdib. rayona qayıtdıq 21 ində rayona təhsil naziri gəlmişdi konfransa məni dəvət etdilər getmək istəmirdim…asimanım dedi ki, nənə get mən yaxşıyam…getdim konfrans qurtarıb yola çıxırdım qızım zəng etdi ki, tez gəl asimanın vəziyyəti pis oldu. 22 si söhbət edə edə gülə gülə dünyasını dəyişdi. 13 yaşında. yoldaşım da asimanın ölümünə dözə bilmədi ayaqları yığıldı gəzə bilmədi..sonda yatağa düşdü 3 ildir ki , dünyasını dəyişdi. qızım da oğlundan sonra depresiyaya düşdü.. tam sağlam olduğu halda pis vəziyyətdə idi həkimlər onun mühitini dəyişməyi dedilər ona görə də Bakıda işə qoyduq cəmiyyət içində şəhərin hay küyündə olmaq onu qismən də olsa fikirdən ayıra bildi qızım.

**8. Bu dərd qəmin yaradıcılığınıza təsiri olub…**
Əlbəttə sevib həyatımla bağlandığım əzizimi itirəcəyimə görə ağır zərbə aldım.

**9. Dəstəkçilərinizdən biri də yoldaşımdı dediniz o da yazmağa cəhd edirdi yoxsa işi başqa idi…**
O da müəllim idi bir məktəbdə işləyirdik..O yalnız mənim yazılarımı köşkdən birinci alırdı ilk oxucum idi.. çox maraqlı idi ona mənim həvəslə maraqlanıb fəaliyyət göstərdiyim ictimai işlər…heç vaxt mənim hərtərəfli pedaqoji fəaliyyətimə zidd olmayıb əksinə mənə mənəvi dəstək idi həmişə…

**10. Yenə o dərd həmişə sizi göynədir ağladır o dərdən sonra sizi güldürən nələrsə oldumu həyatınızda..?**
Bəli bu dərd bu gündə mənimlədir…həyat yoldaşım gözəl ömür sürüb nəvə toyu da gördü. amma nakam nəvəmin arzuları çox idi yazıb qoyub ki, həcc ziyarətinə gedəcəyəm.. O zaman teleaparıcı leyla xanımdan çox xoşu gəlirdi zaurla görüşmək arzusu vardı….Mübarizin şəhid olduğu gün sarılıb ağladı və ona şeir yazdı həmin şeir mətbuatda çap olundu, tədbirlərdə söylənib..mən biləsuvarda Şəhid anaları ilə ev muzeyində olarkən həmin şeiri şəhidimizin anası Tamara xanıma təqdim etdim ….ani təbəssüm gülüş olsa da o daim ürəyimdədir. İnanırsız qohumlarım mənim uşaqlara münasibətimin sevgimin soyuq olduğunu hiss edirlər ,çünki ondan sonra uşaqlara sevgim qalmayıb…bəzən xoşladığım uşaqlar olub onda elə bilirəm ki, asiman məni görür …qısqanır…

**11. Son günlər nələr yazırsınız mövzularınız nələrdir yeni kitab düşünürsünüz inşallah həccə gedərsiniz Allah niyyətləriniz qəbul olar ?**
Son il, son aylar və günlər Şəhidlərimiz Qazilərimiz Müharibə Veteranları ilə keçirdiyimiz tədbirlər, ziyarətlər, Şəhid anaları ilə regionlara olan səfərlərimizdən, kitab təqdimatlarından müxtəlif görüşlərdən və s yazıram. Ümumiyyətlə Respublika qəzetinin baş redaktoru, mərhum Teymur Əhmədov həmişə təkid edirdi ki, Xatirə kitabı yazım… Müharibəyə görə ləngidim..Yəqin nə vaxtsa ömür vəfa etsə kitabı da yazacağam. Pedaqoji fəaliyyətimin 40 ilə yaxın dövrünü N. Nərimanovun Bakıdakı ev muzeyinin filialı kimi yaradıb təşkil etdiyim və rəhbəri olduğum muzey işinə həsr etmişəm.. İctimai işlərə olan marağım, həvəsim mənim həyatda olmağıma stimul verir ömrümü həsr etmişəm bu maraqlı sahəyə. hər hansı bir mövzu məni maraqlandırırsa onu oxucularımla bölüşməyə tələsirəm…

mənim çox yaxın dostum var onunla fikirlərimi bölüşürəm… ədəbi fəaliyyətimdə onun roluna güvənirəm.

**12. Qızınızın dövlət qulluçusu olduğunuzu dediniz o da sizin kimi bu işlərin öhdəsindən gələ bilir yəqin ki o da sizin kimi həvəslidir bu işlərə?**
Qızımın öz marağı var işi və 2 oğlunun təhsili ilə məşguldur ev işləri…

**13. Bəs bu sahəyə maraq haradan yarandı maraqlıdır bu işlərin öhdəsindən gəlmək çətin deyildi indi geri dönüb baxdığınızda bu sahəyə maraq sizdə təssüf hissi yaradıb yoxsa?**
Əksinə belə işlərdən mənəvi rahatlıq duyuram həyatım mənalı və maraqlı keçir sanki ömrümə ömür qatılır…

**14. Dostlarınızla aranız necədir? Dostlarınız sizə qarşı vəfalıdır?**
Mən özüm dostlara etibarlı və sədaqətliyəm,mehribanam çalışıram ki ,kimin nə problemi olsa köməklik edim…Dostlarımın vəfalı olmasına gələndə bəzən olur da…Amma əksəriyyəti vəfalıdır.

**15. Mütailə edirsiniz? Edirsinizsə kimləri mütailə edirsiniz yeni gənclik qane edir sizi təbii ki söhbət yazarlardan gedir?**
Günü bu gün də mütaliəsiz qala bilmərəm ..Allahdan arzu edirəm ki ,kitab təqdimatlarından mənə hədiyyə edilən kitabları oxuyub qurtara bilim… Yeni gənclik deyəndə indi hamı şeir yazır. Gənclər öz üzərlərində çox çalışmalı, yaşlı nəsildən çox məsələləri öyrənməlidirlər. Mənim bütün sahələrə marağım var, siyasət,iqtisadiyyat, mədəniyyət və incəsənət, elmin müxtəlif sahələri. Gənclərin ədəbi fəaliyyəti məni qismən qane edir…

**16. Sizin kitablarınızın təqdimatı olmuşdumu yoxsa?**

Mən hələ kitab yazmağa vaxt tapa bilmirəm başlasam qısa müddətdə yazacağam söz!

**17. Son olaraq sizə öz minnətdarlığımı bildirirəm oxucularınıza son sözünüz?**
Birinci növbədə sizə təşəkkür edirəm ki ,mənə vaxt ayırdınız və sizə də oxucularıma da can saglığı,xoşbəxtlik ,ailə səadəti,yeni -yeni yaradıcılıq uğurları arzulayıram.

**Söhbətləşdi: Alik Dənizsevər**

**"MƏN KİMƏM?" LAYİHƏSİNİN QONAĞI**

Mən (Kərimova) Əhmədova Nəzakət Emin qızı 18 dekabr 1948-ci ildə Xudat şəhərində ziyalı ailəsində anadan olmuşam. ADU-nun tarix fakultəsində sonra isə hüquq fakultəsində (ikinci ixtisas) təhsil alan atam müxtəlif dövlət vəzifələrində çalışmış, sonda uzun müddət Xudat şəhər 1 nömrəli məktəbin direktoru olmuşdur. 1941-45-ci il BVM-də yaralanaraq mühüribə əlili olmuşdur. (52 yaşında vəfat edib.) Onun pedaqoji fəaliyyəti, fəal çalışması məndə də pedaqoq olmaq həvəsi yaratdı və mən də müəllim olmağa qərar verdim.

APU- nin pedaqoji fakultəsini bitirməmişdən elmi – metodiki məqalələrim mətbuatda dərc olunmaga başladı… Odur ki, mənim dövri dövlət qəzet və jurnallarındakı yazılarıma görə elmi araşdırmalar aparmaq üçün o vaxtkı Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitunun (ETPEİ) dissertanturasına qəbul olunmaq təklifinə razı oldum. Jurnalistikaya olan həvəsimə görə Jurnalist Sənətkarlıgı İnstitunda da təhsil aldım. İstər respublika, istərsə də ETPEİ -nin elmi-praktik konfranslarında,elmi müsabiqələrdə fəal iştirakıma, məruzə-çıxışlarım maraq kəsb etdiyinə və qalib olduguma görə müxtəlif diplom, Fəxri Fərman və pul mükafatlarına layiq görülmüşəm. Pespublika üzrə keçirilən "Pedaqoji Mühazirələr"də I-II və III yerlərin diplomlarını almışam… Dövri mətbuatda-qəzet və jurnallarda kitablarda yüzlərlə yazım dərc olunmuş, tele -radioda (AzTV də əsasən) silsilə verilişlərdə maraqlı mövzularda çıxışlarım olmuşdur…

Pedaqoji sahədə çalışan müəllimlərə kömək məqsədilə redaksiyaların sifarişı ilə dərs nümunələri, sinifdənxaric və məktəbdən kənar tədbirlərin ssenarilərim qəzet və jurnallarda dərc olunmuşdur.

Pedaqoji fəaliyyətimlə baglı uzun müddət məktəbli – gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində işin məqsədyönlü təşkili üçün işlədiyim Xudat şəhər N.Nərimanov adına 2 nömrəli məktəbdə "N.Nərimanovun Bakıdakı ev muzeyi

"nəzdində Xatirə muzeyini yaratmış və 40 ilə yaxın muzeyimə rəhbərlik etmişəm.
İctimai əsaslarla işlədiyim muzeyə Bakı muzeyi 450 eksponat bagışlamışdır. Müxtəlif respublikarın Mədəniyyət Nazirliklərinə yazaraq Nərimanovla baglı sənədlər, vidio -lentlər, kitab və bukletlər, foto şəkillər toplayaraq eksponatların sayını beş minə çatdırdım. Muzeyə on minə yaxın müxtəlif peşə adamları, nərımanovçu akademik və alimlər, məktəblilər, hərbiçilər, deputatlar, aktyorlar ,idmançılar, tələbələr və b. ziyarət etmişlər. Muzey xətti ilə üzvlərin Bakıdakı ev muzeyində, tarixi yerlərdə, AzTV-nın müxtəlif redaksiyalarında olmuş, AMEA-nın, APU-nun tanınmış alımləri ilə maraqlı görüşlərini təşkil etmiş, Fəxri Xiyabana,Ş əhidlər Xiyabanına və onların arzularına uygun yerlərə səyahətini keçirmişəm. Təsadüfi deyil ki, vaxtilə muzey üzvü olmuş gənclərimin bir çoxu hazırda hərbiçi olaraq Vətənimizin keşiyindədirlər. 44 günlük Müharibədə bir neçə məzunumuz da Şəhidlik zirvəsinə ucalmışlar…
Ölkə başçımızın sərəncamı ilə "İlin Müəllimi" müsabiqəsində iştirak edərək qalib olmuş, pul mükafatına sahib olmuşam.
2014 – cü ildə Prezidentimizin sərancamı ilə "Tərəqqi" medalına layiq görülmüşəm.
Hazırda ictimai -siyasi fəaliyyətimi davam etdirir, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İB (DAMM İB) Sabitlik və İnkişaf Mərkəzi İB (SİM İB) və İctimai Nəzarət Koalisiyasının Fəxri üzvü, Abşeron rayonu üzrə sədri olmaqla - Şəhid Milli Qəhrəman ailələri və Qazilərlə iş aparır, bu təşkilatın sədri tanınmış ictimai xadum Rasim Məmmədov və təşkilatın üzvləri ilə şəhidlərin anım mərasimlərində iştirak edərək onlara mənəvi dəstək olur, problemlərinin həllində köməklik göstəririk. Burada da fəaliyyətimiz barədə mütəmadi olaraq saytlarda, mətbuatda yazılar verirəm.
"Yazarlar" jurnalının ictimaiyyətlə əlaqələr üzrə meneceriyəm.
**Hazırladı: Tuncay Şəhrili**

# KİTABIN İÇİNDƏKİLƏR

ÖN SÖZ. ÇİÇƏK ELƏ ÇİÇƏKDİR.............................................3

## HEKAYƏLƏR

GECİKMİŞ ÇİÇƏKLƏR ........................................................6
QOZ MÜRƏBBƏSİ..............................................................10

## MƏQALƏLƏR

OT KÖKÜ ÜSTÜNDƏ BİTƏR.................................................16
ƏDƏBİ GƏNCLİYİN PARLAQ MAYAKI ..............................18
YENGİCƏLİ VÜQAR.............................................................22
ELİN FƏXRİ ELCAN .............................................................24
AZƏRBAYCAN-QALİBİYYƏT DÜNYASI............................27
ALLAH NƏZƏRDƏN QORUSUN, ADİLƏ NƏZƏR! ............31
PARLAYAN ULDUZ... ..........................................................35
AĞDAM ...............................................................................41
QISACA OLARAQ AĞDAM HAQQINDA............................42
AĞDAMIN ŞƏHİDLƏRİ.........................................................45
ŞƏHİD BAŞ-LEYTENANT HİKMƏT SƏFƏROV
HAQQINDA ..........................................................................47

## PUBLİSİSTİKA

MƏLƏK SİMALI ANALAR.....................................................50
MUZEYLƏR GÜNÜ ...............................................................52
ZƏFƏR GÜNÜ .......................................................................54

"XARIBÜLBÜLÜN"ÜN İŞIĞINDA ........ 57
BİR GÜNÜN TƏƏSSÜRATLARI ........ 59
ŞƏHİDLƏR AND YERİMİZ ........ 62
TÜRKİYƏ YAZARLARI AZƏRBAYCANDA MƏDƏNİ ƏLAQƏLƏR İCTİMAİ BİRLİYİNİN QONAĞI OLUB ........ 64
BİR DAHA ŞƏHİDLƏR HAQQINDA ........ 66
"ZƏFƏR GÜNÜ" TƏDBİRLƏRİ DAVAM EDİR ........ 69
XIRDALANDA TƏDBİR ........ 71
XATİRƏ TƏDBİRİ ........ 73
ŞƏHİD RAMİQ MİKAYILOV ANILIB ........ 74
M.S.ORDUBADİNİN 150 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB ........ 76
ZAUR İSMAYILZADƏ ANILDI ........ 78
MİRVARİD DİLBAZİNİN 110 İLLİYİ ........ 81
"İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU "NUR ART HOUSE" ........ 83
TÜRKİYƏ AZƏRBAYCAN BİRLİYİ ........ 86
DÜNYA AZƏRBAYCANLILARININ MƏDƏNİYYƏT MƏRKƏZİ (DAMM) ........ 88

## MÜSAHİBƏLƏR

SEVİNDİK NƏSİBOĞLU İLƏ SÖHBƏT ........ 92
NƏZAKƏT EMİNQIZI İLƏ MÜSAHİBƏ ........ 97
"MƏN KİMƏM?" LAYİHƏSİNİN QONAĞI ........ 102

**NƏZAKƏT EMİNQIZI**
(ƏHMƏDOVA-KƏRİMOVA NƏZAKƏT EMİN QIZI)

# GECİKMİŞ ÇİÇƏKLƏR

*(hekayə və məqalələr)*

Çapa imzalanmışdır: 18.12.2022
Kağız formatı: 60x84 1/16
Həcmi: 6.75 ç.v
Tiraj: 100
«Ecoprint» nəşriyyatında nəşrə hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.

Əlaqə: Tel: (+994) 77-312-15-69
(+994) 50-585-20-28



Nəzakət Emin qızı (Nəzakət Kərimova-Əhmədova) 18 dekabr 1948-ci ildə Xaçmaz rayonunda doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra ADPU-nin pedaqoji fakültəsinə qəbul olunmuş və 1972-ci ildə oranı bitirmişdir. Hələ tələbə ikən elmi metodiki, ədəbi-bədii yazıları ilə respublika mətbuatında çap olunmağa başlamışdı.

Eyni zamanda o vaxtlar fəaliyyətdə olan Jurnallst Sənətkarlığı İnstitutuna qəbul edilmiş və 1983 cü ildə oranı bitirmişdir. Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertanturasına daxil olmuş, elmi fəaliyyətini orada davam etdirmişdir. Nəzakət Eminqızının səmərəli fəaliyyəti qiymətləndirilmiş, o, Prezident İlham Əliyevin sərəncamı ilə "İlin müəllimi" adına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Respublikamızda və ondan kənarda qəzet və jurnallarda yüzlərlə maraqlı elmi-metodiki, ədəbi -bədii, publisistik yazıların müəllifidir. Son zamanlar "Respublika", "Ədalət", "Azərbaycan" Ədəbiyyat və İncəsənət" (indiki Ədəbiyyat qəzeti), Yeni təfəkkür, "Bakı xəbər", "Kredo", "Samur", "Yurd həsrəti" və s. qəzetlərində, "Yazarlar", Carçı", "Xəzan" və s. jurnallarda cap olunur."Gecikmiş çiçəklər", "Ömrün unudulmaz anları" kitablarının, "Zaur Ustac-Seçilmiş Əsərləri" kitabının layihə rəhbəridir. Ədəbi fəaliyyəti sahəsində qazandığı uğurlara görə "Qızıl Qələm", "İsa Muğanna", "Ziyadar", mükafatları, "Xarıbülbül" medalı və bir sira "Fəxri Diplom"larla təltif olunub. Hazırda "Heydər Əliyev–100 illiyi" yubiley tədbirləri çərçivəsində yeni kitab üzərində çalışır.

Ailəlidir. İki övladı və dörd nəvəsi var.